RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 104 (10124) 17 iyun 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Azərbaycan-ABŞ əlaqələri keyfiyyətcə yeni pilləyə yüksəlib

## Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampı 80 illik yubileyi münasibətilə təbrik edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Trampa 80 illik yubileyi münasibətilə təbrik məktubu ünvanlayıb.**

**AZƏRTAC xəbər verir ki, bu barədə Prezidentin "X" sosial şəbəkəsindəki hesabında paylaşım edilib. Məktubu təqdim edirik:**

### Amerika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Donald Trampa

Hörmətli cənab Prezident!

Əlamətdar yubileyiniz - anadan olmağınızın 80 illiyi münasibətilə Sizə ən səmimi təbriklərimi yetirməkdən, möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, güclü və qüdrətli dövlətin görkəmli Lideri kimi ali dövləti fəaliyyətinizdə daim uğurlar və yeni-yeni nailiyyətlər arzulamaqdan məmnunluq duyuram.

Azərbaycan ilə ABŞ arasında strateji tərəfdaşlığın təşəkkülündə və dərinləşməsində Sizin əvəzsiz xidmətləriniz vardır və biz bunu yüksək qiymətləndiririk. Keçən ilin avqustunda Ağ Evdə Sizinlə tarixi görüş zamanı əsası qoyulmuş Strateji Tərəfdaşlıq Xartiyasının altı ay sonra ABŞ-nin Vitse-prezidenti Cey. Di. Vensin ölkəmizə səfəri çərçivəsində imzalanması Azərbaycan-ABŞ əlaqələrini keyfiyyətcə yeni pilləyə qaldırdı. Əldə etdiyimiz bu möhtəşəm nailiyyət Sizin sarsılmaz iradənizin və əzminizin bariz göstəricisidir. Dövlətlərarası münasibətlərimizin inkişafına daim verdiyiniz böyük önəmə və dəstəyə görə Sizə təşəkkür edirik.

Biz Sizə Cənubi Qafqazda sülh gündəliyinin təşviqi naminə göstərdiyiniz qətiyyətə görə də minnətdarıq. Vaşinqtonda şahidliyiniz ilə imzaladığımız üçtərəfli birgə bəyannamə, habelə Ermənistanla paraflanan Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş sülh quruculuğu yolunda Sizin ardıcıl səylərinizin nəticəsidir. Eyni zamanda biz Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz bağlantını təmin edəcək və Orta dəhlizin bir hissəsinə çevriləcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nu (TRIPP) regionda dayanıqlı sülhün inkişafına və əməkdaşlığa növbəti töhfə olaraq görürük.

Hörmətli cənab Prezident!

Sizinlə aramızdakı şəxsi münasibətləri, dostluğu, dərin hörmət və etimadı daim uca tutur, son bir il ərzində mehribanlıq və səmimiyyət şəraitində keçən məhsuldar görüşlərimizdən və təmaslarımızdan məmnunluq duyduğumu bildirirəm.

Yüksək səviyyədə qarşılıqlı anlaşmanın mövcudluğu müxtəlif sahələrdə münasibətlərimizin daha da dərinləşdirilməsi üçün əlverişli zəmin yaradır.

Azərbaycan-ABŞ əlaqələrini bütün sahələrdə, xüsusilə də iqtisadi-ticari, sərmayə, enerji, təhlükəsizlik, bağlantılar, texnoloji və digər sahələrdə daha da inkişaf etdirmək və möhkəmləndirmək qarşılıqlı əzmimiz təqdirəlayiqdir.

Əminəm ki, Azərbaycan ilə ABŞ arasında dostluğun və etibarlı tərəfdaşlığın dərinləşdirilməsi, səmərəli əməkdaşlığımızın hərtərəfli genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Dərin hörmət və ehtiramlarımı izhar edərək bir daha Sizə və ailənizə ən xoş arzularımı çatdırır, dost Amerika xalqının rifahı naminə məsul fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

# Səmərəli əməkdaşlığımız dinamik və davamlı şəkildə inkişaf etməkdədir

### Böyük Britaniya və Şimali İrlandiyanın Kralı Əlahəzrət III Çarlza

Əlahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı - Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Hazırda dostluğa, qarşılıqlı hörmət və etimada əsaslanan dövlətlərarası əlaqələrimiz, siyasi, iqtisadi-ticari, investisiya, enerji, o cümlədən bərpaolunan enerji və digər sahələrdə səmərəli əməkdaşlığımız dinamik və davamlı şəkildə inkişaf etməkdədir. Qarşılıqlı fəaliyyətimizin böyük potensialından yararlanaraq Azərbaycan-Birləşmiş Krallıq ikitərəfli gündəliyini daha da zənginləşdirə bilərik.

Əminəm ki, xalqlarımızın rifahı naminə ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərinin və qarşılıqlı maraq doğuran əməkdaşlığın daha da möhkəmləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Əlahəzrət, belə bir əlamətdar gündə Sizə bir daha təbriklərimi yetirir, möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, ali fəaliyyətinizdə uğurlar, Birləşmiş Krallığın dost xalqına daim rifah və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyun 2026-cı il*

# Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında münasibətlər uğurla inkişaf edir

## Prezident İlham Əliyev Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefektini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefekti Corc Ceykob Kuvakadı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı ölkəmizlə Müqəddəs Taxt-Tac arasında münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, müxtəlifsəviyyəli qarşılıqlı səfərlərin ikitərəfli əlaqələrimizin inkişafında roluna toxunuldu. Bu baxımdan Corc Ceykob Kuvakadın ölkəmizin regionlarına da səfər edəcəyinin əhəmiyyəti qeyd olundu.

Qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefekti Roma Papası XIV Leonun və Vatikanın dövlət katibi kardinal Pietro Parolinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Roma Papasına və Vatikanın dövlət katibinə çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı Vatikana səfərini və mərhum Roma Papası Fransisklə görüşünü, həmçinin onun ölkəmizə səfərini məmnunluqla xatırladı.

Söhbət zamanı Azərbaycanda tarixən bütün xalqların və dinlərin nümayəndələrinin sülh və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşaması məmnunluqla qeyd olundu, ölkəmizin tolerantlıq və multikulturalizm məkanı kimi dinlərarası və mədəniyyətlərarası dialoqun inkişafına qlobal səviyyədə verdiyi mühüm töhfələr vurğulandı.

Müqəddəs Taxt-Tacın Azərbaycandakı Katolik Kilsəsinin fəaliyyəti qeyd edildi, ölkəmizdə bu cür ikinci kilsənin inşa olunduğu bildirildi.

Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasındakı əməkdaşlığa toxunuldu, fondun bu ölkədə həyata keçirdiyi layihələrin mədəni irsin qorunması və dinlərarası dialoqun təşviqi baxımından rolu qeyd edildi.

Görüşdə Azərbaycanla Müqəddəs Taxt-Tac arasında əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Roma Papası XIV Leonun ölkəmizə səfərə dəvəti ilə bağlı məktubunu Corc Ceykob Kuvakada təqdim etdi.

# Azərbaycan Avrasiyanın etibarlı əməkdaşlıq məkanına çevrilməsi istiqamətində çalışmaqdadır

### "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda Şuşada keçirilən beynəlxalq konfransda ürəkdən salamlayıram.

2022-ci ildən başlayaraq təşkil olunan bu mötəbər beynəlxalq tədbir müasir dövrdə baş verən mürəkkəb geosiyasi proseslər fonunda xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın təşviq etdiyi regional sülh və sabitlik mühitinin yaradılması ideyasının vacib tərkib hissəsinə çevrilən konfransın iştirakçılarının sayının ilbəil artması onun ümumi təhlükəsizliyə və beynəlxalq əməkdaşlığa gələcəkdə layiqli töhfələr verəcəyinə əminlik yaradır.

Müstəqilliyini bərpa etdikdən sonra işğala, beynəlxalq təhdidlərə və ədalətsizliyə məruz qalmış Azərbaycan hər zaman öz ərazi bütövlüyünün təmin olunması, vətəndaşlarının təhlükəsiz şəraitdə yaşaması uğrunda mübarizə aparmış, eyni zamanda dünya ölkələri arasında əməkdaşlıq və mehriban dostluq münasibətlərinin qurulmasına çalışmışdır. Uzun illər əsarət altında qalan torpaqlarımız 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi və 2023-cü ildə keçirilmiş birgünlük antiterror əməliyyatı nəticəsində Ermənistan işğalından azad edilmiş, ölkəmizin suverenliyi və ərazi bütövlüyü tam bərpa olunmuşdur.

2

# Prezident İlham Əliyevin sosial media hesablarında Milli Qurtuluş Günü münasibətilə paylaşım edilib




# Birinci vitse-prezident Mehriban Əliyeva Milli Qurtuluş Günü münasibətilə paylaşım edib







# Prezident İlham Əliyevlə Niderlandın Baş naziri arasında telefon danışığı olub



İyunun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Niderland Krallığının Baş naziri Rob Yetten arasında telefon danışığı olub. Bu barədə Prezidentin "X" sosial şəbəkə hesabında paylaşım edilib.

AZƏRTAC paylaşımı təqdim edir: "Bu gün Niderlandın Baş naziri Rob Yetten (@MinPres) mənə telefon zəngi etdi. Siyasi dialoqumuzu və iqtisadi əməkdaşlığımızı daha da dərinləşdirmək barədə razılığa gəldik. Biz həmçinin regional proseslər ətrafında fikir mübadiləsi apardıq və mən Niderlandın bölgədə dayanıqlı sülhə və sabitliyə verdiyi dəstəyə görə məmnunluğumu bildirdim".

# Ölkələrimiz arasında qardaşlıq bağlarını daha da möhkəmləndirmək əzmimizi bir daha təsdiqləyirəm

**Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə**

Cənab Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə öz adımdan və Tunis xalqı adından ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram. Sizə möhkəm cansağlığı, davamlı rifah, qardaş Azərbaycan xalqına isə tərəqqi və firavanlıq arzu edirəm.

Ölkələrimiz arasında mövcud qardaşlıq bağlarını daha da möhkəmləndirmək və xalqlarımızın mənafeyi naminə əməkdaşlığı bütün sahələrdə inkişaf etdirmək üçün birlikdə çalışmaq əzmimizi bir daha təsdiqləyirəm.

Həmçinin fürsətdən istifadə edərək Sizi və qardaş Azərbaycan xalqını Qurban bayramı münasibətilə də səmimi-qəlbdən təbrik edir və xoş arzularımı bildirirəm. Uca Allahdan bu mübarək bayramın qardaş ölkələrimizə və xalqlarımıza bol ruzi-bərəkət, bütün İslam aləminə isə daha böyük güc, rifah və əmin-amanlıq gətirməsini arzulayıram.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Kays SAYİD,***
***Tunis Respublikasının Prezidenti***

# Azərbaycan Avrasiyanın etibarlı əməkdaşlıq məkanına çevrilməsi istiqamətində çalışmaqdadır

**"Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına**

*Əvvəli 1-ci səh.*

Bununla BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxın müddətdə kağız üzərində qalmış qətnamələrinin icrası Azərbaycan dövlətinin özü tərəfindən təmin edilmişdir.

Ölkəmiz regionda davamlı sülh və sabitlik mühitinin yaradılması və qorunması istiqamətində qətiyyətli siyasət həyata keçirməkdədir. Ötən il Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında Birgə Bəyannamənin imzalanması, sülh sazişinin paraflanması Cənubi Qafqazda vəziyyəti tamamilə dəyişmişdir. Bu xüsusda, reallaşmaqda olan Zəngəzur dəhlizi həm Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan bölgəsini birləşdirəcək, həm də Orta dəhlizin əsas seqmentlərindən birinə çevriləcəkdir.

Azərbaycanda 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması və BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının Bakıda yüksək səviyyədə keçirilməsi ölkəmizin postmünaqişə dövründə ardıcıl humanitar fəaliyyətinin bariz nümunəsidir. Bu forumda Azərbaycan dünyanın 182 ölkəsini təmsil edən 60 minə yaxın iştirakçıya işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında çağdaş şəhərsalma konsepsiyaları əsasında formalaşan müasir infrastrukturu və hazırda orada təhlükəsiz yaşayan 85 mindən çox azərbaycanlı üçün yaradılan layiqli həyat şəraitini təqdim etmişdir.

Ədalətli dünya nizamının və bəşəriyyət üçün təhlükəsiz həyat şəraitinin yaradılmasının tərəfdarı olan Azərbaycan təkcə regionun deyil, eləcə də bütövlükdə Avrasiyanın etibarlı əməkdaşlıq məkanına çevrilməsi istiqamətində çalışmaqdadır. Dost və qardaş ölkələrlə, xüsusən Türk Dünyası ilə birlikdə atılan qətiyyətli addımlar beynəlxalq əməkdaşlıq baxımından xüsusi əhəmiyyət daşıyır və ailəmiz olan Türk Dünyasını XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevirir.

Bu önəmli beynəlxalq konfrans nümunəsində ölkələr arasında həmçinin cəmiyyətdə sağlam əməkdaşlıq və həmrəylik mühitinin qorunması üçün fərqli siyasi maraqları ifadə edən partiyaların konstruktiv dialoqa, məsuliyyətli davranışa və milli maraqlar əsasında birgə fəaliyyətə üstünlük verməsi qarşılıqlı etimadın daha da möhkəmlənməsinə xidmət edir.

Əminəm ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycanı xilas etməsi ilə əlamətdar olan Milli Qurtuluş Günü və tarixi Şuşa Bəyannaməsinin imzalanmasının ildönümü münasibətilə Yeni Azərbaycan Partiyasının keçirdiyi bu konfrans çevik mexanizm funksiyasını yerinə yetirərək iştirakçı ölkələr arasında davamlı əməkdaşlığın qorunmasına vacib töhfələr verəcəkdir.

Konfransın işinə uğurlar, təmsil etdiyiniz dost ölkələrin hər birinə əmin-amanlıq və rifah arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyun 2026-cı il*

# Prezidentin köməkçisi Hikmət Hacıyev ilə Ermənistanın Təhlükəsizlik Şurasının katibi arasında işgüzar görüş keçirilib

İyunun 14-də Ermənistanın Dilican şəhərində Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev ilə Ermənistan Respublikasının Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan arasında işgüzar görüş keçirilib.



AZƏRTAC xəbər verir ki, görüş zamanı tərəflər Azərbaycan-Ermənistan sülh gündəliyi ilə bağlı bir sıra məsələləri müzakirə ediblər. Regionda davamlı sülhün və sabitliyin təşviqinə yönəlmiş səylər çərçivəsində ikitərəfli dialoqun davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Tərəflər həmçinin iki ölkənin vətəndaş cəmiyyətləri arasında etimad quruculuğu tədbirləri barədə fikir mübadiləsi aparıblar.

Hikmət Hacıyev və Armen Qriqoryan işçi səviyyəsində təmasların davam etdirilməsi barədə qərar qəbul edib, növbəti görüşün Azərbaycanda keçiriləcəyini təsdiqləyiblər.

# Qeyri-neft-qaz malları üzrə ixracın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Mikro, kiçik və orta biznesin inkişafı, investisiyaların və ixracın təşviqi sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 24 fevral tarixli 607 nömrəli Fərmanına uyğun olaraq, Azərbaycan Respublikasında istehsal olunan qeyri-neft-qaz mallarının ixracının dəstəklənməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası mənşəli qeyri-neft-qaz mallarının ixrac gömrük proseduru altında yerləşdirilməsi zamanı mikro, kiçik və orta sahibkarlıq subyekti olan ixracatçılar tərəfindən ödənilmiş gömrük rəsmiləşdirilməsi üzrə gömrük yığımlarına görə, həmin malların növündən və ixrac olunduğu ölkədən asılı olaraq, habelə bu Fərmanın 4.1.2-ci yarımbəndinə əsasən müəyyən edilən yuxarı hədd nəzərə alınmaqla, dövlət büdcəsinin vəsaiti hesabına kompensasiya (bundan sonra - ixrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyi) ödənilsin.

2. Müəyyən edilsin ki:

2.1. ixrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyi rüb ərzində ixrac gömrük proseduru altında yerləşdirilmiş Azərbaycan Respublikası mənşəli qeyri-neft-qaz mallarına görə mikro, kiçik və orta sahibkarlıq subyekti olan ixracatçının müraciəti əsasında həmin rüb bitdikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən ödənilir;

2.2. bu Fərmanın məqsədləri üçün ixrac olunan malların Azərbaycan Respublikası mənşəli olması mənşə sertifikatı əsasında müəyyən edilir;

2.3. ixrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyi faktiki ixrac olunmuş mallara görə ödənilir;

2.4. ixrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyinin tətbiq olunduğu müddətdə qeyri-neft-qaz mallarının ixracına münasibətdə gömrük nəzarətinin həyata keçirilməsinə, gömrük müşayiətinə və malların saxlancına görə gömrük yığımlarının məbləğinin artırılmasına yol verilmir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. ixrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyinin:

3.1.1. 2026-cı ildə ödənilməsinin maliyyələşdirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.1.2. 2027-2031-ci illərdə ödənilməsinin maliyyələşdirilməsi üçün zəruri vəsaitin həmin illərin dövlət büdcəsi layihələrində nəzərdə tutulmasını təmin etsin;

3.1.3. şamil olunmadığı əməliyyatların və şəxslərin siyahısını üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

4.1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla aşağıdakı normativ hüquqi aktları üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

4.1.1. ixrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyinin şamil olunacağı qeyri-neft-qaz mallarının və onların ixrac edildiyi ölkələrin (ölkə qruplarının) siyahısını;

4.1.2. bir ixrac gömrük bəyannaməsi üzrə ixrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyi məbləğinin yuxarı həddini;

4.1.3. ixrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyinin ödənilməsi ilə bağlı müraciət edilməsi və həmin müraciətlərə baxılması qaydasını;

4.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

5. Bu Fərmanın 1-ci və 2-ci hissələri 2026-cı il sentyabrın 1-dən qüvvəyə minir və 2031-ci il sentyabrın 30-dək həyata keçiriləcək ixrac əməliyyatlarına münasibətdə tətbiq olunmaqla 2031-ci il dekabrın 31-dək qüvvədədir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyun 2026-cı il*

# Azərbaycan QHT-ləri ABŞ Nümayəndələr Palatasına məktub ünvanlayıb

Azərbaycanın bir qrup QHT rəhbəri, hüquq müdafiəçisi ABŞ Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinə məktub ünvanlayıb.




AZƏRTAC xəbər verir ki, məktubda konqresmen Brad Şermanın Ruben Vardanyan və digər müharibə cinayətkarlarının azad edilməsi, 907-ci düzəlişin qüvvədə saxlanması tələbi ilə bu komitəyə təqdim etdiyi layihəyə kəskin etiraz edilir.

Azərbaycan vətəndaş cəmiyyəti təmsilçiləri bildiriblər ki, Brad Şermanın azadlığa buraxılmasını tələb etdiyi şəxslər Azərbaycan xalqına qarşı insanlıq əleyhinə cinayətlər törətmiş, yüz minlərlə insanın köçkün vəziyyətinə düşməsinə səbəb olmuş, mülki infrastrukturun və mədəni irsin dağıdılmasında, soyqırımı, ekosid, urbisid və mədəni qırğın aktlarında birbaşa rol oynamış müharibə cinayətkarlarıdır. "Yerli qanunvericiliyə və beynəlxalq hüquqi alətlərə uyğun olaraq, Azərbaycanın tam ixtiyarı var ki, bu cinayətləri araşdırsın, günahkarları məhkum etsin", - deyə məktubda diqqətə çatdırılır. Qeyd olunur ki, bununla bağlı məhkəmə prosesləri də açıq formada aparılıb, təqsirləndirilən şəxslərə zəruri hüquqi imkanlar yaradılıb.

"Azərbaycan ilə Ermənistanın davamlı sülhə və normallaşmaya doğru irəlilədiyi bir dövrdə bu müsbət impulsu sarsıdan təşəbbüslərin arxasındakı məntiqi anlamaq çətindir... Prezident Donald Tramp və onun administrasiyası Azərbaycanla Ermənistan arasında dialoqu və normallaşmanı dəstəkləsə də, Şermanın təşəbbüsü bu səylərə ziddir və əldə olunan irəliləyişin qarşısını almağa yönəlib. Ədalət, hesabatlılıq, barışıq və sülh birlikdə irəliləməlidir. Ədalət olmadan sülh, hesabatlılıq olmadan barışıq da ola bilməz", - deyə Azərbaycan vətəndaş cəmiyyəti təmsilçiləri vurğulayıblar.

# Kənd təsərrüfatında 2030-cu ilə qədər yeni inkişaf mərhələsi formalaşacaq

Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun aparıcı qüvvəsi olan kənd təsərrüfatı Prezident İlham Əliyevin sərəncamı ilə mayın 25-də təsdiqlənən "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" ilə inkişafın innovativ və dinamik mərhələsinə qədəm qoyur. Dövlət başçısının rəhbərliyi ilə keçirilən son müşavirədə aqrar sahədə əldə olunan uğurlar və qarşıda duran vəzifələr geniş təhlil edilib, həmçinin işğaldan azad olunmuş torpaqlarımızda "Böyük qayıdış" çərçivəsində yaranan yeni imkanlardan danışılıb, strateji hədəflər müəyyənləşdirilib. Kənd təsərrüfatı naziri Məcnun Məmmədov ölkənin ərzaq təhlükəsizliyi, rəqəmsallaşma, su ehtiyatlarının səmərəli idarə olunması və ixrac potensialının artırılması fonunda qarşıda duran prioritet məsələlərlə bağlı AzTV, ARB TV və AZƏRTAC-a eksklüziv müsahibə verib. Müsahibənin tam mətni ilə "Azərbaycan" qəzetinin rəsmi internet saytında tanış ola bilərsiniz:

**https://www.azerbaijan-news.az/az**



# Baş nazir Əli Əsədov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevlə görüşüb

Daşkənd şəhərində işgüzar səfərdə olan Baş nazir Əli Əsədov iyunun 16-da Özbəkistan Prezidenti Şavkat Mirziyoyevlə görüşüb.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib.

Bildirilib ki, Ə.Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Özbəkistanın dövlət başçısına çatdırıb.

Şavkat Mirziyoyev Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş edib.

Görüşdə Azərbaycan-Özbəkistan münasibətlərinin strateji tərəfdaşlıq və müttəfiqlik əsasında uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunub.

Ticarət-iqtisadi, investisiya, nəqliyyat-logistika, enerji, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi perspektivləri geniş müzakirə edilib.

# Beynəlxalq konfrans iştirakçıları Ulu Öndər Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət ediblər



Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə iyunun 15-də "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda Şuşa şəhərində keçirilən beynəlxalq konfransın iştirakçıları iyunun 14-də Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb. Sonra Şəhidlər xiyabanı ziyarət edilib. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Daha sonra "Türk şəhidliyi" abidəsi ziyarət edilib. Azərbaycanın istiqlaliyyəti uğrunda canlarından keçmiş, Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyini və sarsılmazlığını əks etdirən bu məzarlıqda uyuyan qəhrəman türk qardaşlarımızın xatirəsi anılıb, abidənin önünə əklil qoyulub, gül dəstələri düzülüb.

*"Azərbaycan"*

# Daşkənddə Azərbaycan və Özbəkistanın Baş nazirlərinin iştirakı ilə ikitərəfli sənədlər imzalanıb







İyunun 16-da Özbəkistan tərəfinin dəvəti ilə V Daşkənd Beynəlxalq İnvestisiya Forumunda iştirak etmək üçün bu ölkədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun və Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripovun iştirakı ilə iki ölkə arasında sənədlər imzalanıb.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, sənədlər "AzerGold" QSC-nin iştirakı ilə Özbəkistanda qızıl yatağının birgə işlənilməsini, həmçinin "Azərbaycan Beynəlxalq Bankı" ASC ilə Özbəkistanın aidiyyəti qurumu arasında bank sahəsində əməkdaşlığı və "NEQSOL Holding" şirkətinin iştirakı ilə Özbəkistanda əhəmiyyətli faydalı qazıntıların birgə işlənilməsini nəzərdə tutur.

# Sülh prosesi artıq geridönməz məcradadır

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu müasir müstəqillik və çoxəsrlik milli dövlətçilik tariximizin ən parlaq və qüdrətli dövrünü yaşadığımız indiki mərhələdə Cənubi Qafqazın geosiyasi mənzərəsi köklü şəkildə yenidən formalaşmaqdadır. Otuzillik erməni işğalına və bu işğalı legitimləşdirməyə çalışan qlobal güclərin riyakar siyasətinə Prezident İlham Əliyevin müzəffər liderliyində öz güc və imkanları, böyük və mütləq hərbi-siyasi zəfəri ilə son qoyan Azərbaycan bu gün regionda dayanıqlı sülhün və regional təhlükəsizliyin yeganə və alternativsiz təminatçısı kimi çıxış edir. Bu kontekstdə qədim mədəniyyət paytaxtımız Şuşada keçirilən "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusundakı beynəlxalq konfrans və Prezident İlham Əliyevin konfrans iştirakçılarına ünvanladığı tarixi məktub postmünaqişə dövrünün hüquqi, siyasi və iqtisadi yol xəritəsidir.



**Milli Məclisin deputatı Bəhruz MƏHƏRRƏMOV** qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyevin müəyyən etdiyi direktivlər əsasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikasının Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Ermənistana reallaşan səfər və İrəvanla birbaşa təmasları göstərir ki, Bakının müəyyən etdiyi sülh strategiyası, sadəcə, bəyanatlardan ibarət deyil, sahədə və masada addım-addım icra olunan real mexanizmdir: "Azərbaycan dövlətinin yürütdüyü bu qətiyyətli xarici siyasət kursunun və sülh prosesinin cari dinamikasının təməlində dayanan amilləri daha aydın anlamaq üçün bu situasiyanı bir neçə konseptual müstəvidə təhlil etmək zəruridir. Əvvəlcə ondan başlamaq zəruridir ki, ölkə Prezidentinin Şuşa konfransına qalib dövlətin ədalət formulu məzmunlu məktubu bəşəri ədalətin və beynəlxalq hüququn təntənəsi olan fundamental bir sənəddir. Burada əsas xətt ondan ibarətdir ki, Azərbaycan 2020-ci ilin 44 günlük Vətən müharibəsi və 2023-cü ilin birgünlük lokal antiterror tədbirləri ilə təkcə öz torpaqlarını azad etməyib, həm də BMT Təhlükəsizlik Şurasının otuz il kağız üzərində qalan qətnamələrini təkbaşına icra edərək, beynəlxalq hüququn nüfuzunu xilas edib. Bu, həm Ermənistana, həm də Avropadakı müəyyən revanşist, neomüstəmləkəçi dairələrə, xüsusilə Fransa kimi korlanmış siyasi təfəkkür sahiblərinə verilən açıq mesajdır: Cənubi Qafqazda köhnə status-kvoya qayıdış imkansızdır, Azərbaycanın yaratdığı reallıqlar mütləqdir və hamı tərəfindən qəbul edilməlidir".

Deputat qeyd edib ki, Prezident İlham Əliyevin məktubunda yer alan ən mühüm diplomatik, lakin açıq şifrələrdən biri də ötən il Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzalanan Birgə Bəyannaməyə və sülh sazişinin paraflanmasına edilən xüsusi istinaddır. Bu fakt rəsmən təsdiq edir ki, sülh artıq mücərrəd bir niyyət deyil, hüquqi cəhətdən çərçivəyə salınmış birmənalı öhdəlikdir. Daha aydın formada desək, dövlət başçısının timsalında milli iradənin qətiyyətini və beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsipləri rəhbər tutan Bakı sülh gündəliyini diktə edir. Lakin bu diktə qalib dövlətin təkəbbürü deyil, ümumbəşəri dəyərlərə və insan təhlükəsizliyinə söykənən ədalətli bir nizamdır. "Həmçinin məktubda Zəngəzur dəhlizinin açılması məsələsinin qlobal miqyasda - "Orta dəhliz"in strateji seqmenti kimi təqdim olunması Azərbaycanın geoiqtisadi *zəkasının və Prezident İlham Əliyevin simasında qırılmaz iradə və qətiyyətin təzahürüdür. Aydındır ki, Zəngəzur dəhlizi təkcə Naxçıvanla quru əlaqəsini təmin etməyəcək, həm də regionun iqtisadi arxitekturasını dəyişəcək. Bu, həm də İrəvana uzadılan iqtisadi xilas əlidir və öz mifləri və təcavüzkar siyasətinin nəticəsində dalan dövlət kimi öz siyasətinin qurbanına çevrilən Ermənistan tədricən anlamaqdadır ki, zəngin dəhlizin müqavimət göstərmək öz gələcəyini intihara sürükləmək deməkdir. Belə bir situasiyada sülh prosesində rəsmi Bakının ən böyük uğurlarından biri kənar manipulyasiyalara imkan verməyən birbaşa rabitə kanalının qurulmasıdır", - deyə o əlavə edib.

Deputat bildirib ki, Prezident İlham Əliyevin məktubunda Azərbaycanda 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması, eləcə də Bakıda baş tutan və dünya miqyasında rezonans doğuran BMT-nin Ümumdünya Şəhərsalma Forumunun nəticələrinə toxunması xüsusi siyasi məzmun və fəlsəfə daşıyır: "Azərbaycan dünyaya sülhün vizual sübutunu təqdim edir. Ermənistanın otuz il ərzində xarabalıqlara çevirdiyi, hər daşını, hər məscidini təhqir etdiyi Qarabağ və Şərqi Zəngəzur bu gün "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları ilə yenidən qurulur. Hazırda işğaldan azad edilmiş yurd yerlərimizdə 85 mindən çox soydaşımızın təhlükəsiz və layiqli şəraitdə yaşaması, işləməsi və təhsil alması sülh prosesinin ən güclü demoqrafik və siyasi arqumentidir. Bu rəqəmlər həm də İrəvana və onun revanşist qüvvələrinə bir xəbərdarlıqdır ki, Azərbaycan öz torpaqlarına əbədi qayıdıb və orada milyardlarla dollarlıq yeni bir həyat qurur. Bu reallığın qarşısında hansısa "status" xülyasından danışmaq və ya revanşist ideyalarla yaşamaq Ermənistan üçün demoqrafik və iqtisadi intihardan başqa bir şey deyildir. Möhtərəm Prezidentin adıçəkilən müraciətinin ən konseptual tezislərindən biri də türk dünyasının XXI əsrdə yeni geosiyasi güc mərkəzinə çevrilməsi prosesidir. Cənab İlham Əliyevin hər zaman vurğuladığı kimi, bizim ailəmiz türk dünyasıdır. Tarixi Şuşa Bəyannaməsi ilə Türkiyə ilə müttəfiqliyimizi ən yüksək zirvəyə qaldıran Azərbaycan bu gün Türk Dövlətləri Təşkilatının gücündən regionda sülhün qarantı kimi istifadə edir. İndi Ermənistan sülh müqaviləsini imzalayarkən dərk etməlidir ki, o, təkcə Bakının şərtlərini qəbul etmir, həm də bütöv bir türk coğrafiyası ilə - Londondan Pekinə qədər uzanan nəhəng bir iqtisadi-siyasi blokla münasibətləri normallaşdırmaq şansı qazanır. Əks təqdirdə, türk dünyasının bu ortaq geosiyasi gücü qarşısında Ermənistanın müqavimət göstərmək resursu yoxdur".

B.Məhərrəmov qeyd edib ki, Şuşada keçirilən mötəbər beynəlxalq konfrans və dövlət başçısının proqram xarakterli məktubu Cənubi Qafqazda sülh prosesinin artıq geridönməz məcrada olduğunu sübut edir. Birincisi, İrəvan Azərbaycanın diktə etdiyi fundamental şərtləri, o cümlədən ərazi bütövlüyümüzü Qarabağ daxil olmaqla, tam şəkildə tanımağı artıq hüquqi müstəvidə, yəni sazişin paraflanması ilə qəbul edib. Elə dövlət başçısının tapşırığına müvafiq olaraq iyunun 14-də Ermənistanın Dilican şəhərində Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev ilə Ermənistan Respublikasının Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan arasında işgüzar görüş keçirilib. Hikmət Hacıyevin Dilicanda görüşünün misalında, görünən odur ki, aparılan birbaşa və praqmatik diplomatiya kənar təxribatçı güclərin regiona sızmaq cəhdlərini iflic edib. "Ən nəhayət, Azərbaycan Şuşadan dünyaya bəyan etməyi və göstərməyi bacardı ki, regional təhlükəsizliyin qorunması regional əməkdaşlıqdan keçir. Proseslərin gedişi də deməyə əsas verir ki, yaxın perspektivdə sülh müqaviləsinin tam mətni ilə imzalanması və Zəngəzur dəhlizinin işə düşməsi Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılmış tarixi hərbi Zəfərin yekun və sarsılmaz hüquqi möhürü olacaq. Bir sözlə, Azərbaycan yalnız özünün deyil, bütövlükdə ümumbəşəri hədəflərə doğru qətiyyətlə irəliləyir. Hazırkı geosiyasi situasiyada və perspektivdə qarşımızı kəsə biləcək heç bir güc mövcud deyil", - deyə deputat bildirib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Türk Strateji Düşüncə Mərkəzinin rəhbəri: "Hər gəlişimdə Azərbaycanı daha da inkişaf etmiş görürəm"

"Azərbaycanın müstəqillik qazandığı gündən daxili və xarici siyasətdə atdığı addımlar böyük maraqla izlənilir. Bu strategiyalar son dərəcə uğurludur və Azərbaycan dövlətinin ortaya qoyduğu model bir çox türk yurdu üçün də nümunə ola bilər".



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyədə fəaliyyət göstərən Türk Strateji Düşüncə Mərkəzinin sədri Onur Beyhan ifadə edib.

"Müstəqilliyini əldə etdikdən dərhal sonra müharibə ilə üzləşən, torpaqlarının 20 faizini itirən və əhalisinin mühüm bir hissəsi məcburi köçkün vəziyyətinə düşən Azərbaycan, demək olar ki, müstəqilliyini itirmək həddinə gəlib çatmışdı. Lakin ölkə yenidən ayağa qalxmağı bacardı. Azərbaycana hər gəlişimdə görürəm ki, ölkə hər sahədə daha da inkişaf edir, dünyada söz sahibi olan dövlətlərdən birinə çevrilir və qarşısına qoyduğu son məqsədlərə doğru sürətli, inamlı addımlarla irəliləyir. Heç şübhəsiz ki, bu prosesin əsasını qoyan şəxs Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevdir. Geriyə baxdıqda görürük ki, Heydər Əliyev Azərbaycan üçün möhkəm bir gələcək qurub. Bu gün həmin əsaslardan kənara çıxmadan proses davam etdirilir, dövlət ağlı ilə xalq birliyi ayrılmaz bir vəhdət şəklində fəaliyyət göstərir. Məhz buna görə də Azərbaycan Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi yolu uğurla davam etdirən Ali Baş Komandan İlham Əliyevin sayəsində böyük Zəfər qazanaraq işğal altındakı torpaqlarını azad edib. Həmin andan etibarən Azərbaycan tamamilə yeni bir dövrə qədəm qoyub və bu gün Turan idealını qurmağa çalışan bir Azərbaycan var", - deyə o diqqətə çatdırıb.

Onur Beyhan Türkiyə-Azərbaycan münasibətlərinə və bölgədəki mövcud vəziyyətə dair fikirlərini də bölüşüb: "Türkiyə ilə Azərbaycan arasındakı əbədi və sarsılmaz qardaşlığın rəmzi olan Şuşa Bəyannaməsinin imzalanmasının 5-ci ildönümünü qeyd etdik. Şuşa Bəyannaməsi iki qardaş dövlətin kədərdə də, sevincdə də daim çiyin-çiyinə, həmrəylik və əməkdaşlıq içində hərəkət edəcəyini bütün dünyaya ən yüksək səviyyədə bir daha bəyan etdiyi, Türkiyə və Azərbaycana qarşı yönələn hər cür təşəbbüsə birlik və bərabərlik içində cavab veriləcəyinin qətiyyətlə ifadə olunduğu tarixi sənəddir. Şuşa Bəyannaməsi ilə ortaya çıxan yeni geosiyasi vəziyyət yalnız Türkiyə ilə Azərbaycan arasındakı strateji müttəfiqliyi gücləndirməyib, eyni zamanda Cənubi Qafqazın gələcəyinə və regional güc balansına birbaşa təsir göstərəcək yeni dövrün qapılarını açıb. Bu səbəbdən Ermənistandakı son seçkinin nəticələri yalnız daxili siyasət məsələsi kimi deyil, bölgənin gələcəyini formalaşdıra biləcək mühüm hadisə kimi qiymətləndirilməlidir. Çünki erməni xalqı bu seçkidə sülhə səs verdi. Bundan sonra Ermənistanın qarşısında Azərbaycanla bağlanmalı olan sülh sazişi dayanır".

Azərbaycan xalqını 15 İyun - Milli Qurtuluş Günü münasibətilə təbrik edən Beyhan deyib: "Uğurdan-uğura irəliləyən Azərbaycanın bu gün gəlib çatdığı nöqtənin Ümummilli Lider Heydər Əliyevin ruhunu da şad etdiyinə inanıram. Müstəqilliyin ilk günlərindən bu günə qədər qət edilən yola baxdıqda bunun nə qədər böyük bir dönüş olduğunu hamımız görürük. Əlbəttə, bu uğur asan əldə edilməyib. Bu günlər üçün çətinliklərə sinə gərilib, böyük fədakarlıqlar göstərilib".

# Leyla Əliyeva BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi ilə görüşüb





Leyla Əliyeva Almaniyanın Bonn şəhərində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi Saymon Stil ilə görüş keçirib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın ətraf mühitin mühafizəsi, bioloji müxtəlifliyin qorunması və ekoloji dayanıqlılığın təmin edilməsi istiqamətində həyata keçirdiyi tədbirlər barədə məlumat verilib. Bu xüsusda həmçinin IDEA İctimai Birliyinin sözügedən sahələr üzrə layihə və təşəbbüsləri, o cümlədən biomüxtəlifliyin zənginləşdirilməsi, ətraf mühitlə bağlı maarifləndirmə tədbirləri, eləcə də nadir fauna növlərinin qorunması və ekosistemlərin bərpasına yönələn fəaliyyətləri diqqətə çatdırılıb. Eyni zamanda mühafizə olunan təbiət ərazilərinin sahəsinin genişləndirilməsinin əhəmiyyəti və iqlim dəyişmələrinin təsirlərinin azaldılmasında rolu qeyd olunub.

Söhbət zamanı Xəzər dənizinin səviyyəsinin enməsinin səbəblərinin, bu prosesin ekoloji və sosial-iqtisadi təsirlərinin birgə öyrənilməsi perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Bu xüsusda problemin qlobal iqlim gündəliyində daha geniş yer almasının vacibliyi vurğulanıb.

Bundan əlavə, gənclərin ekoloji məsuliyyətinin artırılması, eləcə də ətraf mühit və iqlim dəyişiklikləri ilə bağlı biliklərinin genişləndirilməsi məqsədilə UNFCCC ilə birgə ortaq təşəbbüslərin həyata keçirilməsi imkanları müzakirə olunub.

# Leyla Əliyeva Bonnda BMT-nin Baş katibinin müavini ilə görüşüb





Leyla Əliyeva Almaniyanın Bonn şəhərində BMT-nin Baş katibinin müavini və Səhralaşma ilə mübarizə üzrə Konvensiyasının (UNCCD) icraçı katibi Yasmin Fuad ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanda ekologiyanın qorunması, torpaq ehtiyatlarından səmərəli istifadə, eləcə də səhralaşma və quraqlıqla mübarizə üzrə həyata keçirilən tədbirlər barədə məlumat verilib. Eyni zamanda IDEA İctimai Birliyi tərəfindən ölkəmizdə və regionda ətraf mühitin mühafizəsi, biomüxtəlifliyin qorunması və ekoloji dayanıqlılığın təşviqi istiqamətində icra olunan layihə və təşəbbüslər müzakirə olunub. Həyata keçirilən ağacəkmə aksiyalarının, yaşıllıq sahələrinin artırılmasının, mövcud meşə və ağac resurslarının qorunmasının iqlim dəyişikliklərinin mənfi təsirlərinin azaldılması, torpaq deqradasiyasının qarşısının alınması və ekoloji tarazlığın qorunması baxımdan əhəmiyyəti xüsusi vurğulanıb.

Daha sonra Xəzər dənizinin səviyyəsinin enməsinin ekoloji və sosial-iqtisadi təzahürləri ilə bağlı fikir mübadiləsi aparılıb. Bu xüsusda Xəzər dənizində baş verən dəyişikliklərin sahilyanı ekosistemlərə, biomüxtəlifliyə və regionun ekoloji təhlükəsizliyinə mümkün təsirlərinə toxunulub. Məsələnin daha dərindən araşdırılması, həmçinin mümkün birgə həll yollarının müəyyənləşdirilməsi istiqamətində əməkdaşlıq imkanları müzakirə olunub.

Görüşdə həmçinin quraqlıq və səhralaşma kimi proseslərin vaxtında qarşısının alınmasının əhəmiyyəti, eləcə də IDEA İctimai Birliyi ilə UNCCD-nin ətraf mühitin mühafizəsi, quraqlığın və torpaq deqradasiyasının qarşısının alınması və ekoloji maarifləndirmə sahələrində mümkün əməkdaşlıq imkanları müzakirə olunub.

# Leyla Əliyevanın iştirakı ilə Bonnda Xəzərin səviyyəsinin azalmasının ekoloji təsirləri müzakirə olunub






Leyla Əliyevanın təşəbbüsü ilə Almaniyanın Bonn şəhərində "Dənizlərin enən səviyyəsi, çəkilən sahil xətləri, davamlılıq və qapalı su hövzələrinin gələcəyi: Xəzər dənizi nümunəsi" mövzusunda yüksəksəviyyəli panel müzakirələri təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbir iyunun 8-dən 16-dək BMT-nin iqlim sessiyası (June Climate Meetings - SB64) çərçivəsində keçirilib.

IDEA İctimai Birliyinin, BMT-nin Ətraf Mühit Proqramının (UNEP), COP29 Azərbaycan Sədrliyinin və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) tərəfdaşlığı ilə təşkil olunan tədbirin açılışında çıxış edən **Leyla Əliyeva** dənizlərin, çayların və göllərin hazırda planetimizin ən həssas ekosistemləri sırasında yer aldığını qeyd edib. O, Xəzər dənizində müşahidə olunan səviyyə enməsi, Xəzər suitiləri və digər canlıların sayında azalma kimi məsələlərə toxunub, bu cür çağırışların həllində bilik, təcrübə və davamlı məsuliyyətə əsaslanan yanaşmanın tətbiqinin vacibliyini vurğulayıb. IDEA İctimai Birliyi tərəfindən həyata keçirilən su hövzələrinin təmizlənməsi aksiyaları, balıq körpələrinin suya buraxılması və "Bir Damcı" layihəsi kimi təşəbbüslər qeyd olunub, bu cür addımların suya həyat və davamlılıq mənbəyi kimi məsuliyyətli münasibətin formalaşmasına xidmət etdiyi bildirilib.



BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi **Saymon Stil,** COP31-in baş icraçı direktoru, Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişmələri nazirinin müavini **Fatma Varank** və COP30-un baş icraçı direktoru **Ana Toni** tədbirin rəsmi hissəsində çıxış edərək, Xəzər dənizinin səviyyəsinin enməsi və qapalı su hövzələrinin ekoloji dayanıqlılığı ilə bağlı yaranan çağırışların qlobal iqlim gündəliyində diqqət mərkəzində saxlanılmasının vacibliyini vurğulayıblar.

Sonra müzakirələr panel sessiyası formatında davam edib. Azərbaycanın xarici işlər nazirinin müavini **Yalçın Rəfiyev,** UNEP-in İqlim dəyişikliyi bölməsinin direktoru **Martin Krauze,** "Great Whale Conservancy" təşkilatının təsisçisi və icraçı direktoru **Maykl Fişbax,** IDEA İctimai Birliyinin eksperti **Elnur Səfərov,** Qazaxıstanın Xəzər Dənizi üzrə Elmi-Tədqiqat İnstitutu və Finlandiyanın Oulu Universitetinin tədqiqatçısı **Aziza Baubekova** və BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) SPECA MPTF Fondunun rəhbəri **Kəmalə Hüseynli** Xəzər dənizində suyun səviyyəsinin enməsinin ekoloji, elmi və sosial-iqtisadi təsirləri ətrafında fikir mübadiləsi aparıblar. Panel müzakirələrinin iştirakçıları bu kimi tədbirlərin elmi bilik və təcrübənin paylaşılması, habelə yeni tərəfdaşlıq imkanlarının yaradılması baxımdan mühüm platforma olduğunu qeyd ediblər.

Tədbir çərçivəsində həmçinin Xəzər dənizinin ekoloji problemlərinə həsr olunmuş qısametrajlı sənədli film nümayiş olunub.

Panel müzakirələri interaktiv sual-cavab sessiyası ilə yekunlaşıb.

# Şamaxıdakı Beynəlxalq Barbekü Festivalı mükafatlandırma ilə başa çatıb

Şamaxının Meysəri kəndində iyunun 13-14-ü keçirilən Beynəlxalq Barbekü Festivalı başa çatıb. İki gün davam edən festival Şamaxı Rayon İcra Hakimiyyəti, Nəsimi Bağları Kompleksi və "Abqora" restoranının dəstəyi, "Azərsun Holdinq", "Coca-Cola Azərbaycan"ın baş sponsorluğu, "Azərbaycan Hava Yolları" QSC, "Premium Meat", "Baku Medical Plaza"nın rəsmi tərəfdaşlığı ilə təşkil olunub.









AZƏRTAC xəbər verir ki, festivalda dünyanın müxtəlif ölkələrini təmsil edən tanınmış şef-aşpazlar iştirak ediblər. Onların zəngin təcrübəsi, fərqli kulinariya ənənələri və təqdim etdikləri ləziz təamlar tədbirə xüsusi rəng qatıb. Bu cür festivallar qonaqlara xoş anlar bəxş etməklə yanaşı, ölkəmizin qonaqpərvərliyini bir daha nümayiş etdirir. Layihə həmçinin mədəni mübadilə və qastronomik turizmin genişləndirilməsinə yönəlib.

İki gün ərzində kulinariya zonalarında əyləncəli yarışmalar keçirilib, iştirakçılar müxtəlif ölkə mətbəxləri və restoranların təqdim etdikləri təamları dadıblar. Sonda tədbirin baş sponsorları, tərəfdaşları və layihəyə dəstək göstərən qurumlara, o cümlədən səmərəli əməkdaşlıq edən restoran və şirkətlərə sertifikatlar təqdim olunub.

# Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikasının Qars şəhərində rəsmi səfərdə olub

Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi, tərkibinə Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev və Naxçıvan hərbi prokuroru Aqil Axundovun da olduğu nümayəndə heyəti Türkiyə Respublikası Ali Məhkəməsinin baş prokuroru Muhsin Şentürkün dəvəti ilə 15 iyun tarixində qardaş ölkənin Qars şəhərinə rəsmi səfər edib.



Baş prokurorluğun Mətbuat xidmətinin məlumatına görə, nümayəndə heyəti ilk olaraq xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şərəfinə Qars şəhərində salınmış parkı ziyarət edib, orada dünyaşöhrətli siyasi xadimin abidəsinin önünə gül dəstələri qoyaraq əziz xatirəsini ehtiramla yad edib.

Qars Baş Prokurorluğunda Kamran Əliyevlə türkiyəli həmkarı Muhsin Şentürk arasında baş tutan görüş zamanı qeyd edilmişdir ki, iki dövlət arasında strateji münasibətlər hüquq-mühafizə orqanları arasında əməkdaşlığın da dinamik inkişafına müsbət təsirini göstərir.

Xüsusi vurğulanmışdır ki, görüşün 15 İyun Milli Qurtuluş günündə baş tutması da rəmzi məna daşıyır. Belə ki, Azərbaycan ilə Türkiyə arasında münasibətlərin təməlində məhz müstəqil Azərbaycanın banisi, Ümummilli Lider Heydər Əliyevin "bir millət, iki dövlət" yanaşması dayanır. Dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın sıx dostluq münasibətləri və siyasi iradələri sayəsində isə bu qardaşlıq əlaqələri daha da dərinləşmişdir. 15 iyunda həm də imzalanmasının 5-ci ildönümü qeyd edilən hər iki dövlət arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi də bunun bariz sübutudur.

Səmimi qəbula və yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən Kamran Əliyev qeyd etmişdir ki, hazırkı səfərin əsas məqsədi sərhədyanı bölgələrin prokurorluq orqanları arasında əlaqələrin gücləndirilməsidir. Bu transmilli xarakter daşıyan cinayətlərə qarşı mübarizənin səmərəliliyinin artırılmasına töhfə verməklə yanaşı, sərhəd regionlarında yaşayan vətəndaşların rastlaşdıqları hüquqi çətinliklərin operativ şəkildə aradan qaldırmasına da xidmət etmiş olur. Eyni zamanda bu əməkdaşlıq mütərəqqi təcrübələrin mübadiləsi və hər iki dövlətin hüquqi sistemlərinin inkişafına da müsbət təsirini göstərir.

Öz növbəsində Muhsin Şentürk Azərbaycan ilə əlaqələrin inkişafına xüsusi önəm verildiyini qeyd edərək cari ilin aprel ayında Bakı şəhərinə etdiyi səfəri məmnunluqla xatırlayıb, keçirilmiş görüşlərin ikitərəfli əlaqələrin inkişafında xüsusu rol oynadığını bildirib.

Görüş çərçivəsində Qars və İğdır bölgələrinin prokurorluq, məhkəmə və ədliyyə orqanlarının rəhbər şəxsləri ilə görüşlər keçirilərək cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, praktiki mövzular müzakirə edilib.

Daha sonra nümayəndə heyəti ölkəmizin Qars şəhərində yerləşən Baş konsulluğuna gəlmiş, əməkdaşlarla görüşərək yaradılmış iş şəraiti və fəaliyyətləri ilə yaxından tanış olub. Keçirilmiş görüşdə dahi lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın keçdiyi inkişaf yoluna nəzər salınıb.

Görüşlərdə Azərbaycan Respublikasının Qars şəhərindəki Baş konsulu Zamin Əliyev də iştirak edib.

# Baş prokuror Naxçıvan Muxtar Respublikasında vətəndaşları qəbul edib

İyunun 16-da baş prokuror Kamran Əliyev Naxçıvan Muxtar Respublikası Prokurorluğunun inzibati binasında Naxçıvan şəhər, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan vətəndaşları qəbul edib.



Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatına görə, qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib. Qəbulda iştirak edən 26 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

# "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu"

## Şuşada Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilib

İyunun 15-də - Milli Qurtuluş Günündə Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə Şuşa şəhərində "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda beynəlxalq konfrans keçirilib.










Yeni Azərbaycan Partiyasından verilən məlumata görə, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, tədbirdə iştirak edən dost ölkələrin müstəqilliyi və suverenliyi uğrunda canlarını qurban vermiş Vətən övladlarının əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin konfrans iştirakçılarına müraciətini səsləndirib.

"Sülh quruculuğu mexanizmləri: qlobal çağırışlar fonunda partiya diplomatiyası" mövzusunda birinci panel sessiyada çıxış edən moderator, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov konfrans iştirakçılarını Azərbaycan xalqının çoxəsrlik tarixinin, zəngin mədəniyyətinin və mənəvi dəyərlərinin canlı təcəssümü olan və şanlı Zəfərimizin rəmzinə çevrilən qədim Şuşa şəhərində salamlayıb, dəvəti qəbul edərək tədbirdə iştirak etdikləri üçün minnətdarlığını bildirib.

YAP Sədrinin müavini qeyd edib ki, 15 İyun Azərbaycan xalqı və dövləti üçün olduqca böyük əhəmiyyətə malik iki mühüm hadisə ilə əlamətdardır: "Bundan 33 il əvvəl - 1993-cü il iyunun 15-də xalqımızın Ümummilli Lideri, müdrik dövlət xadimi Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilmiş və həmin gün tariximizə Milli Qurtuluş Günü kimi əbədi həkk olunmuşdur. Bu, Azərbaycan dövlətçiliyinin xilası, real müstəqilliyin təmini və qorunub saxlanılması baxımından taleyüklü dönüş nöqtəsi olmuşdur. Vaxtilə dünyanın aparıcı geosiyasi güc mərkəzlərindən biri olan SSRİ-nin süqutundan sonra müstəqilliyini bərpa etmiş Azərbaycan ötən əsrin 90-cı illərinin əvvəllərində digər bir sıra postsovet ölkələri kimi ağır sınaqlarla üzləşmişdi. Daxili siyasi böhranın və iqtisadi tənəzzülün dərinləşməsi, qarşıdurmaların və separatizm meyillərinin güclənməsi, xarici təhdidlərin artması fonunda Ermənistanın hərbi təcavüzü Azərbaycanın parçalanması, hətta dünya xəritəsindən silinməsi təhlükəsini meydana çıxarmışdı. Belə bir mürəkkəb şəraitdə Heydər Əliyev xalqın tələbi ilə siyasi hakimiyyətə qayıtmış və Azərbaycanı tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxarmışdır".

Tahir Budaqov vurğulayıb ki, 15 iyun tarixi həm də "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması ilə əlamətdardır: "5 il əvvəl - 2021-ci il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsi bölgədə sülhün, sabitliyin, təhlükəsizliyin və əməkdaşlığın təşviqinə xidmət edən və gələcəyə konseptual-strateji baxışı ortaya qoyan bir sənəddir. Bəyannamənin imzalanması ilə keyfiyyətcə yeni mərhələyə yüksələn Azərbaycan-Türkiyə münasibətləri bu gün regional təhlükəsizlik arxitekturasının ən önəmli sütunlarından biri kimi çıxış edir. Bu gün iftixarla söyləyirik ki, Heydər Əliyevin "bir millət, iki dövlət" fəlsəfəsinə əsaslanan Şuşa Bəyannaməsi Ümummili Liderimizin əbədiyaşar ideyalarını özündə əks etdirən Milli Qurtuluş məfkurəsinin müasir geosiyasi şəraitdə məntiqi davamıdır".

YAP Sədrinin müavini bildirib ki, 2022-ci ildən etibarən Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Milli Qurtuluş Gününə və Şuşa Bəyannaməsinin ildönümünə həsr olunan tədbirlərin 30 ilə yaxın işğal altında qalsa da, öz ruhunu itirməyən Şuşa şəhərində keçirilməsi xüsusi mənəvi, siyasi və ideoloji məna daşıyır: "2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, xalqımızın həmrəyliyi və Azərbaycan Ordusunun şücaəti sayəsində hərbi-siyasi əsarətdən azad olunan Şuşa yalnız Azərbaycanın deyil, türk və islam dünyasının mədəniyyət mərkəzlərindən biri kimi bəşər sivilizasiyasının qiymətli xəzinəsidir. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin Heydər Əliyev siyasətini əxlaqi-mənəvi dəyərlərə, milli maraqlara və dövrün çağırışlarına uyğun zənginləşdirərək müvəffəqiyyətlə davam etdirməsi xalqımıza misilsiz nailiyyətlər və möhtəşəm Zəfər qazandırmışdır. Hazırda Azərbaycan zəngin dövlətçilik tarixinin ən şanlı mərhələsini yaşayır. Üçrəngli bayrağımızın qürurla dalğalandığı işğaldan azad edilmiş bütün ərazilərimiz, o cümlədən bu gün bir araya toplaşdığımız Şuşa dirçəliş dövrünə qədəm qoymuşdur. Müasir şəhərsalma konsepsiyaları əsasında həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri mütləq suverenliyini bərpa edən Azərbaycan dövlətinin qüdrətinin və xalqımızın milli iradəsinin ifadəsidir. Bu, təkcə infrastruktur layihələrinin reallaşdırılması deyil, həm də yeni həyatın, təhlükəsiz qayıdışın və dayanıqlı inkişafın təcəssümüdür".

Tahir Budaqovun sözlərinə görə, konfransın mövzusu müasir beynəlxalq münasibətlər sisteminin son dərəcədə aktual məsələlərini özündə ehtiva edir: "Dünyanın mürəkkəb geosiyasi transformasiyalar dövrünü yaşadığı bir zamanda regional sabitlik, təhlükəsizlik və əməkdaşlıq məsələləri beynəlxalq siyasi gündəliyin mərkəzində dayanır. Qlobal güc balansında baş verən dəyişikliklər, regional münaqişələr, enerji və ərzaq təhlükəsizliyi ilə bağlı çağırışlar, iqlim dəyişiklikləri, kiber təhdidlər, iqtisadi-ticari və kommunikasiya marşrutları uğrunda gərgin rəqabət beynəlxalq münasibətlərin xarakterini əhəmiyyətli dərəcədə dəyişmişdir. Bu gün təhlükəsizlik anlayışı yalnız hərbi amillərlə ölçülmür. Enerji, nəqliyyat-logistika, ekoloji, humanitar və rəqəmsal təhlükəsizlik məsələləri də qlobal sabitlik konsepsiyasının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Bu xüsusda Azərbaycan dövlətinin həyata keçirdiyi siyasət daha ədalətli dünya nizamının bərqərar olmasına istiqamətlənmişdir. Ölkəmiz 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasına və 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrlərdə bəşəriyyəti narahat edən qlobal problemlərin aradan qaldırılması, o cümlədən dayanıqlı sülh, etibarlı tərəfdaşlıq naminə hərbi-siyasi təhdidlərin qarşısının alınması, iqtisadi, ekoloji, humanitar və digər sahələrdə təhlükəsizliyin təmin olunması istiqamətində qətiyyətli mövqe nümayiş etdirmiş və mühüm təşəbbüslərlə çıxış etmişdir ki, bu da yeni dünya düzəninə keçid prosesində çoxtərəfli əməkdaşlığa mühüm töhfələr vermişdir. Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşdırılan transmilli layihələr Avropanın enerji təhlükəsizliyinə vacib töhfələr verir və müxtəlif dövlətlər arasında qarşılıqlı etimadı gücləndirən mühüm əməkdaşlıq platformaları yaradır. Ölkəmiz eyni zamanda beynəlxalq miqyasda "yaşıl enerji" gündəliyinin fəal iştirakçısıdır. 2024-cü ilin noyabr ayında Azərbaycanın COP29-a, bu ilin may ayında isə BMT-nin Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasına uğurla evsahibliyi etməsi və bunların nəticəsi olaraq iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizəyə və dayanıqlı şəhər inkişafının təşviqinə dair qlobal əhəmiyyətli qərarların qəbulu ölkəmizin beynəlxalq müstəvidə etibarlı tərəfdaş kimi önəmini qabarıq şəkildə bir daha təsdiq etmişdir. Paralel olaraq ölkəmiz Şərqlə Qərbi birləşdirən logistika qovşağı kimi müxtəlif coğrafi məkanlar arasında iqtisadi-ticari əlaqələrin inkişafında və bütövlükdə Avrasiyanın nəqliyyat-kommunikasiya xəritəsinin zənginləşməsində fəal rol oynayır. Azərbaycanın qlobal təhlükəsizliyə müstəsna töhfələrindən biri Cənubi Qafqaz regionunda dayanıqlı sülhün təmin olunmasına yönəlik fəal siyasət yürütməsidir. Bilirsiniz ki, uzun müddət işğala, ikili standartlara və ədalətsizliyə məruz qalmış Azərbaycan öz ərazi bütövlüyünü və tam suverenliyini bərpa etməklə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 30 ilə yaxın kağız üzərində qalan qətnamələrinin icrasını təmin etmiş, regionda ciddi iqtisadi böhrana və humanitar fəlakətə səbəb olan münaqişənin tarixə qovuşmasına nail olmuşdur. Ölkəmizin təşəbbüsü ilə irəli sürülən sülh gündəliyi beynəlxalq hüquq normalarına, eləcə də dövlətlərin ərazi bütövlüyünün qorunması və sərhədlərinin toxunulmazlığı prinsiplərinə əsaslanır ki, bu da yalnız Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasına deyil, bütövlükdə qarşılıqlı hörmət və faydalı əməkdaşlıq şəraitində Cənubi Qafqazın sabit, təhlükəsiz və firavan gələcəyinə xidmət edir".

YAP Mərkəzi Aparatının rəhbəri söyləyib ki, yeni dünya nizamına transformasiya fonunda regional və qlobal təhlükəsizliyin təmin edilməsində partiya diplomatiyasının rolu getdikcə artır: "Müasir dövrdə siyasi partiyalar təkcə daxili siyasi institutlar deyil, həm də xalqlar arasında etimadın formalaşmasına, dialoqun təşviqinə və beynəlxalq əməkdaşlığın inkişafına mühüm töhfə verən aktorlardır. Ümummilli Liderimiz Heydər Əliyevin qurucusu olduğu və bu gün ölkə başçısı cənab İlham Əliyevin liderliyi ilə fəaliyyətini uğurla davam etdirən Yeni Azərbaycan Partiyası beynəlxalq əməkdaşlığın inkişafına xüsusi önəm verir. Partiyamızın müxtəlif ölkələrin aparıcı siyasi partiyaları ilə qurduğu əlaqələr, beynəlxalq təşkilatlar çərçivəsindəki fəaliyyəti, irəli sürdüyü təşəbbüslər və konstruktiv dialoq siyasəti dövlətlərarası münasibətlərin möhkəmlənməsinə xidmət etməklə bərabər, sülh quruculuğu prosesinin vacib elementlərindən biri kimi çıxış edir. Partiyamızın 2021-ci il martın 5-də keçirilmiş VII qurultayından ötən müddət ərzində bir sıra ölkələrin, o cümlədən Türkiyə, Özbəkistan, Qazaxıstan, Ukrayna, Şimali Makedoniya, Çin, Vyetnam, Kuba və Belarusun aparıcı siyasi partiyaları ilə əməkdaşlıq sazişləri, həmçinin YAP Gənclər Birliyi ilə "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyasının Gənclər Təşkilatı arasında Əməkdaşlıq Memorandumu imzalanmış, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı, Mərkəzçi Demokrat İnternasionalı kimi önəmli siyasi platformalarda YAP-ın fəal iştirakı təmin edilmişdir. Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə istər yerli, istərsə də beynəlxalq ictimaiyyət üçün ciddi maraq doğuran aktual məsələlərə dair tədbirlərin keçirilməsi, o cümlədən "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusuna həsr olunmuş bugünkü konfransımız regional və qlobal miqyasda mövcud geosiyasi reallıqların təhlili, işbirliyi imkanlarının müəyyənləşdirilməsi, yeni ideyaların irəli sürülməsi və bütövlükdə sülh prosesinin irəliyə aparılması baxımından böyük əhəmiyyətə malikdir".

"Konfransımızın panel sessiyalarının mövzuları müasir dövrün siyasi, iqtisadi və humanitar çağırışlarını özündə ehtiva etməklə istər Cənubi Qafqazda, istərsə də daha geniş coğrafiyada davamlı sülh naminə üç əsas istiqaməti - siyasi dialoqu, iqtisadi əməkdaşlığı və postmünaqişə dövründə bərpa-quruculuq fəlsəfəsini əhatə edir. Növbəti plenar sessiyamız "Regional layihələr və transsərhəd əməkdaşlıq: dayanıqlı sülhün iqtisadi əsasları" mövzusuna həsr olunacaqdır. Amma qısaca qeyd etmək istəyirəm ki, sülh yalnız siyasi razılaşmalarla deyil, həm də qarşılıqlı iqtisadi maraqların gerçəkləşdirilməsi ilə möhkəmlənir. Tarixi təcrübə göstərir ki, iqtisadi inteqrasiyanın gücləndiyi regionlarda qarşıdurma riskləri azalır, əməkdaşlıq isə sabitliyin əsas təminatçısına çevrilir. Bu gün Cənubi Qafqazın gələcəyi də məhz açıq kommunikasiyalar, qarşılıqlı faydalı işbirliyi və regional inteqrasiya üzərində qurulmalıdır. Üçüncü plenar sessiyada isə "Postmünaqişə dövründə yenidənqurma: şəhərsalma sahəsində müasir çağırışlar" mövzusu ətrafında aparılacaq fikir mübadiləsi şəhərsalma siyasətində ən son standartların, o cümlədən rəqəmsal texnologiyaların və innovativ həllərin tətbiqi istiqamətində beynəlxalq təcrübənin öyrənilməsi və paylaşılması baxımından mühüm əhəmiyyət kəsb edir. Həyata keçirilən genişmiqyaslı quruculuq işləri yalnız sosial-iqtisadi inkişafın sürətləndirilməsi deyil, həm də regionun turizm potensialının canlandırılması baxımından xüsusi önəm daşıyır. Tarixi irsin bərpası və gələcək nəsillər üçün qorunub yaşadılması, müasir turizm infrastrukturunun formalaşdırılması sivilizasiyalararası dialoqun dərinləşməsinə, xalqlar arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsinə, mədəni mübadilə və humanitar əməkdaşlığın genişlənməsinə əlverişli zəmin yaradır. Bütün bunlar isə öz növbəsində regionda inteqrasiyanın təşviqinə və davamlı sülhün təmin olunmasına xidmət edən mühüm amillər kimi çıxış edir",- deyə Tahir Budaqov əlavə edib.

YAP Sədrinin müavini vurğulayıb ki, sülh, təhlükəsizlik və firavanlıq naminə səylərin birləşdirilməsi dövlətlərin gələcək nəsillər qarşısında başlıca siyasi məsuliyyətidir: "Bu gün Şuşadan verilən mesajlar yalnız Cənubi Qafqaza deyil, bütün dünyaya ünvanlanır. Bu çağırışların mahiyyəti ondan ibarətdir ki, güclü dövlətçilik, qarşılıqlı hörmət, beynəlxalq hüquq normalarına əsaslanan fəaliyyət və bərabərhüquqlu əməkdaşlıq davamlı sülhün ən etibarlı təminatçısıdır. Konfransımızın regionda sülh quruculuğuna önəmli töhfə verəcəyinə və faydalı nəticələrlə yadda qalacağına inamımı ifadə edərək hər birinizə fəaliyyətinizdə uğurlar arzulayır və diqqətinizə görə təşəkkürümü bildirirəm".

Türkmənistanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Qurbanmammet Elyasov isə çıxışında qeyd edib ki, türkmən xalqı ilə Azərbaycan xalqı arasında əlaqələr əsrlər boyu möhkəm təməl üzərində inkişaf etmişdir: "Tarixi köklər, ortaq dil və milli-mənəvi dəyərlər xalqlarımız arasında qardaşlıq və qarşılıqlı etimad mühiti formalaşdırmışdır. Ölkələrimiz arasında münasibətlər həm də Xəzər dənizi vasitəsilə strateji yaxınlığa əsaslanır. Çünki ölkələrimiz bu dənizlə beynəlxalq bazarlara çıxır, ticari-iqtisadi əlaqələr qurur. Avropa ilə Asiya arasında ən mühüm ticarət yolları Türkmənistan və Azərbaycandan keçərək hər iki dövləti qlobal logistika zəncirinin vacib halqasına çevirir".

O vurğulayıb ki, Xəzər dənizinin hər iki sahilində yaşayan türkmən və Azərbaycan xalqları üçün sülhün, firavanlığın və xoşbəxt həyatın təmin edilməsi, siyasi, sosial-iqtisadi və humanitar sahələrdə əhəmiyyətli irəliləyişlər yalnız ölkələrimizin inkişafına deyil, həm də Orta Asiya və Cənubi Qafqazda sabitliyin möhkəmləndirilməsinə, yeni şəraitdə beynəlxalq münasibətlərin inkişaf etdirilməsinə müsbət təsir göstərir: "Bu baxımdan müstəqil və bitərəf Türkmənistanın sabitlik və təhlükəsizliyi möhkəmləndirməyə, qarşılıqlı güvəni artırmağa və əməkdaşlığı inkişaf etdirməyə yönəlmiş xarici siyasəti və Azərbaycan Respublikasının Cənubi Qafqazı sülh, sabitlik və əməkdaşlıq məkanına çevirmək üçün həyata keçirdiyi strateji təşəbbüslər müasir beynəlxalq münasibətlərdə xüsusi əhəmiyyət kəsb edir. Son illərdə beynəlxalq ticarət, nəqliyyat və logistika sektorunda əhəmiyyətli dəyişikliklərin şahidi olduq. Bu çərçivədə Şərqi Asiya ilə Avropa arasında etibarlı əlaqəni təmin edən Orta dəhlizin əhəmiyyəti daim artmaqdadır".

Qurbanmammet Elyasov bildirib ki, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzər dənizinin iki sahilini birləşdirən dostluq və qardaşlıq körpüsünü daha da möhkəmləndirmək üçün böyük işlər görürlər: "Türkmənistan Demokrat Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında qurulmuş əməkdaşlığın gələcəkdə uğurla davam edəcəyinə və xalqlarımız arasında dostluq və qardaşlığın daha da inkişafına xidmət edəcəyinə olan inamımı bildirirəm".

Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal Demokratik Partiyası Siyasi Şurası İcra Komitəsinin sədri, partiyanın parlament fraksiyasının sədri Aktam Xaitov çıxışında Azərbaycan və Özbəkistanın ortaq tarixə, mədəniyyətə və dəyərlərə malik qardaş ölkələr olduğunu qeyd edib: "Bu gün ölkələrimiz arasındakı münasibətlər öz tarixinin ən yüksək zirvəsinə ucalmışdır" deyən A.Xaitov Azərbaycanın inkişaf yolunu dərin hörmət və rəğbətlə izlədiklərini, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin möhtəşəm uğurlar qazandığını, ərazi bütövlüyünü tam bərpa etdiyini, azad edilmiş torpaqlarda genişmiqyaslı bərpa və quruculuq işlərini uğurla və sürətlə davam etdirdiyini qeyd edib.

Yeni Azərbaycan Partiyasının Azərbaycanda islahatların və sabitliyin etibarlı dayağı olduğunu qeyd edən natiq 2024-cü ilin iyun ayında təmsil etdiyi partiya ilə Yeni Azərbaycan Partiyası arasında Əməkdaşlıq Memorandumu imzalandığını vurğulayıb: "Bu mühüm sənəd səmərəli qarşılıqlı fəaliyyəti təmin etməklə yanaşı, ölkələrimiz arasındakı Strateji Tərəfdaşlıq haqqında Bəyannamənin müvəffəqiyyətlə reallaşdırılmasına da xidmət edir".

Aktam Xaitov çıxışında qeyd edib ki, bu gün beynəlxalq münasibətlər sistemi transformasiya prosesini yaşayır: "Geosiyasi rəqabətin güclənməsi, regional münaqişələr, iqtisadi böhranlar, iqlim dəyişikliyi və qlobal təhlükəsizliyə yönələn təhdidlər dövlətlərdən yeni yanaşmalar tələb edir. Belə bir mürəkkəb şəraitdə qarşılıqlı dialoq, etimad və əməkdaşlıq prinsipləri hər zamankından daha vacibdir".

Natiq Özbəkistanın sülhün qorunması və sabitliyin təmin edilməsi sahəsində dəyərli təcrübə topladığını, qısa müddət ərzində regionda etimad və qarşılıqlı hörmət mühiti formalaşdığını qeyd edərək Azərbaycanın Mərkəzi Asiya dövlət başçılarının Məşvərət Görüşünə tamhüquqlu iştirakçı kimi qəbul edilməsinin tarixi qərar olduğunu bildirib.

O, beynəlxalq münasibətlər sistemində partiya diplomatiyasının əhəmiyyətinin durmadan artdığını qeyd edərək müntəzəm təcrübə mübadiləsinin inkişaf etdirilməsinin vacib olduğunu vurğulayıb: "Eyni zamanda gənclər siyasəti sahəsində birgə çalışmalı və nüfuzlu beynəlxalq platformalarda sülh, tolerantlıq, həmrəylik və mehriban qonşuluq dəyərlərini birlikdə və fəal şəkildə təşviq etməliyik. Biz inanırıq ki, siyasi partiyalarımız arasındakı sıx əməkdaşlıq və xalqlarımız arasındakı dostluq telləri ölkələrimizə yeni uğurlar qazandıracaqdır".

Laos Xalq İnqilab Partiyası Mərkəzi Komitəsi Xarici Əlaqələr Komitəsinin Tədqiqat və çoxtərəfli əlaqələr departamentinin baş direktoru Sayavonq Bounyadet çıxışında qeyd edib ki, sürətlə dəyişən və getdikcə mürəkkəbləşən beynəlxalq şəraitdə çoxqütblü dünyanın formalaşması dövrümüzün müəyyənedici meyillərdən birinə çevrilmiş, beynəlxalq birliyin arzu və istəklərini özündə əks etdirmişdir. Eyni zamanda çağdaş dünyamız çoxşaxəli çətin sınaqlarla üz-üzədir və bu amillər yeni imkanlar da yaradır.

O bildirib ki, Cənubi Qafqaz böyük strateji əhəmiyyət daşıyan bir regiondur və Avropa ilə Asiya arasında körpü rolunu oynayır: "Burada sülhün və sabitliyin qorunması yalnız region ölkələri deyil, həm də qlobal təhlükəsizlik üçün son dərəcə vacibdir".

Gərginliyin azaldılmasına, qarşılıqlı etimadın gücləndirilməsinə və Cənubi Qafqaz ölkələri arasında əməkdaşlığın genişləndirilməsinə yönəlmiş bütün səyləri dəstəklədiklərini vurğulayan Sayavonq Bounyadet əminliyini ifadə edib ki, regional məsləhətləşmə mexanizmlərinin yaradılması, mədəni və sosial mübadilələr, nəqliyyat və əlaqə şəbəkələrinin inkişafı, partiyalar və xalqlararası diplomatiya sülh prosesinin irəli aparılmasının mühüm mexanizmləridir.

Konfransın əhəmiyyətini yüksək dəyərləndirən Sayavonq Bounyadet Laos Xalq İnqilabı Partiyasının sülh, ədalət və dayanıqlı inkişaf üzərində qurulmuş bir dünya yaratmaq üçün Yeni Azərbaycan Partiyası ilə, həmçinin dünyanın müxtəlif regionlarından olan dost siyasi partiyalarla əməkdaşlığı və sıx koordinasiyanı daha da möhkəmləndirməyə hazır olduğunu bildirib.

Moldova Respublikası Parlamentinin üzvü Pavel Voyku partiya diplomatiyasının müasir beynəlxalq münasibətlərdə sülhün təmin olunmasında mühüm vasitə kimi çıxış etdiyini bildirib. O qeyd edib ki, dünya sürətlə dəyişir və beynəlxalq təhlükəsizlik sisteminin əsas komponentləri sayılan institutlar ciddi böhranla üz-üzə qalıb: "Ənənəvi dövlətlərarası diplomatiya çox vaxt bürokratik maneələr və ideoloji qütbləşmə səbəbindən çevik qərarvermə imkanlarını itirir. Bu şəraitdə partiya diplomatiyası daha açıq, birbaşa və praqmatik dialoq üçün alternativ platforma kimi ön plana çıxır".

Pavel Voyku Azərbaycanın təcrübəsinə də toxunaraq bildirib ki, ölkə beynəlxalq hüququn prinsipləri və milli iradə əsasında ərazi bütövlüyünü bərpa etməklə yanaşı, regionda yeni iqtisadi reallıqlar formalaşdırır: "Bu təcrübə Moldova üçün də mühüm örnəkdir və ardıcıl dövlət siyasətinin real nəticələr verdiyinin göstəricisidir".

Parlament üzvü qeyd edib ki, Moldova hazırda mürəkkəb geosiyasi proseslərin mərkəzində yerləşir, ona görə də həm Şərq, həm də Qərb istiqamətində əməkdaşlığa əsaslanan balanslı xarici siyasət yürütməlidir. O əlavə edib ki, ölkənin əsas prioritetləri enerji təhlükəsizliyi, iqtisadi sabitlik və sosial rifahdır.

Pavel Voyku partiya diplomatiyasının beynəlxalq münasibətlərdə etimadın gücləndirilməsi baxımından yeni imkanlar yaratdığını bildirib. O, Moldovanın Azərbaycanla münasibətləri yüksək dəyərləndirdiyini və partiyalararası dialoqun genişləndirilməsində maraqlı olduğunu bildirib. Voyku onu da əlavə edib ki, bu cür platformalar beynəlxalq sabitliyin möhkəmləndirilməsi və yeni əməkdaşlıq imkanlarının yaradılması baxımından mühüm önəm kəsb edir.

Konfrans daha sonra öz işini "Regional layihələr və transsərhəd əməkdaşlıq: dayanıqlı sülhün iqtisadi əsasları" mövzusunda ikinci və "Postmünaqişə dövründə yenidənqurma: şəhərsalma sahəsində müasir çağırışlar" üçüncü panel sessiyalarla davam etdirib.

Türkiyə Böyük Millət Məclisinin üzvü, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım, Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey, Kamboca Xalq Partiyası Mərkəzi Komitəsi Daimi Komitəsinin üzvü, Kamboca Krallığı Senatının ikinci vitse-prezidenti Tun Vathana, Ukrayna Ali Radasının Humanitar və informasiya siyasəti komitəsinin sədri, ATƏT Parlament Assambleyasında Ukrayna nümayəndə heyətinin rəhbəri Mikita Poturayev, Pakistanın MUSLİM İnstitutunun İctimaiyyətlə əlaqələr üzrə məsul şəxsi və xüsusi nümayəndəsi Malik Asif Tanver, Belarusun "Belaya Rus" Partiyasının sədri Olqa Çemodanova, Tacikistan Xalq Demokratik Partiyasının Sədr müavini Umeda Abdullozoda, Şimali Makedoniya Türk Demokratik Partiyasının sədri Zülfikar Zeynula, Serbiya Tərəqqipərvər Partiyasının İdarə Heyətinin üzvü, Serbiya Milli Assambleyasının üzvü Daniela Nikoliç, "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyasının Gənclər Təşkilatının sədri, Gürcüstan parlamentinin üzvü Varlam Liparteliani müzakirə olunan mövzularla bağlı fikirlərini bildiriblər.

Konfrans Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə başa çatıb.

Konfrans iştirakçıları Şuşa və Laçın şəhərinin tarixi məkanları, aparılan tikinti və bərpa-quruculuq işləri ilə tanış olublar.

***"Azərbaycan"***

# 2026-2030-cu illərin Dövlət Proqramından irəli gələn vəzifələr diqqət mərkəzindədir

## Lənkəran






İyunun 16-da Lənkəran-Astara iqtisadi rayonunda Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsi ilə bağlı aidiyyəti dövlət qurumlarının nümayəndələri və fermerlərin iştirakı ilə regional müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi - Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov çıxışında son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aqrar sahədə həyata keçirilən sistemli islahatlar nəticəsində mühüm nailiyyətlərin əldə olunduğunu bildirib. Qeyd edib ki, aqrar sahəyə dövlət dəstəyinin artırılması, müasir suvarma sistemlərinin tətbiqi, aqroparkların yaradılması və subsidiya mexanizmlərinin təkmilləşdirilməsi nəticəsində pambıqçılıq, tütünçülük, üzümçülük və şərabçılıq kimi ənənəvi sahələrin istehsal və ixrac potensialı artmış, bir sıra məhsullar üzrə özünütəminetmə səviyyəsi yüksəlmiş, meyvə-tərəvəz və yumurta üzrə tam özünütəminetmə səviyyəsinə nail olunmuşdur. O, həmçinin vurğulayıb ki, qəbul edilmiş dövlət proqramı aqrar sektorun yeni inkişaf mərhələsini müəyyən edən strateji sənəd olmaqla məhsuldarlığın artırılmasına, rəqabətqabiliyyətli və ixracyönümlü istehsal modelinə keçidin sürətləndirilməsinə xidmət edir.

Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova dövlət proqramının aqrar sahədə intensiv və rəqabətqabiliyyətli istehsal modelinə keçidi sürətləndirəcəyini, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə, idxaldan asılılığın azaldılmasına və kənd təsərrüfatının dayanıqlı inkişafına mühüm töhfə verəcəyini qeyd edib. Dövlət proqramı çərçivəsində buğda istehsalında məhsuldarlığın hədəf rayonlarda 50 sentnerə, 31 dəmyə rayonda, - hansı ki buna Lənkəran-Astara iqtisadi rayonu da daxildir, - 30 sentnerə çatdırılması, 22 rayon üzrə kombayn parkının 571 yeni kombaynla yenilənməsi, 84,9 min hektar sahədə lazer hamarlama texnologiyasının tətbiqi və intensiv bağçılığın genişləndirilməsi nəzərdə tutulur. Həmçinin bildirib ki, dövlət proqramı çərçivəsində 150 min ton əlavə taxıl silosu və 100 min ton yeni soyuducu anbar tutumunun yaradılması planlaşdırılır. Bu məqsədlə müvafiq avadanlıqların dəyərinin 40 faizinin dövlət güzəştləri, 40-50 faizinin isə kredit faizlərinin subsidiyalaşdırılması mexanizmi vasitəsilə dəstəklənməsi planlaşdırılır. Nazir müavini əlavə edib ki, bu istiqamət xüsusilə Lənkəran-Astara iqtisadi rayonu üçün mühüm əhəmiyyət daşıyır. Regionun zəngin meyvəçilik və subtropik məhsul istehsalı potensialı, o cümlədən ölkədə sitrus meyvəçiliyinin əsas mərkəzi olması saxlama, soyutma, çeşidləmə, qablaşdırma və emal infrastrukturunun daha da genişləndirilməsini zəruri edir ki, bu da məhsulların əlavə dəyərinin artırılmasına və ixrac imkanlarının genişlənməsinə xidmət edəcək.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin rəisi Rafiq Aslanov çıxışında dövlət proqramında müasir suvarma sistemlərinin tətbiq olunduğu sahələrin 130 min hektardan 300 min hektara çatdırılmasının və sudan faydalı istifadə göstəricisinin 45 faizdən 95 faizə yüksəldilməsinin əsas hədəflərdən biri olduğunu bildirib. O qeyd edib ki, Lənkəran-Astara iqtisadi rayonunda su təminatının yaxşılaşdırılması məqsədilə Viləşçay su anbarının genişləndirilməsi, yeni su anbarlarının tikintisi və mövcud suvarma infrastrukturunun yenidən qurulması istiqamətində mühüm layihələr həyata keçirilir. Bildirib ki, 2025-ci ildə region üzrə 35,7 min hektar əkin sahəsi suvarılıb, o cümlədən 13,4 min hektar dənli bitki, 9 min hektar bostan-tərəvəz, 5,3 min hektar çoxillik əkmələr suvarma suyu ilə təmin olunub. Vurğulayıb ki, müasir suvarma texnologiyalarının tətbiqi, su ehtiyatlarının səmərəli idarəolunması və meliorasiya layihələrinin icrası regionun aqrar potensialının inkişafına, məhsuldarlığın artırılmasına və su itkilərinin minimuma endirilməsinə mühüm töhfə verəcək.

Daha sonra Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov çıxışında bildirib ki, Prezident İlham Əliyevin aqrar sahənin inkişafına göstərdiyi xüsusi diqqət və bu istiqamətdə qəbul olunmuş dövlət proqramları nəticəsində rayonda çəltikçilik, çayçılıq, sitrusçuluq və digər ənənəvi kənd təsərrüfatı sahələri yeni inkişaf mərhələsinə qədəm qoyub. O qeyd edib ki, son illərdə çəltik əkin sahələri və məhsul istehsalı əhəmiyyətli dərəcədə artmış, yeni emal müəssisələri yaradılmış, çay plantasiyaları və intensiv sitrus bağları genişləndirilib, çiyələkçilik sahəsində yüksək nəticələr əldə olunub. O, həmçinin rayonun aqrar və aqroemal potensialına diqqət çəkərək, məhsulların ixrac həcminin artdığını, soyuducu anbar infrastrukturunun inkişaf etdirildiyini, kənd təsərrüfatında məşğulluğun genişləndirildiyini bildirib. Çıxışında su təminatının yaxşılaşdırılması məqsədilə yeni su anbarının tikintisi, torpaqların konsolidasiyası, aqrar kooperativlərin təşviqi, aqrar sığorta mexanizmlərinin təkmilləşdirilməsi və fermerlərin bazarlara çıxış imkanlarının genişləndirilməsi ilə bağlı təkliflərini də səsləndirən icra başçısı müəyyən edilmiş hədəflərin həyata keçirilməsində dövlət, sahibkar və fermer əməkdaşlığının mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Müşavirədə çıxış edən fermerlər və sahibkarlar rəhbərlik etdikləri təsərrüfatlarda görülən işlər, əldə olunan nəticələr və inkişaf planları barədə məlumat veriblər. Onlar kənd təsərrüfatının inkişafına göstərilən davamlı dövlət dəstəyini yüksək qiymətləndirərək, qəbul edilmiş dövlət proqramında nəzərdə tutulan yeni dəstək mexanizmlərinin istehsalın artırılmasına, təsərrüfatların genişləndirilməsinə və məhsuldarlığın yüksəldilməsinə mühüm töhfə verəcəyini qeyd ediblər. Çıxış edənlər həmçinin regionun aqrar potensialının daha səmərəli reallaşdırılması istiqamətində dövlət proqramında müəyyən edilmiş hədəflərin icrasına fəal şəkildə qoşulacaqlarını və qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün səylərini davam etdirəcəklərini bildiriblər.

Müşavirənin yekununda Prezidentin köməkçisi -Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov dövlət proqramında müəyyən edilmiş hədəflərin yüksək məhsuldarlığa, səmərəliliyə və əlavə dəyərə əsaslanan aqrar inkişaf modelinin formalaşdırılmasına xidmət etdiyini bildirib. O qeyd edib ki, müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi, məhsuldarlığın artırılması, emal və saxlama infrastrukturunun inkişafı, heyvandarlıq və akvakultura sahələrinin genişləndirilməsi kimi vəzifələrin icrası mərkəzi və yerli icra hakimiyyəti orqanlarının əlaqələndirilmiş fəaliyyəti, eləcə də sahibkar və fermerlərin fəal iştirakı ilə mümkün olacaq. Vurğulanıb ki, dövlət proqramının icrası Lənkəran-Astara iqtisadi rayonunda çayçılıq, çəltikçilik, sitrusçuluq, tərəvəzçilik və digər ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafına, məhsuldarlığın və rəqabətqabiliyyətliliyin artırılmasına, məşğulluğun genişlənməsinə, habelə regionun mövcud aqrar potensialından daha səmərəli istifadə olunmasına mühüm töhfə verəcək.

## Ağcabədi





İyunun 16-da Qarabağ iqtisadi rayonunda Prezidentin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsi ilə bağlı regional müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir Prezident İlham Əliyevin sədrliyi ilə bu il mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası və dövlət proqramında nəzərdə tutulan tədbirlərin regionlar üzrə əlaqələndirilmiş, çevik və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə təşkil edilib.

Ağcabədidə keçirilən tədbirdə aidiyyəti dövlət qurumlarının rəhbərləri və səlahiyyətli nümayəndələr, habelə Ağcabədi, Ağdam, Bərdə, Füzuli və Tərtər rayonlarından olan fermer və sahibkarlar iştirak ediblər.

Prezidentin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov dövlətimizin başçısının kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verdiyi tapşırıqlar, həmçinin Ağcabədi, Ağdam, Bərdə, Füzuli və Tərtər rayonlarının aqrar inkişaf perspektivləri barədə məlumat verib. O vurğulayıb ki, 2026-2030-cu illər üçün dövlət proqramı qarşıdakı beş il ərzində aqrar sektorun inkişaf istiqamətlərini müəyyən edən əsas strateji sənəd olmaqla, kənd təsərrüfatında məhsuldarlığın, gəlirliliyin və rəqabət qabiliyyətinin artırılmasını, emal imkanlarının və ixrac potensialının genişləndirilməsini, mövcud torpaq və su ehtiyatlarından daha səmərəli istifadəni nəzərdə tutur. Qeyd edilib ki, proqramda müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi, toxumçuluq və damazlıq bazasının gücləndirilməsi, aqrar maliyyə və sığorta mexanizmlərinin təkmilləşdirilməsi, emal və logistika infrastrukturunun inkişaf etdirilməsi, eləcə də balıqçılıq və akvakultura sahələrinin inkişafı üzrə tədbirlər planlaşdırılıb. Bildirilib ki, regional müşavirənin əsas məqsədi dövlət proqramında nəzərdə tutulan hədəf və vəzifələri müzakirə etmək, yerlərdə mövcud vəziyyəti qiymətləndirmək, fermer və sahibkarların rəy və təkliflərini dinləmək və proqramın icrası ilə bağlı qarşıda duran vəzifələri dəqiqləşdirməkdir.

Kənd təsərrüfatı nazirinin müavini Zaur Əliyev dövlət proqramı çərçivəsində Qarabağ iqtisadi rayonu üzrə nəzərdə tutulan prioritet istiqamətlər barədə təqdimatla çıxış edib. O bildirib ki, Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş dövlət proqramı aqrar sahədə məhsuldarlığın, əlavə dəyərin və ixracyönümlülüyün artırılmasını, dayanıqlı və rəqabətqabiliyyətli aqrar sektorun formalaşdırılmasını hədəfləyir. Qeyd olunub ki, proqram 5 prioritet istiqaməti, 16 fəaliyyət istiqamətini, 86 tədbiri və 23 hədəf indikatorunu əhatə edir. Təqdimatda buğda və pambıq istehsalında məhsuldarlığın yüksəldilməsi, müasir suvarma sistemlərinin genişləndirilməsi, kənd təsərrüfatı texnikası parkının yenilənməsi, lazer hamarlama texnologiyasının tətbiqi, taxıl siloları və soyuducu anbar infrastrukturunun yaxşılaşdırılması, intensiv bağçılıq, heyvandarlıq və qoyunçuluğun inkişafı üzrə tədbirlər, eləcə də fermer və sahibkarlar üçün nəzərdə tutulan subsidiya və güzəştli maliyyələşdirmə mexanizmləri barədə məlumat verilib.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədrinin müavini İlham Bayramov çıxışında Qarabağ iqtisadi rayonunun aqrar potensialının reallaşdırılmasında etibarlı və dayanıqlı su təminatının mühüm rolundan danışıb. O, region üzrə agentliyin xidmət göstərdiyi ərazilərdə 249 min 307 hektar suvarılan sahə üçün cari ildə 1 277,651 milyon kubmetr suvarma suyunun təmin edilməsinin planlaşdırıldığını, Ağcabədi, Ağdam, Bərdə, Füzuli və Tərtər rayonlarında isə ümumilikdə 5272 kilometr suvarma infrastrukturunun mövcud olduğunu qeyd edib. Bildirilib ki, qeyd edilən rayonlar üzrə 29 Su İstifadəçiləri Birliyi 249 min 870 hektar xidməti ərazini əhatə edir və 256 kənd üzrə 78 min 147 su istifadəçisinə xidmət göstərir. Çıxışda Qarabağ suvarma kanalı, Baş Mil kanalı, Yuxarı Mil kanalı və Tərtərçay suvarma sisteminin regionun su təminatında xüsusi əhəmiyyəti, suvarma infrastrukturunun təkmilləşdirilməsi, su itkilərinin azaldılması, müasir suvarma texnologiyalarının tətbiqi və dövlət proqramının icrası çərçivəsində fermerlərin su təminatının yaxşılaşdırılması istiqamətində görüləcək işlər barədə məlumat verilib.

Daha sonra çıxış edən sahibkarlar Ağcabədi rayonundan Vüqar Ağayev, Bərdə rayonundan Afəddin Hüseynov və Zaur İsmayılov, habelə Füzuli rayonundan fermer Facət Heydərov və Tərtər rayonundan fermer Arif Orucov Azərbaycan Respublikası Prezidentinin kənd təsərrüfatı sahəsinə göstərdiyi diqqət və dövlət dəstəyinə görə təşəkkürlərini bildirərək, dövlət proqramının kənd təsərrüfatı istehsalçılarının fəaliyyətinin genişləndirilməsi və investisiya imkanlarının artırılması baxımından mühüm əhəmiyyət daşıdığını qeyd ediblər. Onlar bildiriblər ki, proqram çərçivəsində yaradılan yeni imkanlar aqrar sektorun rəqabət qabiliyyətinin yüksəldilməsinə və fermer təsərrüfatlarının daha dayanıqlı inkişafına töhfə verəcək.

Müşavirənin yekununda Prezidentin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov dövlət proqramının yerlərdə səmərəli icrasının təmin olunması məqsədilə yerli icra hakimiyyəti orqanları, aidiyyəti dövlət qurumları, fermerlər, sahibkarlar və investorlar arasında koordinasiyalı fəaliyyətin həlledici əhəmiyyət daşıdığını vurğulayıb. Həmçinin dövlət proqramının fermerlər və sahibkarlar arasında geniş təbliğinin təşkili, ölkəyə idxal olunan məhsulların yerli istehsalının artırılması istiqamətində özəl sektorun fəal iştirakının təmin edilməsi və aqrar dəyər zəncirinin bütün həlqələri üzrə əməkdaşlığın gücləndirilməsinin vacibliyi diqqətə çatdırılıb. Bildirilib ki, müşavirədə səsləndirilən rəy, təklif və qeydlər ümumiləşdirilərək aidiyyəti dövlət qurumlarına təqdim olunacaq və dövlət proqramının icrası prosesində nəzərə alınacaq.

## Quba





İyunun 16-da Abşeron-Xızı və Quba-Xaçmaz iqtisadi rayonlarında Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsi ilə bağlı regional müşavirə keçirilib.

Tədbir Prezident İlham Əliyevin sədrliyi ilə bu il mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası və dövlət proqramında nəzərdə tutulan tədbirlərin regionlar üzrə əlaqələndirilmiş, çevik və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə təşkil edilib.

AZƏRTAC xəbər verir ki, Qubada keçirilən tədbirdə aidiyyəti dövlət qurumlarının nümayəndələri, habelə Abşeron, Xızı, Quba, Qusar, Siyəzən və Şabran rayonlarını təmsil edən fermer və sahibkarlar iştirak ediblər.

Prezidentin köməkçisi - Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev dövlətimizin başçısının kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı müəyyən etdiyi prioritetlər və bu istiqamətdə qarşıya qoyulan vəzifələr barədə danışıb, həmçinin yeni dövlət proqramının əsas məqsəd və hədəfləri haqqında iştirakçıları məlumatlandırıb. Qeyd edib ki, aqrar sahədə əldə olunmuş nəticələr növbəti mərhələdə daha yüksək məhsuldarlığın təmin edilməsini, rəqabətqabiliyyətli istehsalın genişləndirilməsini və özünütəminetmə səviyyəsinin artırılmasını zəruri edir. Prezidentin köməkçisi vurğulayıb ki, yeni dövlət proqramı aqrar sahənin dayanıqlı inkişafına, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə və daxili istehsal potensialının artırılmasına xidmət edir.

Kənd təsərrüfatı nazirinin müavini Seymur Səfərli dövlət proqramı çərçivəsində fermerlər üçün nəzərdə tutulan yeni dəstək mexanizmləri, müasir texnologiyaların tətbiqi və istehsalın səmərəliliyinin artırılması istiqamətində görüləcək işlər barədə məlumat verib. Nazir müavini buğdaçılıq, bağçılıq, heyvandarlıq və quşçuluq sahələri üzrə müəyyən edilmiş hədəflərdən bəhs edərək, suvarma, texnika təminatı, saxlama infrastrukturu və güzəştli maliyyələşdirmə imkanlarının genişləndirilməsinin məhsuldarlığın artırılmasına və fermerlərin rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət etdiyini bildirib.

Sonra Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov aqrar sahənin dayanıqlı inkişafında su ehtiyatlarının səmərəli idarə olunmasının və etibarlı su təminatının əhəmiyyətindən danışıb. O, regionlarda həyata keçirilən su təsərrüfatı layihələri, suvarma infrastrukturunun modernləşdirilməsi və müasir suvarma texnologiyalarının tətbiqi istiqamətində görülən işlər barədə məlumat verib. Agentlik sədri qeyd edib ki, dövlət proqramı çərçivəsində su resurslarından daha səmərəli istifadə, su itkilərinin azaldılması və kənd təsərrüfatı istehsalçılarının su təminatının yaxşılaşdırılması əsas prioritetlərdəndir.

Daha sonra Quba Rayon İcra Hakimiyyətinin başçısı İlqar Mahmudov rayonda kənd təsərrüfatının inkişafı, mövcud aqrar potensial və dövlət proqramından irəli gələn vəzifələr barədə məlumat verib. O bildirib ki, Quba ölkənin əsas meyvəçilik mərkəzlərindən biri olmaqla yanaşı, bağçılıq, heyvandarlıq və emal sənayesinin inkişafı üçün geniş imkanlara malikdir. İlqar Mahmudov dövlət proqramının icrası məqsədilə rayonda müvafiq fəaliyyət planının hazırlandığını, kənd təsərrüfatı sahəsində ixtisaslı kadr hazırlığının gücləndirilməsi və aqrar potensialın daha səmərəli reallaşdırılması istiqamətində tədbirlərin davam etdirildiyini diqqətə çatdırıb.

Müzakirələr zamanı çıxış edən fermer və sahibkarlar aqrar sahəyə göstərilən diqqət və qayğıya, eləcə də yaradılmış əlverişli biznes və investisiya mühitinə görə Prezident İlham Əliyevə təşəkkürlərini bildiriblər. Dövlət proqramında nəzərdə tutulan tədbirlərin kənd təsərrüfatı məhsullarının istehsal və emal imkanlarının genişləndirilməsi, yeni investisiya layihələrinin həyata keçirilməsi və sahibkarlıq fəaliyyətinin inkişafı baxımından mühüm əhəmiyyət daşıdığı qeyd olunub. Çıxışlarda proqramdan irəli gələn vəzifələrin icrasında fəal iştirak etməyə, yerli istehsalın artırılmasına və ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə bundan sonra da töhfə verməyə hazır olduqları ifadə edilib.

Müşavirənin yekununda Prezidentin köməkçisi - Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev dövlət proqramından irəli gələn vəzifələrin icrası ilə bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verib. O, dövlət proqramında nəzərdə tutulan tədbirlərin vaxtında və səmərəli icrasının təmin edilməsi, aidiyyəti qurumlar arasında əlaqələndirmənin gücləndirilməsi və qarşıya qoyulmuş vəzifələrin operativ şəkildə yerinə yetirilməsinin vacibliyini vurğulayıb. Bildirilib ki, müşavirə zamanı səsləndirilən təkliflər ümumiləşdirilərək dövlət proqramının icrası prosesində nəzərə alınacaq.

# Azərbaycanın orta güc konsepsiyası

## Bölgədə yeni reallıqlar yaradan ölkəmiz fərqli coğrafiyaları birləşdirən etibarlı mərkəzə və regional gündəliyi formalaşdıran nüfuzlu aktora çevrilib

Cənubi Qafqazda otuzillik status-kvonun dəyişməsi fonunda Azərbaycanın yaratdığı yeni reallıqlar ölkəmizin qlobal güc mərkəzləri ilə münasibətlərini və strategiyasını da yenidən formalaşdırıb. Postmünaqişə dövrünün reallıqları Azərbaycanı fərqli iqtisadi qütblər arasında coğrafi və siyasi kəsişmə mərkəzinə çevirib. Ölkəmizin xarici siyasət fəlsəfəsi təkcə mövcud reallıqlara uyğunlaşmaq yox, eyni zamanda regional gündəliyi formalaşdıran aparıcı aktora çevrilmək üzərində qurulub.



Beynəlxalq logistik marşrutların yenidən cızıldığı bir vaxtda Azərbaycanın təqdim etdiyi geostrateji imkanlar regionun və qitələrarası inteqrasiyanın gələcək vizyonunu müəyyən edir. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Trans-Xəzər Forumunda çıxışı zamanı söylədiyi fikirlər də Azərbaycanın unikal geosiyasi mövqeyini, çoxşaxəli kimliyini və gələcək vizyonunu ortaya qoyur.

Hikmət Hacıyev vurğulayıb ki, Ermənistanla Azərbaycan arasındakı münaqişənin həllindən və regionda sülhün bərqərar olmasından sonra ölkəmizin xarici siyasətində yeni ölçülər, yeni imkanlar yaranıb və bu yeni coğrafiyalara doğru genişlənib: "Azərbaycan Cənubi Qafqaz ölkəsidir. Biz, eyni zamanda Mərkəzi Asiya ailəsinə və Xəzər dənizi bölgəsinə mənsubuq. Azərbaycanın Avropa və Yaxın Şərqə dair kimlikləri var. Bütün bu dəyərlər bir-birinə ziddiyyət təşkil etmir, bir-biri ilə uyğun gəlir. Ermənistanla münaqişənin həllindən sonra Azərbaycan orta güc konsepsiyasına keçib. Bizim üçün orta güc konsepsiyası yalnız ölçü, iqtisadiyyat və əhali ilə ölçülmür. Bu, ölkələrin tərəfdaşlıq şəbəkəsidir". Prezidentin köməkçisi əlavə edib ki, Azərbaycan müstəqillik qazandıqdan bəri Orta dəhliz üzərində işləyir.

Münaqişənin həllindən və regionda sülhün bərqərar olmasından sonra Azərbaycanın xarici siyasətində yeni imkanların yaranması regional təhlükəsizlik arxitekturasının tamamilə dəyişməsindən xəbər verir. Uzun illər boyu dövlətimizin xarici siyasət və diplomatiya resurslarının böyük bir hissəsi Ermənistanın işğalçılıq siyasətinin fəsadlarının aradan qaldırılmasına, torpaqlarımızın azad edilməsinə və münaqişənin beynəlxalq hüquq müstəvisində həllinə yönəlmişdi. Problemin tamamilə və qətiyyətlə həll olunması, suverenliyimizin bərpası Azərbaycanın xarici siyasətini məhdudlaşdırıcı yükdən azad etdi. İndi ölkəmiz beynəlxalq arenada tamamilə yeni coğrafi istiqamətlərə, qlobal layihələrə və strateji tərəfdaşlıqlara fokuslanan, gündəliyi özü müəyyənləşdirən aktiv oyunçuya çevrilib. Məhz Azərbaycanın sülh gündəmi və regionda formalaşdırdığı mühit diplomatiyada şaxələndirmə mərhələsini başladıb və ölkəmizin qlobal nüfuzunu artırıb.

Azərbaycanın müstəqillik qazandıqdan bəri Orta dəhliz layihəsi üzərində işləməsi rəsmi Bakının uzaqgörən strategiyasının ən bariz göstəricisidir. 2000-ci illərdən etibarən əsası qoyulan enerji və nəqliyyat strategiyası da əslində böyük Orta dəhlizin fundamenti idi. Azərbaycan Xəzər dənizində ən böyük ticarət limanını, dəmir yolları şəbəkəsini və logistik infrastrukturu qurmaqla bu layihənin əsas memarı oldu.

Xüsusən, qlobal geosiyasi qarşıdurmalar fonunda "Şimal" və "Cənub" marşrutlarının riskli ticarət yollarına çevrilməsi Çindən Avropaya gedən ən təhlükəsiz, qısa və iqtisadi baxımdan səmərəli xətt kimi Orta dəhlizə və onun mərkəzində dayanan Azərbaycana qlobal təchizat zəncirinin əvəzolunmaz mərkəzi statusunu qazandırıb.

Azərbaycanın çoxşaxəli əlaqələri də xarici siyasətimizdə unikal balans və sintez yaradır. Ölkəmiz özünü dar coğrafi çərçivəyə və ya təktərəfli siyasi bloka sığışdırmır. Bir tərəfdən Mərkəzi Asiyanın türk dövlətləri ilə qardaşlıq və strateji müttəfiqlik əlaqələri quran Azərbaycan eyni zamanda Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Mərkəzi Asiyanın zəngin resurslarının Qərb bazarlarına çıxışında yeganə və etibarlı qapı məhz Azərbaycandır. Həmçinin ölkəmiz İslam dünyası və Yaxın Şərqlə olan tarixi-mədəni bağlılıqla regional əməkdaşlıq formatlarını da gücləndirir.

Önəmli məqam odur ki, bütün bunlar Azərbaycanın xarici siyasətində bir-birini inkar etmir, əksinə, bir-birini tamamlayır. Məhz bu yanaşma, rəsmi Bakıya Şərqlə Qərb, Şimalla Cənub arasında təbii və etibarlı bir körpü rolu oynamaq imkanı verir.

Beynəlxalq münasibətlər nəzəriyyəsində orta güc qlobal və regional proseslərə birbaşa təsir imkanına sahib, diplomatik nüfuzu yüksək olan dövlətlərə deyilir. Azərbaycan bu statusu ərazi böyüklüyü, iqtisadiyyatın həcmi və ya əhali sayı kimi fiziki parametrlərlə qazanmır. Ölkəmizin gücü onun qurduğu tərəfdaşlıq və əməkdaşlıq şəbəkəsində, Qoşulma Hərəkatına uğurlu sədrliyində, COP29 və WUF13 kimi qlobal tədbirlərə evsahibliyi etməsində, beynəlxalq hüququn aliliyini müdafiə etməsində və qlobal problemlərin həllində vasitəçilik qabiliyyətindədir. Bu strateji keçid Azərbaycanın regionun hüdudlarını aşaraq, qonşu coğrafiyalarda söz sahibi olan güc mərkəzinə çevrildiyini təsdiq edir.

Nəticə olaraq Azərbaycanın postmünaqişə dövründə nümayiş etdirdiyi xarici siyasət strategiyası regional sabitliyi qorumaqla yanaşı, qlobal miqyasda yeni əməkdaşlıq formatlarının yaradılmasına xidmət edir. İşğal faktorunun aradan qaldırılması ölkəmizin öz potensialını tam gücü ilə ortaya qoymasına şərait yaradıb. Bu gün Bakı fərqli coğrafiyaları birləşdirən Orta dəhlizin logistik mərkəzi, Şərqlə Qərbin önəmli kəsişmə nöqtəsi və beynəlxalq arenada prinsipial mövqeyi olan orta gücdür.

Azərbaycanın yeni xarici siyasət fəlsəfəsi sübut edir ki, müasir dünyada dövlətlərin nüfuzu yalnız onların fiziki sərhədləri və ya iqtisadi rəqəmlərlə deyil, qurduqları etibarlı tərəfdaşlıq şəbəkəsi və qlobal sülhə verdikləri real töhfələrlə ölçülür. Regionda formalaşan yeni reallıq Cənubi Qafqazı münaqişə zonasından qlobal inkişafın təhlükəsiz qovşağına çevirməkdədir.

***İsmayıl QOCAYEV, "Azərbaycan"***

# İrəvan Bakının sülh gündəliyini alternativsiz reallıq kimi qəbul edir

Cənubi Qafqazda regional təhlükəsizlik arxitekturası yeni geosiyasi reallıqlar çərçivəsində formalaşır. Bu kontekstdə Azərbaycanla Ermənistan arasında sülh prosesi birbaşa təmaslar müstəvisində daha irəliyə daşınır. Xüsusən Ermənistanda keçirilmiş parlament seçkilərindən dərhal sonra sülh gündəliyi çərçivəsində dinamik addımların atılması müşahidə olunur.



İyunun 14-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Ermənistana səfəri və Dilican şəhərində Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla işgüzar görüşü sülh prosesinin geridönməz mərhələdə olmasını bir daha təsdiq edir. Danışıqların intensivləşməsi və ikitərəfli diplomatiya mexanizmlərinin sürətlənməsi isə tərəflərin qarşılıqlı etimad mühitinin formalaşdırılmasında daha qətiyyətli mövqe nümayiş etdirməyə başladığının göstəricisidir.

Qeyd edək ki, ilk dəfə bu səviyyədə reallaşan səfər zamanı tərəflər Azərbaycan-Ermənistan sülh gündəliyi ilə bağlı bir sıra məsələləri müzakirə ediblər. İlk növbədə regionda davamlı sülhün və sabitliyin təşviqinə yönəlmiş səylər çərçivəsində ikitərəfli dialoqun davam etdirilməsinin əhəmiyyəti vurğulanıb. Tərəflər həmçinin iki ölkənin vətəndaş cəmiyyətləri arasında etimad quruculuğu tədbirləri barədə fikir mübadiləsi aparıblar. Hikmət Hacıyev və Armen Qriqoryan işçi səviyyəsində təmasların davamı barədə qərar qəbul ediblər. Növbəti görüşün Azərbaycanda keçiriləcəyi qərara alınıb.

Ermənistandakı gərgin seçki marafonununun ardınca belə bir səfərin və görüşün baş tutması təsadüfi deyil. Seçkinin yekun nəticələri rəsmi İrəvanın daxili legitimliyini müəyyən dərəcədə yenilədi və Paşinyan hökumətinə sülh prosesində daha cəsarətli addımlar atmaq üçün mandat verdi. Rəsmi Bakı Ermənistandakı daxili siyasi sabitliyi sülh prosesinin sürətləndirilməsi və yekun müqavilə ilə sonlandırılması üçün bir imkan kimi görür və bunu dəyərləndirir.

Xatırladaq ki, Prezidentin köməkçisi Hikmət Hacıyevin səfəri Azərbaycan rəsmilərinin Ermənistana ilk səfəri deyil. Bundan əvvəl Baş nazirin müavini Şahin Mustafayevin sərhədlərin delimitasiyası və kommunikasiyaların açılması çərçivəsində Ermənistana və sərhəd bölgələrinə səfərləri baş tutub. Lakin Baş nazirin müavininin səfərləri daha çox texniki, iqtisadi və delimitasiya xarakteri daşıyıb. Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Ermənistana səfəri isə sülh prosesinin ali səviyyəyə daşındığını və konseptual razılaşmaların masada olduğunu göstərir. İki ölkə rəsmisinin Ermənistan ərazisində görüşü psixoloji baryerin sındırılması yönündə də önəmli addımdır.

Görüşə dair bəyanatda "ikitərəfli dialoq"un vurğulanmasını regiona müdaxilə niyyətində olan kənar geosiyasi oyunçulara verilən mesaj kimi də qəbul etmək olar. Bu baxımdan rəsmi İrəvan da birmənalı dərk etməlidir ki, kənar vasitəçilər prosesi uzadır və öz maraqlarını güdürlər.

Azərbaycan tərəfi üçün davamlı sülh Ermənistanın mövcud konstitusiyasındakı ərazi iddialarının tamamilə aradan qaldırılması və revanşizm riskinin sıfırlanması deməkdir. Daxildəki revanşist müxalifətin və kənar dairələrin təzyiqlərinə rəğmən, İrəvan bu prinsiplərlə qeyd-şərtsiz razılaşmaq və sonrakı addımlarını onunla uyğunlaşdırmaq məcburiyyətindədir. Çünki hüquqi müstəvidə köklü dəyişikliklər edilmədən imzalanacaq hər hansı sənəd gələcəkdə regionu yenidən qeyri-sabitliyə sürükləyə bilər. Dayanıqlı sülh, sadəcə, siyasi rəhbərliyin iradəsi ilə deyil, Ermənistan qanunvericiliyinin beynəlxalq hüquq normalarına tam uyğunlaşdırılması ilə mümkündür. Odur ki, konstitusiya islahatları sülh müqaviləsinin imzalanması üçün Azərbaycanın prinsipial təməl şərtidir.

Vurğulandığı kimi, sülh prosesinin önəmli məqamlarından biri də vətəndaş cəmiyyətlərinin nümayəndələri arasında görüşlərin intensiv hal almasıdır. Ermənistan cəmiyyətindəki ksenofobiyanın və "nifrət dili"nin sındırılması üçün Bakı İrəvandan konkret addımlar tələb edir.

İşçi səviyyəsində təmasların davam edəcəyinin qeyd olunması və rəsmilər arasında növbəti görüşün Azərbaycanda keçirilməsinin razılaşdırılması sülh prosesinin daimi işləyən mexanizmə çevrildiyinin bəyanıdır. Ümumiyyətlə, Ermənistandakı seçkidən dərhal sonra atılan bu addım və qarşılıqlı səfərlərin razılaşdırılması sülh prosesinin yeni mərhələyə qədəm qoyduğunu və yaxın gələcəkdə regionda tamamilə yeni bir siyasi reallığın bərqərar olacağını nümayiş etdirir.

Sülh gündəliyinin konkret praktik addımları iqtisadi-logistik müstəvidə də özünü göstərir. Tərəflər arasında gərginliyin azaldılması fonunda reallaşan iqtisadi təmaslar, xüsusilə Azərbaycandan Ermənistana birbaşa neft məhsullarının daşınması, eləcə də digər strateji məhsulların, taxıl və gübrənin Azərbaycan ərazisindən tranzit keçməklə Ermənistana çatdırılması bu reallığın tərkib hissəsidir. Paşinyan hökuməti anlayır ki, alternativ iqtisadi bazarlardan asılılıq və baha başa gələn logistik marşrutlar fonunda Azərbaycanın təklif etdiyi ticarət və tranzit imkanları Ermənistanın daxili bazarı və iqtisadi təhlükəsizliyi üçün həyati əhəmiyyət daşıyır. Bakı bu addımlarla nümayiş etdirir ki, Ermənistanın destruktiv iddialardan tamamilə əl çəkməsi və sülh müqaviləsinə sadiqlik göstərməsi real iqtisadi dividendlər gətirəcək.

Azərbaycanla Ermənistan arasında münasibətlərin tənzimlənməsi rəsmi Bakının formalaşdırdığı yeni regional reallıqlar çərçivəsində irəliləyir. İstər yüksəksəviyyəli birbaşa diplomatik təmaslar, istərsə də Azərbaycanın enerji resurslarından və tranzit imkanlarından yararlanmaq cəhdləri göstərir ki, Ermənistan üçün Bakının diktə etdiyi şərtlərlə hərəkət etməkdən başqa xilas yolu qalmayıb. Ermənistan rəhbərliyinin atdığı siyasi və iqtisadi addımlar İrəvanın Azərbaycanın sülh gündəliyini tam və alternativsiz olaraq qəbul etdiyinin real etirafıdır.

İndi regionda tamamilə yeni mərhələ başlayır. Azərbaycanın qətiyyətli mövqeyi ilə bərqərar olan bu yeni nizam Ermənistanı revanşist xəyallardan tamamilə uzaqlaşmağa və sülh müqaviləsini ən qısa zamanda imzalayaraq bu reallığı hüquqi cəhətdən də rəsmiləşdirməyə məcbur edir. Paşinyan hökuməti seçkidən sonra əldə etdiyi siyasi mandatı və Azərbaycanın təqdim etdiyi geoiqtisadi fürsətləri daxili revanşist təzyiqlərə, xarici manipulyasiyalara qurban vermədən regional sülhün və ölkəsinin gələcək iqtisadi rifahının əsas təminatına çevirməlidir.

***İ.QOCAYEV, "Azərbaycan"***

# Yaxın Şərqdə tarixi dönüş

## Gözlər Cenevrəyə dikilib

Yaxın Şərq regionu son onilliklərin ən gərgin və təhlükəli dövrlərindən birini geridə qoyur. Üç aydan çoxdur ki, bölgədə davam edən genişmiqyaslı hərbi münaqişə, nəhayət, yerini diplomatiyaya verir. ABŞ və İran arasında əldə olunan tarixi sülh razılaşması regionda və dünyada böyük bir rahatlıq yaradıb. Bu saziş hərbi əməliyyatların dayandırılmasında, həmçinin qlobal iqtisadiyyatın yenidən canlanmasında mühüm rol oynayacaq.



ABŞ Prezidenti Donald Tramp və vitse-prezident Cey. Di. Vens tərəfindən elan edilən bu tarixi addım regionun gələcək 50 ilini kökündən dəyişdirə biləcək potensiala malikdir. Pakistan, Qətər, Səudiyyə Ərəbistanı və Türkiyə kimi dövlətlərin fəal vasitəçiliyi ilə əldə olunan bu razılaşma rəsmi olaraq İsveçrənin Cenevrə şəhərində imzalanacaq. Saziş dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında yeni bir eranın başlanğıcı hesab olunur.

Münaqişənin ən ağır nəticələrindən biri dünya neft və təbii qaz daşımalarının əsas damarı olan Hörmüz boğazının bağlanması idi. Fevralın 28-dən bəri əksər ticarət gəmisi üçün bağlanan boğazda yüzlərlə tanker sıxışıb qalmışdı. Dəniz minaları və dron hücumları təhlükəsi səbəbindən beynəlxalq gəmiçilik şirkətləri bu marşrutdan istifadə edə bilmirdilər. Lakin yeni razılaşmada bu böhranın dərhal ortadan qaldırılması nəzərdə tutulur. Sazişə əsasən, razılaşmadan sonra 60 gün müddətində gəmilərin Hörmüz boğazından keçidi tamamilə ödənişsiz olacaq. ABŞ tərəfi yekun razılaşmadan sonra da bu su yolunun rüsumsuz qalmasını tələb edir.

ABŞ Hərbi Dəniz Qüvvələrinin İrana qarşı tətbiq etdikləri dəniz blokadası iyunun 15-də başa çatıb. Bölgədəki minaların təmizlənməsi prosesi sürətləndirilir. ABŞ Prezidenti gəmilərin artıq təhlükəsiz və etibarlı olan "Cənub marşrutu" ilə hərəkətə başladıqlarını elan edib. Donald Tramp müraciətində deyib: "Dünya gəmiləri, mühərriklərinizi işə salın. Qoyun, neft axmağa başlasın. Bu saziş bütün regiona sülh və təhlükəsizlik gətirəcək".

Münaqişə dövründə qlobal bazarlarda "qara qızıl"ın qiyməti kəskin yüksələrək bir barel üçün 120 ABŞ dollarına çatmışdı. Bu artım dünya miqyasında inflyasiyanı sürətləndirmiş, yanacaq və enerji xərclərini artırmışdı. Sülh xəbərinin yayılması ilə dünya birjalarında dərhal əks tendensiyalar müşahidə olunmağa başladı. Şimal dənizindən hasil edilən "Brent" markalı neftin qiyməti kəskin ucuzlaşaraq 83,55 dollara qədər geriləti. İlin sonuna qədər qiymətlərin daha da sabitləşəcəyi proqnozlaşdırılır.

Dünya gübrə ticarətinin üçdə biri və azot əsaslı gübrələrin istehsalı üçün lazım olan təbii qaz Hörmüz boğazından keçir. Boğazın açılması kənd təsərrüfatı xərclərini azaldacaq və qlobal ərzaq qiymətlərinin aşağı düşməsinə kömək edəcək. Müharibə dövründə pik həddə çatan təyyarə yanacağının qiyməti də artıq enməyə başlayıb. Bu da yaxın gələcəkdə logistika və sərnişindaşıma xərclərinin azalması deməkdir. Enerji daşıyıcılarının ucuzlaşması mərkəzi bankların üzərindəki inflyasiya təzyiqini də azaldır.

ABŞ və İran arasında əldə olunmuş bu çərçivə sazişi iki dövlət arasındakı gərginliyi azaltmaqla yanaşı, həmçinin qlobal güc balansını da yenidən formalaşdırır. Böyük Britaniya və Fransanın daha əvvəl Hörmüz boğazında gəmilərin təhlükəsizliyini qorumaq üçün planlaşdırdıqları müdafiə missiyaları artıq yeni bir müstəviyə keçir. Vaşinqton bu su yolunun təhlükəsizliyini təkbaşına təmin edə biləcəyinə inansa da, müttəfiq ölkələrin bir neçə hərbi gəmilərinin regionda qalması gələcək provokasiyaların qarşısını almaq üçün mühüm sığorta rolunu oynayır.

Sazişin elan edilməsinə baxmayaraq, real vəziyyət göstərir ki, qlobal iqtisadiyyatın tam bərpası üçün müəyyən zamana ehtiyac var. Beynəlxalq gəmiçilik məlumatları boğazda hərəkətliyin hələ də müharibədən əvvəlki səviyyəyə çatmadığını göstərir. Münaqişənin logistik fəsadları dəniz nəqliyyatında yenə hiss olunmaqdadır. Danimarkanın "Maersk" şirkətinin 5 böyük gəmisi Körfəzdə sıxışıb qalıb və şirkət hazırda bu vəziyyətin logistik təsirlərini qiymətləndirərək əməliyyat rejimini dəyişmir. Almaniyanın "Hapag-Lloyd" şirkətinin isə 4 gəmisi keçid növbəsində gözləyir və rəhbərlik minalar tam təmizləndikdən sonra həftəsonu həmin gəmiləri ərazidən çıxarmağı planlaşdırır. Qlobal Tanker Şəbəkəsi üzrə gündəlik hərəkət edən ortalama 26 xam neft tankerinin isə yalnız ilin sonuna qədər müharibədən əvvəlki hərəkət intensivliyinə qayıdacağı gözlənilir. Gəmilərə təhlükəsiz keçid zəmanəti verilsə belə, tankerlərin logistik xəritədə yanlış nöqtələrdə paylanması, neftayırma zavodlarının tam gücü ilə işləməməsi və dəniz sığortası xərclərinin hələ də yüksək olması prosesi ləngidən əsas amillərdir. Normal rejimə keçid mərhələli şəkildə baş verəcək.

İsveçrədə keçiriləcək rəsmi mərasimdən sonra başlayacaq 60 günlük müddət həm də böyük bir diplomatik sınaqdır. ABŞ-nin Vitse-prezidenti Cey Di.Vens qeyd edir ki, təxminən bir səhifə yarımdan ibarət olan memorandum çox ümumi prinsipi ehtiva edir. ABŞ tərəfi gəmilərin sərbəst hərəkətləri üçün hər hansı ödəniş sistemini qəbul etməyəcəyini qəti şəkildə bildirib.

Sazişin yekun mətninin ən kritik və ən çox müzakirə olunan hissəsi sanksiyaların ləğvi sistemidir. Ağ Ev rəsmilərinin verdiyi məlumatalara əsasən, sanksiyaların götürülməsi birtərəfli və dərhal baş verən bir proses olmayacaq. Vaşinqton "Əvvəl addım, sonra mükafat" prinsipinə əsaslanan ciddi bir şərt sistemi irəli sürüb. Sanksiyaların ləğvi və dondurulmuş vəsaitlərin sərbəst buraxılması prosesi tamamilə İranın üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsindən asılı olacaq. Sanksiyaların yumşaldılması üçün əsas şərt Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin İrandakı yoxlamaları uğurla başa vurmasıdır. Agentlik mütəxəssisləri yüksək dərəcədə zənginləşdirilmiş uran ehtiyatlarının məhv edildiyini təsdiqləməlidirlər. İranın xarici banklarda dondurulmuş milyardlarla dollarlıq maliyyə aktivləri yalnız nüvə obyektlərindəki texniki şərtlər yerinə yetirildikdən sonra mərhələli şəkildə sərbəst buraxılacaq. Əgər Tehran 60 günlük texniki danışıqlar müddətində regional sabitliyə xələl gətirən hər hansı addım atarsa və ya nüvə öhdəliklərini yubadarsa, sazişdə nəzərdə tutulan iqtisadi güzəştlər dərhal dondurulacaq. Bu şərtlər səbəbindən hər iki tərəfin kompromisə gəlməsi Yaxın Şərqdə investisiya mühitini canlandırmaq və qlobal iqtisadi sabitliyi təmin etmək üçün yeganə çıxış yoludur.

***Təhminə VERDİYEVA, "Azərbaycan"***

# Media sahəsinə münasibətdə daha çevik və kollegial mexanizmə keçid zərurəti yaranıb



İyunun 16-da Milli Məclisin İnsan hüquqları komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Zahid Oruc iclasın gündəliyinə 3 məsələnin daxil edildiyini bildirib.

Əvvəlcə iclasda "Dövlət qulluğu haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda təqdim edilib. Komitə sədri məsələ barədə danışaraq, layihənin dövlətin milli informasiya məkanının hibrid hücumlardan qorunması, regional və beynəlxalq məkanda yaranan çağırışlara uyğun media strukturlarının gücləndirilməsi, institusional mexanizmlərin təkmilləşdirilməsi baxımından əhəmiyyətli olduğunu deyib. O, ölkə Prezidentinin medianın inkişafına daim yüksək qayğı və diqqət göstərdiyini vurğulayıb. Bildirilib ki, "Media haqqında" qanunun qəbulundan ötən dövr ərzində informasiya mühitinin sağlamlaşdırılması və qorunması sahəsində qəbul edilən yeni hüquqi aktlar öz müsbət nəticələrini göstərib, informasiya coğrafiyamız daha da genişlənib və milli maraqlarımızın müdafiəsində mətbuatın rolu artıb. Media sahəsində aparılan islahatlar çərçivəsində hazırda iki qurum fəaliyyət göstərir - Azərbaycan Respublikasının Audiovizual Şurası və Medianın İnkişafı Agentliyi (MEDİA) və hər iki qurumun fəaliyyəti bir-birini tamamlayır.

Eyni zamanda qeyd olunub ki, milli informasiya təhlükəsizliyini və medianın iqtisadi müstəqilliyini təmin etmək üçün Azərbaycanda media sahəsinə münasibətdə daha çevik və kollegial mexanizmə keçid zərurəti yaranıb. Layihədə "Media haqqında" qanuna bununla bağlı dəyişiklik nəzərdə tutulur. Təkliflərin mahiyyəti ondan ibarətdir ki, mövcud Audiovizual Şuranın və MEDİA Agentliyinin strukturları əsasında kollegial idarəetmə sisteminə malik vahid bir qurum - Media və Yayım Şurası yaradılır. Belə ki, "Media haqqında" qanunun 43-cü maddəsinə əsasən, Azərbaycan Respublikasında media və yayım sahəsində səlahiyyətli dövlət orqanı Şura olacaq. Qanun layihəsində həmçinin Şura ilə bağlı vəzifə və öhdəliklərin öz əksini tapması və qurumun kollegial idarəetmə modelini əsas götürməsi medianın müstəqilliyinə və quruma münasibətdə ictimai etimadın yüksəlməsinə zəmanət verir. Təklif olunan dəyişikliklər daxili informasiya məkanının təhlükəsizliyini təmin etməyə, eləcə də yerli medianın inkişafına təkan verməyə şərait yaradacaq.

Məsələ ilə bağlı müzakirələrdə komitə üzvləri Vüqar Rəhimzadə, Sevil Mikayılova, Azər Allahverənov, Bəhruz Məhərrəmov, Tural Gəncəliyev, Razi Nurullayev çıxış edərək, qanun layihəsinin mütərəqqi xarakter daşıdığını, təklif olunan dəyişikliklərin mühüm əhəmiyyət kəsb etdiyini bildiriblər.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Audiovizual Şurasının Aparat rəhbəri Fazil Novruzov və Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədov son dövrlər süni intellektin və digər texnoloji yeniliklərin həyatımızın bütün sahələri ilə yanaşı, media sektoruna da nüfuz etdiyini bildiriblər. Yeni reallıqların media mühitinə və ümumilikdə informasiya siyasətinə yeni yanaşmaların tətbiqini zəruri etdiyini, təklif olunan islahat xarakterli dəyişikliklərin məhz bu məqsədə xidmət etdiyini söyləyiblər. Vurğulanıb ki, hazırda milli informasiya mühitinin təhlükəsizliyini qorumaq, dezinformasiyaya qarşı effektiv mübarizə aparmaq və media subyektlərinin dayanıqlılığını təmin etmək prioritet məsələlər sırasındadır.

Sonra iclasda İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə (ikinci oxunuş) baxılıb. Məsələ barədə İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov fikirlərini açıqlayıblar. Bildirilib ki, informasiya texnologiyalarının sürətli inkişafı müsbət tərəfləri ilə yanaşı, mənfi təsirlərini də bürüzə verir. Qeyd olunub ki, bu təsirlərdən qorunmaq üçün mütəmadi profilaktik tədbirlər görülməli və maarifləndirmə işləri aparılmalıdır. Təqdim edilən qanun layihəsində sosial şəbəkələrdə fərdi rəqəmsal hesabların açılması üçün müvafiq yaş həddinin müəyyən edildiyi və buna riayət olunmasının vacibliyi vurğulanıb. Təklif olunan dəyişikliklərin müasir rəqəmsal dövrdə uşaqların təhlükəsizliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıdığı söylənilib.

İclasda bununla yanaşı Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi də (ikinci oxunuş) nəzərdən keçirilib. Bildirilib ki, qanun layihəsi məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdə yaşayış sahələrinə köçürülməsi, onların mülkiyyət hüququnun təmini və məcburi köçkün statusu ilə bağlı qanunvericilik aktlarının təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Komitə iclasında təqdim edilən hər üç qanun layihəsi baxılmaq üçün Milli Məclisin iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Elm və təhsil komitəsinin iclası olub



İyunun 16-da Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, **komitənin sədri Anar İSGƏNDƏROV** iclasın gündəliyinə "Ümumi təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) daxil edildiyini bildirib.

Komitə sədri diqqətə çatdırıb ki, sənəddə dövlət təhsil siyasətinin həyata keçirilməsində bir sıra məsələlərin tənzimlənməsi nəzərdə tutulur. Bildirilib ki, qanun layihəsinə görə, dövlət ümumi təhsil müəssisələrində təhsilverənlərin işgüzar geyim üslubu ilə bağlı tələblərin müəyyən edilməsi təsbit olunur. Həmin tələblərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən müəyyənləşdirilməsi nəzərdə tutulur. Həmçinin təklif olunan dəyişikliklərə əsasən, təhsilalanların müəyyən edilmiş geyim qaydalarına riayət etməsinin təmin olunması ilə bağlı valideynlərin və digər qanuni nümayəndələrin vəzifələri dəqiqləşdirilir.

Məsələnin müzakirəsində komitə sədrinin müavini Fariz İsmayılzadə, komitə üzvləri Bəxtiyar Əliyev, Ceyhun Məmmədov çıxış edərək, layihə barədə fikirlərini bölüşüblər. Qeyd olunub ki, dəyişikliklər məktəbdaxili nizam-intizamın möhkəmləndirilməsinə, təhsil mühitinin səmərəli təşkilinə və təhsillə bağlı məsələlərə vahid yanaşmanın təmininə xidmət edir.

Müzakirədən sonra qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# *Milli Məclisin komissiyası:* Fransanın Azərbaycana qarşı özündə hibrid təhdidləri ehtiva edən fəaliyyətləri davam edir

Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası (Komissiya) Fransanın Azərbaycana qarşı hibrid təhdidləri ilə bağlı bəyanat yayıb.



AZƏRTAC bəyanatı təqdim edir: "Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası (Komissiya) öz səlahiyyətləri çərçivəsində apardığı monitorinqlər və empirik təhlillər nəticəsində müəyyən edib ki, Fransa Respublikasının Azərbaycan Respublikasına qarşı özündə hibrid təhdidlərin genişspektrli komponentlərini ehtiva edən fəaliyyətləri hələ də davam edir.

Xüsusilə də 2020-ci ildə Azərbaycanın Vətən müharibəsində qazandığı Zəfərdən sonra Fransa tərəfi diplomatik çərçivəni aşaraq, regiondakı beynəlxalq hüquqa zidd maraqlarını təmin etmək məqsədilə müxtəlif vasitələr, platformalar və alətlərlə ölkəmizə qarşı hibrid təhdidlər yaratmağa çalışır.

Azərbaycan ilə Ermənistan arasında hazırda müşahidə edilən kövrək sülh prosesinə zərbə vuran iddialar, beynəlxalq təsisatlarda səsləndirilən birtərəfli mövqelər, Fransa mediası və məhkəmə-hüquq sistemində davam edən tendensiyalar onu deməyə əsas verir ki, bu təhdidlər Azərbaycanın daxili işlərinə qarışmağa, xarici siyasət kursuna təsir etməyə, beynəlxalq arenadakı mövqeyini zəiflətməyə və regionda sabitliyi pozmağa hesablanıb.

Fransa dövlətinin və ona bağlı aktorların hibrid təhdidləri əsasən aşağıdakı istiqamətləri əhatə edir:

● ***"Lawfare", yəni hüquqi vasitələrlə təzyiq etmək yolu ilə Fransa parlamentinin hər iki palatasının (Senat və Milli Assambleya) 2020-ci ilin noyabrından başlayaraq dəfələrlə Azərbaycanı hədəf alan, ölkəmizin suverenliyi və ərazi bütövlüyünün əleyhinə olan qətnamələr qəbul etməsi;***

Diplomatik və siyasi təzyiq vasitəsi kimi istifadə edilən bu sənədlərin hüquqi qüvvəsi məhdud olsa da, onlar Fransanın təsir dairəsinin və erməni lobbisinin güclü olduğu digər ölkələrdə Azərbaycana qarşı oxşar yanaşmaların formalaşması məqsədilə qəbul edilir. Parlamentlərin bu cür birtərəfli və qərəzli sənədləri beynəlxalq arenada ölkəmiz barədə mənfi imic formalaşdırmağa, legitim mövqeyimizi zəiflətməyə, regionda sülhə və sabitliyə töhfə vermək əvəzinə, süni gərginlik yaratmağa xidmət edir.

● ***Beynəlxalq təşkilat və təsisatlarda, regional platformalarda Azərbaycan əleyhinə aktiv fəaliyyətin aparılması;***

İkinci Qarabağ müharibəsindən sonra Fransanın bəzi dövlət rəsmiləri, diplomatları, parlamentariləri və ictimai xadimləri BMT və onun qurumları, Avropa İttifaqının (Aİ) institutları (xüsusən Avropa Parlamenti), Avropa Şurası, AŞPA, ATƏT, eləcə də Beynəlxalq Frankofoniya Təşkilatı kimi platformalardan istifadə edərək Azərbaycanın maraqlarına zidd qərar və sənədlərin qəbul edilməsinə cəhdlər göstərib. Bu addımlar ölkəmizin beynəlxalq hüquqa uyğun hərəkətlərinə baxmayaraq, onu təcrid etmək, nüfuzdan salmaq və müəyyən beynəlxalq əməkdaşlıq çərçivələrindən kənarlaşdırmaq məqsədilə edilib.

● ***Fransız mediasında Azərbaycana qarşı mənfi imicin formalaşdırılması;***

Fransa mətbuatında Azərbaycanın genişmiqyaslı şəkildə mənfi imicinin yaradılması artıq davamlı xarakter daşıyır. Təkcə may və iyun ayları ərzində Fransa mediasında Azərbaycan əleyhinə 40-a yaxın məqalənin dərc olunması, onlarla telereportajın hazırlanması mənfi təbliğatın intensivliyini göstərir. Fransa mediası Azərbaycana qarşı qərəzli, təhriflərə əsaslanan və dezinformasiya xarakteri daşıyan məlumatları yaymaqla hibrid təhdidlərin mühüm cəbhəsinə çevrilib.

● ***Fransa mediasında radikal müxalifətçilərə birtərəfli qaydada tribuna verilərək Azərbaycanın daxili işlərinə birbaşa qarışılması;***

Fransa mediasında Azərbaycanın daxilində və xaricində siyasi çəkisi olmayan bəzi radikal müxalifət nümayəndələrinin yazılarına və müsahibələrinə geniş yer verilərək ölkəmizdəki real vəziyyətin təhrif olunmasına, Fransa ictimaiyyətini çaşdırmağa yönəlmiş çağırışlar edilməsinə şərait yaradılır. Media azadlığı adı altında radikalların Azərbaycan dövlətçiliyinə qarşı fəaliyyətlərini stimullaşdırmağa hesablanmış bu addımlar daxili sabitliyi pozmaq, habelə sosial narazılıq və ölkədə qütbləşmə yaratmaq məqsədlərinə xidmət edən elementdir. Obyektiv jurnalistika prinsiplərinə zidd olaraq, materiallarda Azərbaycan dövlətinin rəsmi mövqeyinə və ya alternativ fikirlərə yer verilməməsi isə bir daha sübut edir ki, bu fəaliyyətlər həm də Fransa cəmiyyətində ölkəmizlə bağlı mənfi rəyin formalaşdırılması məqsədilə bilərəkdən aparılır.

● ***Fransada siyasi sığınacaq adı ilə məskunlaşan azərbaycanəsilli radikal şəxslərdən hibrid təhdid alətləri kimi istifadə olunması;***

Bu kimi şəxslərə Fransanın rəsmi və qeyri-rəsmi dairələrinin davamlı dəstək verməsinin, onların "pozulan hüquqları"nın müxtəlif vasitələrlə, süni şəkildə və illərlə gündəmdə saxlanılmasının, demokratik dəyərlər pərdəsi altında siyasi motivli iddiaların önə çıxarılmasının yeganə məqsədi dövlətimizi beynəlxalq ictimaiyyət qarşısında "repressiv rejim" kimi təqdim etməyə və etibarsızlaşdırmağa yönəlib.

● ***Erməni lobbisinin koordinasiyası ilə anti-Azərbaycan fəaliyyətlərin aparılması;***

Fransada güclü erməni lobbisinin təsiri altında olan bəzi dövlət rəsmiləri, parlamentarilər və yerli idarəetmə orqanlarının rəhbərlərinin (merlər) anti-Azərbaycan fəaliyyətləri müntəzəm xarakter daşıyır. Fransız siyasətçilər güclü siyasi və iqtisadi əlaqələrə malik erməni lobbisinin təsiri altında tez-tez ermənipərəst mövqelərdən çıxış edir, Aİ daxilində və beynəlxalq təşkilatlarda Azərbaycan əleyhinə əlaqələndirilmiş formada fəaliyyət göstərirlər. Bu fəaliyyətlər Azərbaycanın beynəlxalq hüquqla tanınmış suverenliyini və ərazi bütövlüyünü pozmağa yönəlir, Fransa ilə ikitərəfli əlaqələrdə böyük gərginlik yaradır.

● ***Ermənipərəst qruplar, Fransanın maliyyələşdirdiyi beynəlxalq QHT-lər, "insan hüquqları" təşkilatları və "araşdırmaçı jurnalist" şəbəkələri tərəfindən kampaniyaların idarə olunması;***

Hibrid təhdidlərin ən geniş yayılmış və təsirli elementlərindən biri də media və sosial media üzərindən aparılan informasiya kampaniyalarıdır. Fransa tərəfindən ya bilavasitə, ya da dolayı yolla dəstəklənən adıçəkilən qruplar onlayn platformalarda Azərbaycan əleyhinə müxtəlif mövzularda genişmiqyaslı kampaniyalar aparırlar. Bu kampaniyalar vasitəsilə saxta xəbərlər, təhrif olunmuş faktlar və təxribat xarakterli məlumatlar yayılır. Məqsəd ölkənin beynəlxalq imicinə xələl gətirmək və Azərbaycanın dövlət institutlarına qarşı inamsızlıq yaratmaqdır. Bu kampaniyalara bot şəbəkələri və saxta profillər də qoşularaq Azərbaycanla bağlı beynəlxalq ictimai rəyin manipulyasiya edilməsinə cəhd göstərilir.

● ***Fransanın Azərbaycanda casusluq fəaliyyəti;***

Fransa özünün hibrid təhdid strategiyasının mühüm hissəsi kimi ölkələrimiz arasında münasibətləri sarsıtmağa yönəlmiş casusluq fəaliyyəti ilə də məşğul olub. Bu qeyri-qanuni fəaliyyət regiondakı proseslərə təsir etməyə, Azərbaycanın daxili siyasi vəziyyətini, iqtisadi inkişafını, hərbi potensialını və strateji maraqlarını öyrənməyə, eləcə də Azərbaycan və digər ölkə vətəndaşlarından ibarət agentura şəbəkələri qurmağa yönəlib. Qarşıya qoyulan məqsədlər sırasında ölkə daxilində dezinformasiya yaymaq, müəyyən qruplar arasında narazılıq yaratmaq və sabitliyi pozacaq digər əməliyyatlar həyata keçirmək olub.

● ***Ermənistana silah satışı və Avropa İttifaqının Ermənistandakı missiyasının (EUMA) dəstəklənməsi;***

Fransanın Ermənistana fəal şəkildə silahlar ötürməsi və bölgədə əsasən kəşfiyyat fəaliyyəti ilə məşğul olan EUMA-nı birbaşa dəstəkləməklə onu şəxsi alətinə çevirməsi Cənubi Qafqazda hərbi balansı dəyişdirməyə, gərginliyi artırmağa və sülh prosesini əngəlləməyə yönəlmiş addımlar kimi qiymətləndirilir. Komissiyanın 2025-ci il aprelin 24-də təqdim etdiyi *"Cənubi Qafqazda sabitliyə "sülh missiyası" adlı hibrid hücum"* başlıqlı xüsusi araşdırmasında məsələ ilə bağlı geniş məlumat verilib.

(https://meclis.gov.az/documents/EUMA_aprel_2025.pdf)

O da qeyd olunmalıdır ki, Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiya müvafiq dövlət qurumları ilə əlaqələndirilmiş şəkildə Fransanın hibrid təhdidlərinin təsirini heçə endirmək istiqamətində əks-tədbirlərini uğurla davam etdirir. Məhz bu tədbirlərin və Fransanın uğursuz həmlələrinin nəticəsidir ki, qarşı tərəf Azərbaycana qarşı hər dəfə yeni, dost olmayan hansısa əməllərə əl atır və müxtəlif platformalar vasitəsilə qondarma ittihamlar irəli sürdürür.

Qeyd edilənləri nəzərə alaraq, Komissiya Fransanın dövlət və hökumət rəsmilərinə deyil, Fransa xalqına birbaşa müraciət etməyi zəruri hesab edir.

Sadalanan faktlar da göstərir ki, bir sıra fransız siyasətçilər və dövlət strukturları cəmiyyətin siyasi idarəçiliyə olan inamsızlığını pərdələmək və diqqəti ölkə daxilindəki ağır sosial-iqtisadi çətinliklərdən yayındırmaq məqsədilə Azərbaycanın simasında "xarici düşmən" obrazı yaratmağa, erməni lobbisi ilə qeyri-şəffaf əlaqələr çərçivəsində dövlətimizə qarşı hüquqi-etik normalarla uzlaşmayan fəaliyyətlər həyata keçirməyə üstünlük verirlər.

Azərbaycan xalqı hər zaman Fransa xalqını özünə dost hesab edib və bundan sonra da edəcək. Dövlətimiz müstəqillik tarixi boyunca Fransa Respublikası ilə dostluğa, əməkdaşlığa və qarşılıqlı hörmətə əsaslanan münasibətlər qurmağa hazır olduğunu hər zaman bəyan edib.

Fransa cəmiyyəti bilməlidir ki, öz hökumətinin bu cür qeyri-dost fəaliyyətləri, xarici siyasətdəki hərəkətləri Fransaya siyasi və iqtisadi dividendlər gətirmək yerinə, onun beynəlxalq imicini ləkələyərək daha da korlayır".

# İslam İnkişaf Bankı Qrupunun 51-ci İllik Toplantıları çərçivəsində HELF Forum və AZHAB Forum keçirilib

İslam İnkişaf Bankı (İİB) Qrupunun 51-ci İllik Toplantıları çərçivəsində İİB-nin Halal İqtisadiyyat Liderlik Forumu (HELF) və Azərbaycan Halal Biznes Forumu 2026 (AZHAB Forum) birgə təşkil olunub.

AZƏRTAC xəbər verir ki, "Davamlı regional inteqrasiya üçün halal iqtisadiyyat" mövzusuna həsr olunmuş HELF/AZHAB Forumu İİB Qrupunun İllik Toplantılarının tərkib hissəsi olan Özəl Sektor Forumu (PSF 2026) çərçivəsində təşkil edilib.

Forum Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), İİB-nin Kuala Lumpur Mükəmməllik Mərkəzi (KLCoE), Malayziyanın Halal İnkişaf Korporasiyası (HDC) və Səudiyyə Ərəbistanı Krallığının Halal Məhsulların İnkişafı Şirkətinin (HPDC) əməkdaşlığı, "Paşa Holdinq"in maliyyə dəstəyi ilə təşkil olunub.

Tədbirin məqsədi daha dayanıqlı, davamlı və qlobal əlaqələrə malik halal ekosistemlərin inkişafına töhfə verəcək praktiki tərəfdaşlıqların, investisiya imkanlarının, texniki əməkdaşlıq təşəbbüslərinin və bilik mübadiləsinin təşviq edilməsidir.

Forumda İİB Qrupuna üzv və digər ölkələrdən yüksəksəviyyəli dövlət rəsmiləri, siyasətçilər, sənaye liderləri, maliyyə institutları, inkişaf təşkilatları, investorlar və özəl sektor nümayəndələri iştirak ediblər.

Tədbirin açılış mərasimində çıxış edən İİB-nin Kuala Lumpur Mükəmməllik Mərkəzinin (KLCoE) rəhbəri Samer Elesavi və KOBİA-nın İdarə Heyətinin və AZHAB Forumunun sədri Orxan Məmmədov dayanıqlı və inklüziv iqtisadi inkişafda özəl sektorun, xüsusilə KOB-ların rolu, halal iqtisadiyyatın qlobal dəyər zəncirlərində artan payı və bu sahədə əməkdaşlıq imkanları barədə fikirlərini bölüşüblər.

Forum panel müzakirələrlə öz işini davam etdirib. "Strateji liderlik dialoqu: Etik halal biznes modelləri və risklərə dayanıqlı maliyyələşmə" mövzusundakı panel iclasda İslam Əməkdaşlıq Təşkilatının Statistika, İqtisadi və Sosial Tədqiqatlar və Təlim Mərkəzinin (SESRIC) Baş direktoru Zehra Zümrüt Selçuk, Səudiyyə Ərəbistanının Halal Məhsulların İnkişafı Şirkətinin Baş investisiya direktoru Ameen Alsaadi, Malayziyanın Halal İnkişaf Korporasiyasının sədri Hadi Hamzah və İslam Ticarət və Maliyyə Korporasiyasının Baş əməliyyat direktoru Nazeem Noordali tərəfindən halal ekosistemin maliyyələşdirilməsi, tənzimləmə, sertifikatlaşdırma və bazara çıxış mexanizmləri üzrə institusional modellərin gücləndirilməsi, eləcə də qlobal halal bazarlarda etimadın və innovasiyanın artırılması istiqamətində fikirlər səsləndirilib.




"Halal sənayesinin liderləri: İnnovasiya, etimad və qlobal artım" mövzusunda panel iclasda "Pladis Group" şirkətinin icraçı direktoru Ali Masraie, "OneAgrix" şirkətinin baş icraçı direktoru Diana Sabrain, Malayziyanın Xarici Ticarətin İnkişafı Korporasiyasının (MATRADE) direktoru Raja Badulnizam və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) sektor müdiri Amira El Fadil halal sənayesində rəqabət qabiliyyətinin gücləndirilməsi, rəqəmsallaşma, məhsul innovasiyası, keyfiyyət təminatı və sertifikatlaşdırma standartlarının inkişafı, beynəlxalq bazarlara çıxış imkanlarının genişləndirilməsi barədə fikirlərini bölüşüblər.

Forumun "Halal KOB-lar və davamlılıq: Yaşıl keçid, halal dəyər zəncirləri və inklüziv inkişaf" mövzusunda paneli KOB-ların dayanıqlı inkişaf və "yaşıl iqtisadiyyat"a inteqrasiyasına həsr olunub. "ACWA" şirkətinin Azərbaycan və Türkiyə üzrə baş direktoru Selim Güven, Qazaxıstanın "Damu" Sahibkarlığın İnkişafı Fondunun sədr müavini Murat Bapayev, KOBİA-nın İdarə Heyəti sədrinin müşaviri Elnur Əliyev və Nigeriya Halal İqtisadiyyatı Strategiyasının İcra Komitəsinin həmsədri İbrahim Hassan Hadejianın iştirakı ilə paneldə KOB-ların maliyyəyə çıxış imkanları, "yaşıl maliyyələşmə", ESG və dayanıqlılıq tələbləri, eləcə də regional halal dəyər zəncirlərinə inteqrasiya məsələləri müzakirə edilib.

"Halal sənaye zonaları: Qabaqcıl halal ekosistemlərin inkişafı" panel iclasında Səudiyyə Ərəbistanı Sənaye Şəhərləri və Texnologiya Zonaları İdarəsinin (MODON) icraçı vitse-prezidenti Mamdooh Al-Drees, Nigeriyanın "Dar Al Halal Group"un baş icraçı direktoru Muhammadu Dikko Ladan, Malayziyanın "ENSTEK" Halal Parkının operatoru olan "Tabung Haji Properties" şirkətinin icraçı direktoru Mohd İsmadi İshak halal sənaye zonalarının inkişaf modelləri, beynəlxalq təcrübələr və praktiki yanaşmalar, həmçinin inteqrasiya olunmuş halal ekosistemlərin qurulması məsələləri barədə fikir və təcrübələrini bölüşüblər.

HELF/AZHAB Forumu çərçivəsində "Dayanıqlı regional inteqrasiya üçün halal iqtisadiyyat" mövzusunda Nazirlər Sessiyası keçirilib. Tədbirdə Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov, Nigeriya Federativ Respublikasının büdcə və iqtisadi planlaşdırma naziri Abubakar Atiku Bagudu, Azərbaycan Respublikasının maliyyə nazirinin birinci müavini Anar Kərimov, İİB-nin ICIEC şirkətinin baş icraçı direktoru və ICD-nin əvəzedici baş icraçı direktoru Khalid Khalafallanın iştirakı ilə halal iqtisadi inteqrasiyanın inkişafı, siyasət prioritetləri, regional əməkdaşlıq imkanları və strateji tərəfdaşlıqların gücləndirilməsi məsələləri müzakirə olunub. Tədbirin məqsədi İİB qrupuna üzv ölkələr arasında koordinasiyalı siyasət yanaşmaları və institusional əməkdaşlığın gücləndirilməsi vasitəsilə halal iqtisadiyyat inteqrasiyasını, ticarət əlaqələrini və dayanıqlı inkişafı təşviq etməkdir.

Tədbir çərçivəsində həmçinin HELF/AZHAB Forumunun təşkilinə göstərdikləri dəstək üçün könüllülərə sertifikatlar təqdim edilib.



# Azərbaycanın inkişafını hədəfləyən siyasət - Prezident İlham Əliyevin yüksəliş modeli

**XXI əsrin üçüncü onilliyi dünya tarixində mürəkkəb geosiyasi proseslər, iqtisadi transformasiyalar, texnoloji inqilablar və yeni təhlükəsizlik çağırışları ilə xarakterizə olunur. Belə bir dövrdə dövlətlərin uğuru onların rəhbərlərinin strateji baxışından, milli maraqları qorumaq qabiliyyətindən və dəyişən şəraitə uyğun inkişaf modelini formalaşdırmaq bacarığından asılıdır. Azərbaycan da Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra müstəqillik illərində məhz bu keyfiyyətlər sayəsində dinamik inkişaf yolu keçərək regionun aparıcı dövlətlərindən birinə çevrilib.**

Ulu Öndərin strateji inkişaf kursunu əzmlə davam etdirərək Azərbaycanı tarixinin ən qüdrətli mərhələsinə yetirmiş Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas mahiyyəti güclü dövlət, dayanıqlı iqtisadiyyat, sosial rifah, milli təhlükəsizlik və getdikcə yüksələn beynəlxalq nüfuzun vəhdətindən ibarətdir. Həmin siyasət nəticəsində Azərbaycan yalnız iqtisadi göstəricilərini yaxşılaşdıran ölkə deyil, eyni zamanda regional və qlobal proseslərə təsir göstərən, öz milli maraqlarını qətiyyətlə müdafiə edən müstəqil güc mərkəzi kimi formalaşıb.

Bu baxımdan Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Şuşada keçirilən "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda beynəlxalq konfrans həm zaman, həm də daşıdığı geosiyasi mesajlarla mühüm hadisədir. Milli Qurtuluş Günü və Şuşa Bəyannaməsinin imzalanmasının ildönümü ilə eyni vaxta təsadüf edən bu mötəbər tədbirə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ünvanladığı məktubda regionda dayanıqlı sülhün və etimad mühitinin yaradılması əsas xətt kimi vurğulanıb və rəsmi Bakının bu prinsipial mövqeyi bir daha bəyan edilib. Məktubda oxuyuruq: "Ölkəmiz regionda davamlı sülh və sabitlik mühitinin yaradılması və qorunması istiqamətində qətiyyətli siyasət həyata keçirməkdədir. Ötən il Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında Birgə Bəyannamənin imzalanması, sülh sazişinin paraflanması Cənubi Qafqazda vəziyyəti tamamilə dəyişmişdir. Bu xüsusda reallaşmaqda olan Zəngəzur dəhlizi həm Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan bölgəsini birləşdirəcək, həm də Orta dəhlizin əsas seqmentlərindən birinə çevriləcəkdir".

Bu gün ölkəmizin irəli sürdüyü sülh təşəbbüsləri dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə söykənir. Məktubda dost və qardaş ölkələrlə, xüsusən türk dünyası ilə birgə atılan addımların bu coğrafiyanı XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzinə çevirdiyi qeyd olunub. "Ədalətli dünya nizamının və bəşəriyyət üçün təhlükəsiz həyat şəraitinin yaradılmasının tərəfdarı olan Azərbaycan təkcə regionun deyil, eləcə də bütövlükdə Avrasiyanın etibarlı əməkdaşlıq məkanına çevrilməsi istiqamətində çalışmaqdadır. Dost və qardaş ölkələrlə, xüsusən türk dünyası ilə birlikdə atılan qətiyyətli addımlar beynəlxalq əməkdaşlıq baxımından xüsusi əhəmiyyət daşıyır və ailəmiz olan türk dünyasını XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevirir".

Partiya diplomatiyasının roluna gəldikdə isə xüsusi vurğulanıb ki, fərqli siyasi maraqları təmsil edən partiyaların konstruktiv dialoqu və milli maraqlar çərçivəsində birgə fəaliyyəti qarşılıqlı etimadın güclənməsinə xidmət edir. Konfrans işini 3 əsas panel sessiyası üzrə davam etdirib: qlobal çağırışlar fonunda partiya diplomatiyasının rolu, dayanıqlı sülhün iqtisadi əsasları, şəhərsalma sahəsində müasir çağırışlar.

Tədbirdə müxtəlif ölkələrdən gələn diplomatlar, siyasətçilər və parlament üzvləri Cənubi Qafqazda uzunmüddətli sabitlik və iqtisadi inteqrasiya imkanlarını geniş müzakirə ediblər.

## İqtisadi sabitlik, sosial rifah

Azərbaycanın qazandığı uğurların təməlində uzunmüddətli strategiya, ardıcıl islahatlar və gələcəyə hesablanmış inkişaf modeli dayanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət müasir Azərbaycanın inkişaf salnaməsini təşkil edir. Dövlət başçısının dəfələrlə vurğuladığı kimi, güclü iqtisadiyyat güclü dövlətin əsas şərtidir. Son illər ölkədə aparılan iqtisadi siyasət məhz bu prinsip üzərində qurulub.

Azərbaycan iqtisadiyyatı enerji resurslarından əldə olunan gəlirlərin səmərəli idarə olunması hesabına mühüm nailiyyətlər qazanıb. Dövlət Neft Fondunun vəsaitləri strateji məqsədlərə yönəldilib, iri infrastruktur layihələrinin maliyyələşdirilməsi təmin edilib, gələcək nəsillər üçün mühüm maliyyə ehtiyatları toplanıb. Hazırda ölkəmizin valyuta ehtiyatları xarici dövlət borcunu dəfələrlə üstələyir. Bu isə Azərbaycanın iqtisadi təhlükəsizliyinin mühüm təminatlarındandır. Qlobal iqtisadi böhranlar, pandemiya və geosiyasi gərginliklər fonunda belə ölkədə iqtisadi sabitliyin qorunub saxlanılması həyata keçirilən siyasətin effektivliyini göstərir.

Qeyri-neft sektorunun inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biri olaraq qalır. Kənd təsərrüfatı, sənaye, turizm, nəqliyyat-logistika və informasiya texnologiyaları sahələrində həyata keçirilən layihələr iqtisadiyyatın şaxələndirilməsinə mühüm töhfə verir. Sənaye parkları və sənaye məhəllələrinin yaradılması ölkənin istehsal potensialını artırıb, minlərlə yeni iş yerinin açılmasına şərait yaradıb, "Made in Azerbaijan" brendinin təşviqi yerli məhsulların xarici bazarlara çıxış imkanlarını genişləndirib.

Azərbaycanın beynəlxalq nüfuzunun formalaşmasında enerji siyasəti daim xüsusi rol oynayıb. Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu enerji strategiyası Prezident İlham Əliyev tərəfindən yeni şəraitə uyğun uğurla davam etdirilməkdədir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələrinin davamı olaraq "Cənub qaz dəhlizi"nin reallaşdırılması Azərbaycanın enerji sahəsində strateji əhəmiyyətini daha da artırıb. Hazırda Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm tərəfdaşlardan biri kimi çıxış edir.

Neft-qaz siyasətinin tarixi nailiyyətlərinə rəğmən cənab İlham Əliyevin enerji siyasəti yalnız neft və qaz resursları ilə məhdudlaşmır. Dünyada "yaşıl keçid"in sürətləndiyi bir dövrdə Azərbaycan alternativ və bərpaolunan enerji sahəsinə böyük investisiyalar yatırır. Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsindən dərhal sonra Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" elan edilməsi bu siyasətin mühüm istiqamətlərindəndir.

Xəzər dənizinin külək enerjisi potensialından istifadə olunması, günəş və külək-elektrik stansiyalarının inşası Azərbaycanın gələcək enerji modelinin əsas elementlərini formalaşdırır. 2024-cü ildə Azərbaycanın COP29-a uğurla evsahibliyi etməsi isə ölkəmizin qlobal iqlim gündəliyində fəal iştirakının və bizə yüksək beynəlxalq etimadın mühüm göstəricisi oldu. Bu tədbir Azərbaycanın qlobal enerji və ekoloji transformasiyada oynadığı rolun təsdiqinə çevrildi.

## Milli inkişafın yeni mərhələsi

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin ən mühüm nəticəsi Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpasıdır. Uzun illər ərzində aparılan məqsədyönlü siyasət nəticəsində güclü iqtisadiyyat yaradıldı, müasir ordu formalaşdırıldı, beynəlxalq mövqelər möhkəmləndirildi. Bütün bunlar 2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi Zəfərin əldə olunmasına zəmin yaratdı.

Tarixi qələbəmiz nəticəsində torpaqlarımız işğaldan azad edildi. 2023-cü ilin sentyabrında həyata keçirilmiş lokal antiterror tədbirləri ilə Azərbaycanın bütün ərazisində konstitusiya quruluşu və dövlət suverenliyi tam təmin olundu. Bu möhtəşəm uğurlar həm də siyasi, diplomatik və iqtisadi gücün nəticəsi idi. Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərini öz gücü hesabına bərpa edən nadir dövlətlərdən biri kimi tarixə düşdü. Qarabağ Zəfəri Azərbaycanın beynəlxalq mövqelərini daha da gücləndirdi və yeni inkişaf mərhələsinin əsasını qoydu. Şuşada keçirilən "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusundakı beynəlxalq konfransda bu məsələlər xüsusi vurğulandı.

Bu gün işğaldan azad olunmuş ərazilərdə - Qarabağ və Şərqi Zəngəzurda davamlı şəkildə həyata keçirilən bərpa və yenidənqurma işləri miqyasına görə dünyanın ən böyük layihələrindən sayılır. İşğaldan azad edilmiş ərazilərimizdə müasir yaşayış məhəllələri yaradılır, yollar, tunellər, hava limanları, elektrik şəbəkələri və digər sosial obyektlər tikilir. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi Qarabağın gələcəyinin innovativ əsaslar üzərində qurulduğunu göstərir. Bu ərazilərdə yaradılan infrastruktur yalnız bugünkü ehtiyaclara deyil, gələcək onilliklərə hesablanmış inkişaf modelinə xidmət göstərir.

"Böyük qayıdış" proqramı çərçivəsində minlərlə keçmiş məcburi köçkün öz doğma torpaqlarına qayıdır. Bu proses həm humanitar ədalətin bərpası, həm də regional inkişafın təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

## Sosial dövlət konsepsiyasının uğurlu tətbiqi

Prezident İlham Əliyevin siyasətində iqtisadi inkişafın əsas məqsədi məhz insan rifahının yüksəldilməsidir. Son illər həyata keçirilən sosial islahatlar bu məqsədə xidmət edir. Əməkhaqları, pensiyalar, müavinətlər və sosial ödənişlər dəfələrlə artırılıb və bu artımlar davam edir. Bundan əlavə, şəhid ailələri, müharibə veteranları və qazilər üçün xüsusi sosial müdafiə proqramları həyata keçirilir. Mənzil təminatı layihələri, sosial evlərin tikintisi, əlilliyi olan şəxslərin sosial müdafiəsi istiqamətində görülən işlər dövlətin sosial məsuliyyət prinsipinə sadiqliyini nümayiş etdirir. Pandemiya dövründə və sonrakı mərhələdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün qəbul edilən qərarlar da sosial dövlət modelinin praktik təzahürüdür.

Müasir dövrdə ölkələrin əsas sərvəti təbii resurslar deyil, insan kapitalıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətdə təhsil, elm və gənclər siyasəti xüsusi yer tutur. Ölkənin müxtəlif bölgələrində indiyə qədər yüzlərlə məktəb tikilib və əsaslı təmir edilib. Təhsil infrastrukturunun yenilənməsi isə insan kapitalının inkişafına yönəlmiş mühüm investisiyadır.

Xaricdə təhsil proqramları minlərlə gəncin dünyanın nüfuzlu universitetlərində təhsil almasına şərait yaradıb. Rəqəmsal texnologiyaların təhsil sisteminə inteqrasiyası yeni nəsil bilik iqtisadiyyatının formalaşdırılmasına xidmət edir. Gənclərin dövlət idarəçiliyində irəli çəkilməsi, yeni kadrların formalaşdırılması, innovativ düşüncənin təşviqi, "Yüksəliş" müsabiqəsi kimi uğurlu layihələrlə gənc nəsil üçün yeni imkanların yaradılması Prezident İlham Əliyevin idarəetmə fəlsəfəsinin mühüm istiqamətlərindəndir.

## Rəqəmsal transformasiya, innovativ inkişaf və müasir logistika

Dünyada rəqəmsal texnologiyaların sürətlə inkişaf etdiyi bir dövrdə Azərbaycan da bu prosesdən kənarda qalmır. Elektron hökumət sisteminin genişləndirilməsi, dövlət xidmətlərinin rəqəmsallaşdırılması, innovasiya ekosisteminin formalaşdırılması ölkənin inkişaf strategiyasının mühüm tərkib hissəsinə çevrilib. Rəqəmsal idarəetmə mexanizmləri şəffaflığın artırılmasına, vətəndaş məmnunluğunun yüksəldilməsinə və idarəetmənin səmərəliliyinin gücləndirilməsinə xidmət edir.

Süni intellekt, data texnologiyaları və rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində həyata keçirilən proqramlar Azərbaycanın gələcəyin texnoloji çağırışlarına yüksək həssaslıqla hazırlaşdığını göstərir.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin ən mühüm hədəflərindən biri də ölkəmizin tranzit və logistika imkanlarının genişləndirilməsidir. Azərbaycan coğrafi mövqeyini iqtisadi üstünlüklərə çevirməyi bacarır. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən respublikamız Avrasiyanın mühüm logistika mərkəzlərindən biri kimi çıxış edir. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, yeni avtomobil magistralları və müasir nəqliyyat infrastrukturu bu strategiyanın mühüm elementləridir. Orta dəhlizin əhəmiyyətinin artması fonunda Azərbaycanın geoiqtisadi rolu daha da yüksəlməkdədir. Bu gün ölkəmiz enerji sektoru ilə yanaşı, nəqliyyat və logistika sahəsində də etibarlı tərəfdaş kimi tanınır.

## Müstəqil, çoxşaxəli xarici siyasət

Prezident İlham Əliyevin xarici siyasəti milli maraqların qorunmasına əsaslanan balanslı və praqmatik xətt kimi xarakterizə olunur. Azərbaycan həm türk dünyasının inteqrasiyasında fəal rol oynayır, həm Avropa ilə əməkdaşlığı inkişaf etdirir, həm də islam aləmində nüfuzlu mövqeyə malikdir. Ölkəmiz yaxın qonşuları, ayrı-ayrı dövlətlər, dünyanın aparıcı güc mərkəzləri ilə qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq prinsiplərinə əsaslanan münasibətlər qurur və bu münasibətləri qoruyur. Aparılan siyasət nəticəsində Azərbaycan regional problemlərin həllində söz sahibi olan dövlətə çevrilib.

Ölkəmiz qlobal miqyasda mədəniyyət diplomatiyasını da uğurla həyata keçirir. Bu istiqamətdə həyata keçirilən siyasətin öz məqsədlərinə çatmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri var. Mehriban xanım sosial-iqtisadi siyasətin icrasına mühüm töhfələri ilə yanaşı, mədəniyyətimizin inkişafına, milli-mənəvi dəyərlərimizin qorunması və təbliğinə, ölkəmizin mədəniyyət diplomatiyasına da böyük nailiyyətlər qazandırır.

Azərbaycanın inkişaf modelinin özünəməxsus xüsusiyyətlərindən biri də elə məhz milli-mənəvi dəyərlərlə müasir inkişafın uzlaşdırılmasıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət milli kimliyin qorunmasını, tarixi irsin yaşadılmasını və multikultural dəyərlərin təşviqini nəzərdə tutur. Azərbaycanda müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələrinin sülh, qarşılıqlı hörmət şəraitində yaşaması ölkənin beynəlxalq miqyasda nümunə göstərilən multikultural modelini formalaşdırıb. Mədəniyyət, incəsənət və humanitar sahələrdə həyata keçirilən layihələr ölkəmizin yumşaq güc imkanlarını da genişləndirir.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tarixinin ən güclü dövrlərindən birini yaşayır. Güclü iqtisadiyyat, modern ordu, müstəqil xarici siyasət, genişmiqyaslı sosial proqramlar və innovativ inkişaf strategiyası ölkənin uğurlarının əsasını təşkil edir.

Ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpa olunması dövlətimiz qarşısında yeni perspektivlər açır. Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, "yaşıl enerji" strategiyasının həyata keçirilməsi, rəqəmsal transformasiya və insan kapitalının gücləndirilməsi ölkənin gələcək inkişafının əsas istiqamətlərini müəyyənləşdirir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan inkişaf modeli göstərir ki, güclü siyasi iradə, strateji baxış və milli maraqlara söykənən siyasət dövlətlərin tərəqqisinin əsas şərtidir. Məhz bu siyasət nəticəsində Azərbaycan yalnız regionun deyil, daha geniş coğrafiyanın mühüm siyasi, iqtisadi və nəqliyyat mərkəzlərindən biri kimi öz inkişaf yolunu uğurla davam etdirərək daha böyük gələcəyə, daha geniş hədəflərə doğru inamla irəliləyir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

---

# "Azərbaycan-ABŞ münasibətləri qarşılıqlı maraqlara əsaslanan strateji tərəfdaşlıq xarakteri daşıyır"

ABŞ və Azərbaycan arasında əməkdaşlıq siyasi, iqtisadi, enerji, təhlükəsizlik, nəqliyyat və humanitar sahələri əhatə edir. İqtisadi sahədə ABŞ Azərbaycanın əsas investisiya tərəfdaşlarından biridir. Amerika şirkətləri xüsusilə enerji sektorunda Azərbaycanda iri layihələrin həyata keçirilməsində iştirak edirlər.



**Milli Məclisin deputatı Pərvanə VƏLİYEVA** qəzetimizə açıqlamasında deyib ki, iki ölkə arasında enerji təhlükəsizliyi, regional sabitlik, nəqliyyat-kommunikasiya əlaqələri və iqtisadi əməkdaşlıq istiqamətləri son dövrlər münasibətlərin əsas gündəmini təşkil edir: "ABŞ və Azərbaycan arasında münasibətlər qarşılıqlı maraqlara əsaslanan strateji tərəfdaşlıq xarakteri daşıyır və hər iki ölkə əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsində maraqlıdır. İlin əvvəlində ABŞ-nin Vitse-prezidenti Cey. Di. Vensin Azərbaycana səfəri Vaşinqtonun Bakı ilə əməkdaşlığı dərinləşdirmək niyyətini nümayiş etdirdi. ABŞ və Azərbaycan arasında imzalanmış xartiya üç əsas istiqamət üzrə uzunmüddətli əməkdaşlıq çərçivəsi yaradır: enerji və regional bağlantı, iqtisadi investisiyalar və təhlükəsizlik əməkdaşlığı. Xartiyanın həyata keçirilməsinin infrastrukturun inkişafını sürətləndirəcəyi, enerji yatırımlarını genişləndirəcəyi və qarşılıqlı faydalı iqtisadi əməkdaşlığı təşviq edəcəyi gözlənilir ki, bu da hər iki ölkənin vətəndaşları üçün yeni iş yerlərinin yaradılması və biznes imkanları vasitəsilə rifahın artmasına xidmət edəcək".

Deputat xatırladıb ki, Prezident İlham Əliyev həmçinin bu il enerji, nəqliyyat, texnologiya və qida sektorlarını təmsil edən ABŞ Ticarət Palatasının nümayəndə heyətini qəbul edib: "ABŞ və Azərbaycan arasında keçirilən görüşlərdə regional bağlantı məsələsi xüsusi yer tutub. Müzakirələr Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun fəaliyyətə hazırlanması istiqamətində növbəti addımları əhatə edib. Bu marşrut Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz, çoxmodallı bağlantı təmin edəcək. Layihənin məqsədi Avrasiya boyunca dəmir yollarını, avtomobil yollarını, boru kəmərlərini, elektrik ötürmə xətlərini və rəqəmsal infrastrukturu birləşdirərək Cənubi Qafqazı Trans-Xəzər Nəqliyyat Marşrutu (Orta dəhliz) boyunca ticarət və investisiya habına çevirməkdir".

P.Vəliyeva qeyd edib ki, gücləndirilmiş strateji tərəfdaşlıq Azərbaycanı ABŞ üçün əsas regional tərəfdaş səviyyəsinə yüksəldib. O əlavə edib ki, Prezident İlham Əliyevin Donald Trampa 80 illiyi münasibətilə ünvanladığı məktub da Bakı və Vaşinqton əlaqələrinin həm də iki ölkə liderinin şəxsi münasibətləri sayəsində inkişafından xəbər verir. Dövlətimizin başçısı Azərbaycan və ABŞ arasında strateji tərəfdaşlığın təşəkkülündə və dərinləşməsində D.Trampın əvəzsiz xidmətləri olduğunu qeyd edib. Eyni zamanda ötən ilin avqustunda Ağ Evdəki tarixi görüşü xatırladaraq bildirib ki, görüş zamanı əsası qoyulmuş Strateji Tərəfdaşlıq Xartiyasının 6 ay sonra ABŞ-nin Vitse-prezidenti Cey. Di. Vensin ölkəmizə səfəri çərçivəsində imzalanması Azərbaycan-ABŞ əlaqələrini keyfiyyətcə yeni pilləyə qaldırıb. "İki ölkə arasında həm prezidentlər səviyyəsində təmaslar, həm də rəsmi şəxslərin səfərləri Azərbaycan və Amerika münasibətlərinin yeni mərhələdə yüksələn xətlə inkişaf etdiyini bir daha göstərir", - deyə P.Vəliyeva bildirib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

---

*Şaxlo ABİCANOVA:*

# "Orta dəhliz beynəlxalq logistikanın əsas istiqamətlərindən birinə çevrilib"

"Orta dəhliz (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) bu gün regional ticarətin və beynəlxalq yükdaşımaların inkişafında strateji rol oynayır".

Bunu AZƏRTAC-a "Women in TLP" platformasının Özbəkistan üzrə direktoru və "Hegelmann Uzbekistan" MMC-nin baş direktoru Şaxlo Abicanova deyib. Onun sözlərinə görə, bu marşrut əvvəllər də mövcud olub, lakin son illərdə dünyadakı geosiyasi dəyişikliklər və logistika zəncirlərinin şaxələndirilməsinə yaranan ehtiyac fonunda əhəmiyyəti xeyli artıb.

"Orta dəhliz nəqliyyat sahəsində fəaliyyət göstərənlərə həmişə yaxşı məlum olub. Lakin bu gün iqtisadi səmərəliliyi və sabitliyi sayəsində ona tələbat maksimum səviyyəyə çatıb. Ənənəvi marşrutların dəyişdiyi indiki şəraitdə məhz bu istiqamət beynəlxalq yükdaşımaların əsas yollarından birinə çevrilir", - deyə Abicanova bildirib. O vurğulayıb ki, marşrutun inkişafı dəhliz boyunca yerləşən dövlətlər arasında sıx əməkdaşlıq sayəsində mümkün olub. Onun fikrincə, bu prosesdə hökumətlərarası razılaşmalar, logistika şirkətləri arasında tərəfdaşlıq əlaqələrinin inkişafı və biznesin fəal iştirakı mühüm rol oynayıb.

"Orta dəhliz yalnız nəqliyyat infrastrukturu deyil. Bu, hökumətləri, beynəlxalq təşkilatları, özəl sektoru, nəqliyyat və ticarət şirkətlərini, eləcə də kiçik və orta sahibkarları bir araya gətirən geniş əməkdaşlıq sistemidir. Onun uğurlu inkişafı bu prosesdə iştirak edən bütün tərəflərin birgə fəaliyyətindən asılıdır", - deyə ölkə direktoru vurğulayıb.

Özbəkistanla Azərbaycan arasında əməkdaşlığın perspektivlərindən danışan Şaxlo Abicanova qeyd edib ki, hazırda məhz bu ölkələr Avrasiyanın müasir nəqliyyat arxitekturasının formalaşmasında mühüm rol oynayırlar. Onun fikrincə, Orta dəhliz çərçivəsində əməkdaşlığın daha da gücləndirilməsi yükdaşımaların həcmini artırmağa, ticarət əlaqələrini genişləndirməyə və marşrutun beynəlxalq bazarda rəqabət qabiliyyətini yüksəltməyə imkan verəcək.

"Bu gün əsas yük axınları getdikcə daha çox Orta dəhlizdən keçir. Bu isə onun beynəlxalq logistikanın əsas istiqamətlərindən birinə çevrildiyini təsdiqləyir", - deyə agentliyin həmsöhbəti fikrini yekunlaşdırıb.

# Rəqəmsal təhsil transformasiyası: *gələcəyin strateji istiqaməti*

**Azərbaycanda rəqəmsal iqtisadiyyata keçidin sürətləndirilməsi, müasir və dayanıqlı infrastrukturun qurulması, eləcə də 4-cü Sənaye İnqilabı texnologiyalarının tətbiqi dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyən olunub. Bu istiqamət birbaşa ölkə rəhbərliyinin diqqət mərkəzindədir. 2026-cı il fevralın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən və "Azərbaycanın yeni rəqəmsal arxitekturası" vahid fəaliyyət planına həsr olunan müşavirə ölkənin rəqəmsal gələcəyinin formalaşdırılması baxımından mühüm addım kimi qiymətləndirilir.**

Dövlət başçısı çıxışında vurğulayıb ki, süni intellekt, məlumat mərkəzləri və genişmiqyaslı rəqəmsallaşma qlobal inkişafın yeni mərhələsini müəyyən edir və bu proseslər bütün ölkələrin strateji yol xəritəsinə ciddi təsir göstərir. Hazırlanan fəaliyyət planı rəqəmsal transformasiyanın sürətləndirilməsi, süni intellektin geniş tətbiqi, innovasiya mühitinin gücləndirilməsi, eləcə də kibertəhlükəsizliyin təmin olunması kimi dörd əsas istiqaməti əhatə edir. Prezident qeyd edib ki, Azərbaycanın qarşısında duran əsas məqsəd vahid, təhlükəsiz və inteqrasiya olunmuş rəqəmsal ekosistemin qurulmasıdır. Müşavirədə dövlət idarəçiliyində süni intellekt texnologiyalarının tətbiqinin genişləndirilməsi məsələsinə xüsusi diqqət yetirilib.

2025-ci il martın 19-da Prezident İlham Əliyevin imzaladığı sərəncamla "Azərbaycan Respublikasının Süni İntellekt Strategiyası (2025-2028)" təsdiq edilib. Ölkədə rəqəmsal inkişafın yeni mərhələyə keçidini göstərən bu strateji sənəd süni intellekt texnologiyalarının iqtisadiyyatın müxtəlif sahələrində tətbiqinin genişləndirilməsini, innovasiya fəaliyyətinin təşviqini və rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılmasını prioritet istiqamətlər kimi müəyyən edir. Bununla yanaşı, Azərbaycanda Rəqəmsal İnkişaf Şurası yaradılıb və ona Azərbaycan Respublikasının Birinci vitse-prezidenti sədr təyin edilib. Beləliklə, bu proseslərin koordinasiyalı və sistemli şəkildə həyata keçirilməsi üçün mühüm zəmin formalaşdırılıb. Şuranın fəaliyyəti dövlət qurumları arasında əlaqələndirməni gücləndirməklə yanaşı, rəqəmsal transformasiyanın institusional əsaslarını daha da möhkəmləndirir. Bu təşəbbüslərin məntiqi davamı kimi 2026-cı il fevralın 11-də keçirilmiş müşavirə ölkənin inkişaf strategiyasında keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər.

Artıq rəqəmsallaşma yalnız texnoloji yenilənmə deyil, həm də iqtisadi gücün artırılması, idarəetmə mexanizmlərinin səmərəliliyinin yüksəldilməsi və ölkənin qlobal rəqabət mühitində mövqeyinin gücləndirilməsi baxımından əsas strateji amilə çevrilib. Bu kontekstdə rəqəmsal texnologiyaların tətbiqi dövlət idarəçiliyinin çevikliyini artırır, qərar qəbuletmə proseslərini sürətləndirir və resurslardan daha səmərəli istifadəni təmin edir. Qlobal miqyasda baş verən sürətli transformasiya ali təhsil müəssisələri qarşısında da yeni və daha mürəkkəb vəzifələr qoyur. Müasir əmək bazarının tələblərinə uyğun kadr hazırlığı, innovativ düşüncənin inkişafı və texnoloji bacarıqların gücləndirilməsi artıq universitetlərin əsas prioritetlərinə çevrilib. Bu baxımdan Azərbaycan Texnologiya Universiteti (ATU) rəqəmsal transformasiya proseslərini sürətləndirməyi strateji hədəf kimi müəyyənləşdirib. Universitet süni intellekt texnologiyalarının tədris proqramlarına inteqrasiyasını genişləndirməklə yanaşı, elmi-tədqiqat fəaliyyətində də bu sahəyə xüsusi önəm verir. Eyni zamanda informasiya təhlükəsizliyinin gücləndirilməsi, rəqəmsal infrastrukturun müasirləşdirilməsi və innovasiya ekosisteminin inkişafı ATU-nun fəaliyyətində prioritet istiqamətlər kimi çıxış edir. Bu yanaşma universitetin həm milli, həm də beynəlxalq səviyyədə rəqabət qabiliyyətini artırmağa xidmət edir. Bu çərçivədə ATU tərəfindən rəqəmsallaşma və süni intellekt sahəsində daxili institusional siyasət formalaşdırılıb. Belə ki, 2026-cı ilin əvvəlində universitetin Elmi Şurası tərəfindən "Rəqəmsallaşma və Süni İntellekt üzrə Siyasət" sənədi qəbul edilib. Bu sənəd universitetin bütün struktur bölmələrini, akademik və inzibati heyətini, eyni zamanda tələbələri əhatə etməklə, tədris, elmi-tədqiqat və idarəetmə fəaliyyətlərinin müasir tələblərə uyğun şəkildə yenilənməsini hədəfləyir.

Siyasət sənədində xüsusi vurğulanan məqamlardan biri süni intellekt texnologiyalarının tədris prosesinə sistemli və mərhələli şəkildə inteqrasiyasıdır. Bu yanaşma yalnız tədrisin məzmununun zənginləşdirilməsinə deyil, həm də öyrənmə prosesinin fərdiləşdirilməsinə, tələbələrin analitik və tənqidi düşünmə bacarıqlarının inkişafına xidmət edir. Eyni zamanda tədrisin keyfiyyətinin qiymətləndirilməsində müasir rəqəmsal alətlərdən istifadə olunması, imtahan və qiymətləndirmə mexanizmlərinin daha şəffaf və obyektiv qurulması nəzərdə tutulur. Bununla yanaşı, sənəddə elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi xüsusi yer tutur. Məlumatların toplanması, emalı və təhlili proseslərində qabaqcıl texnologiyaların tətbiqi tədqiqatların keyfiyyətini yüksəldəcək və nəticələrin daha praktik əhəmiyyət kəsb etməsinə imkan yaradacaqdır. Universitet bu istiqamətdə rəqəmsal platformaların və süni intellekt əsaslı alətlərin istifadəsini təşviq edir. Eyni zamanda bütün bu proseslərdə etik prinsiplərə və akademik dürüstlük normalarına ciddi riayət olunması əsas şərt kimi müəyyən edilib. Süni intellekt texnologiyalarının istifadəsində şəffaflıq, məsuliyyətlilik və məlumat təhlükəsizliyi prinsipləri prioritet hesab olunur. Bu yanaşma universitetdə sağlam akademik mühitin qorunmasına, həmçinin rəqəmsal transformasiyanın davamlı və etibarlı şəkildə həyata keçirilməsinə xidmət edir.

Rəqəmsallaşma və süni intelekt üzrə siyasət sənədində kibertəhlükəsizlik ayrıca və strateji prioritet kimi müəyyənləşdirilib. Bu çərçivədə universitetin daxili şəbəkə infrastrukturunun müasirləşdirilməsi, informasiya sistemlərinin etibarlı mühafizəsi, şəxsi məlumatların qorunması və mümkün kiberhücumlara qarşı qabaqlayıcı (preventiv) mexanizmlərin tətbiqi əsas istiqamətlər kimi çıxış edir. Eyni zamanda risklərin davamlı monitorinqi, təhlükəsizlik protokollarının yenilənməsi və istifadəçi səviyyəsində məlumat təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması da bu siyasətin ayrılmaz tərkib hissəsi kimi nəzərdə tutulur. Bu yanaşma universitetin rəqəmsal mühitində dayanıqlılığı və etibarlılığı təmin etməyə xidmət edir.

Sənəddə texnoloji infrastrukturun inkişafı ilə yanaşı, insan kapitalının gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. ATU əməkdaşların və tələbələrin rəqəmsal savadlılığının artırılmasını, süni intellekt və əlaqəli sahələr üzrə ixtisaslaşmış kadrların hazırlanmasını strateji hədəf kimi müəyyənləşdirir. Bu məqsədlə tədris proqramlarının əmək bazarının müasir tələblərinə uyğun şəkildə yenilənməsi, praktiki bacarıqların inkişafına yönəlmiş yanaşmaların tətbiqi və ömürboyu təhsil prinsiplərinin təşviqi prioritet istiqamətlər sırasında yer alır.

Qarşıya qoyulan hədəflərə nail olmaq üçün universitet yerli və beynəlxalq tərəfdaşlarla əməkdaşlığın genişləndirilməsini vacib hesab edir. Bu əməkdaşlıqlar ali təhsil müəssisələri, texnoloji şirkətlər, tədqiqat institutları və dövlət qurumları ilə birgə layihələrin həyata keçirilməsinə, bilik və təcrübə mübadiləsinə şərait yaradır. Bununla yanaşı, idarəetmə



proseslərinin rəqəmsal platformalar üzərindən optimallaşdırılması, sənəd dövriyyəsinin tam elektronlaşdırılması və elektron tədris resurslarının inkişafı da siyasətin əsas istiqamətlərindəndir. Ümumiyyətlə, bu cür strateji siyasət sənədlərinin hazırlanması və tətbiqi ali təhsil müəssisələrinin rəqəmsal transformasiyasını sürətləndirməklə yanaşı, onların həm milli, həm də beynəlxalq səviyyədə rəqabət qabiliyyətinin artırılmasında mühüm rol oynayır. Günümüzdə ali təhsil müəssisələrinin rəqabət qabiliyyəti artıq yalnız akademik göstəricilərlə deyil, eyni zamanda rəqəmsal texnologiyaların tətbiq səviyyəsi və bu texnologiyaların tədris prosesinə nə dərəcədə effektiv inteqrasiya olunması ilə müəyyən edilir. Bu baxımdan ATU-da tətbiq olunan Tədrisin İdarəetmə Sisteminin (LMS) və İmtahan Portalı mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda tezliklə istifadəyə veriləcək Elektron Sənəd Dövriyyəsi Sisteminin (ESD) tətbiqi universitetin prioritet hədəflərindən biri kimi çıxış edir. Xüsusilə LMS platforması tədris prosesinin rəqəmsallaşdırılmasında mərkəzi rol oynayır və qarşılıqlı müəllim-tələbə əlaqəsini daha çevik və səmərəli edir. Bu sistem vasitəsilə müəllimlər dərs materiallarını (mühazirə mətnləri, təqdimatlar, əlavə resurslar) elektron formada paylaşa, tapşırıqlar və layihələr təqdim edə, həmçinin qiymətləndirməni onlayn şəkildə həyata keçirə bilirlər. Tələbələr isə istənilən vaxt istənilən məkandan bu resurslara çıxış əldə etməklə öyrənmə prosesini daha fərdi və çevik şəkildə idarə edə bilirlər.

LMS-in ən mühüm üstünlüklərindən biri də onun tədris prosesini yalnız məlumat ötürülməsi ilə məhdudlaşdırmaması, eyni zamanda interaktiv öyrənmə mühitini formalaşdırmasıdır. Mühazirələrin videoformatda yerləşdirilməsi, canlı və ya qeydə alınmış onlayn dərslərin təşkili, forumlar və müzakirə bölmələri vasitəsilə tələbələrin fəal iştirakının təşviqi distant və hibrid təhsil modellərinin effektiv tətbiqinə geniş imkan yaradır. Bu isə xüsusilə müasir dövrdə çevik və davamlı təhsil sisteminin qurulması baxımından böyük əhəmiyyət daşıyır. Bundan əlavə, LMS platforması analitik imkanları ilə də seçilir. Sistem tələbələrin davamiyyətini, tapşırıqların yerinə yetirilmə səviyyəsini və ümumi akademik fəallığını izləməyə, əldə olunan məlumatlar əsasında onların inkişaf dinamikasını təhlil etməyə şərait yaradır. Bu məlumatlar müəllimlərə daha əsaslandırılmış qərarlar qəbul etməyə, tədris metodlarını təkmilləşdirməyə və fərdi yanaşmanı gücləndirməyə imkan verir. Əgər bir cümlə ilə ifadə etsək, deyə bilərik ki, LMS yalnız texnoloji alət deyil, həm də tədrisin keyfiyyətinin yüksəldilməsinə və öyrənmə nəticələrinin optimallaşdırılmasına xidmət edən strateji platformadır.

Universitetdə cari ilin yaz imtahan sessiyasından başlayaraq imtahan prosesində süni intellekt əsaslı innovativ həllərin tətbiqinə start verilib. Bu çərçivədə tədris və qiymətləndirmə proseslərinin rəqəmsallaşdırılması istiqamətində növbəti addım olaraq innovativ süni intellekt əsaslı İmtahan Portalı pilot layihə kimi istifadəyə verilib. Platforma iki əsas modul üzrə fəaliyyət göstərir: yazılı imtahan modulu və test imtahanı modulu. Yazılı imtahan modulu pilot mərhələ kimi Rəqəmsal texnologiyalar fakültəsinin I kurs tələbələri üçün tətbiq olunur və imtahanlar auditoriya şəraitində rəqəmsal platforma üzərindən həyata keçirilir; bu zaman bilet əsaslı cavabların süni intellekt vasitəsilə operativ qiymətləndirilməsi və nəticələrin dərhal təqdim olunması nəzərdə tutulur. Test imtahanı modulu isə bütün fakültələr üzrə tələbələrə açıq olmaqla, onların istənilən vaxt öz biliklərini onlayn şəkildə sınamasına imkan yaradır. Bu innovativ həll ATU-nun rəqəmsal transformasiya strategiyası çərçivəsində imtahan sisteminin modernləşdirilməsinə, qiymətləndirmə prosesində şəffaflığın və operativliyin artırılmasına xidmət edir.

ESD isə universitetdə inzibati idarəetmənin rəqəmsallaşdırılmasını təmin edən əsas mexanizmlərdən biri kimi çıxış edəcəkdir. Bu sistem vasitəsilə sənədlərin hazırlanması, qeydiyyatı, ötürülməsi və arxivləşdirilməsi prosesləri tam şəkildə elektron mühitə keçiriləcəkdir. Nəticədə rəsmi yazışmalar daha operativ həyata keçiriləcək - sənədlərin icra vəziyyətini real vaxt rejimində izləmək mümkün olacaq, eləcə də elektron imza vasitəsilə hüquqi qüvvəyə malik şəkildə təsdiqlənəcəkdir. Qeyd edim ki, bu yanaşma sənədlərin itirilməsi riskini minimuma endirməklə yanaşı, sənəd dövriyyəsində sürəti artırır, idarəetmə proseslərində şəffaflığı gücləndirir və məsuliyyət bölgüsünü daha aydın şəkildə müəyyənləşdirir.

Beləliklə, ESD-nin tətbiqi inzibati fəaliyyətlərin səmərəliliyini artırdığı kimi, tədris prosesində istifadə olunan rəqəmsal alətlərlə inteqrasiya üçün də əlverişli zəmin yaradır. Məhz bu nöqtədə LMS və ESD sistemlərinin, eləcə də İmtahan Portalının paralel və əlaqəli şəkildə tətbiqi xüsusi əhəmiyyət kəsb edir. ATU-da bu sistemlərin inteqrasiyası vahid rəqəmsal idarəetmə mühitinin formalaşmasına imkan verəcək, akademik və inzibati proseslər arasında əlaqəni daha da möhkəmləndirəcəkdir. Bu inteqrasiya nəticəsində məlumat mübadiləsi sürətlənir, tələbə məlumatlarının avtomatik emalı, akademik sənədlərin operativ hazırlanması və müxtəlif analitik hesabatların formalaşdırılması daha səmərəli şəkildə həyata keçirilir. Eyni zamanda qərar qəbuletmə prosesləri daha çevik və məlumatlara əsaslanan formada təşkil olunur. Bütün bunlar universitetin müasir çağırışlara uyğunlaşmasını təmin etməklə yanaşı, rəqəmsal transformasiyanın daha yüksək mərhələsi olan "ağıllı kampus" konsepsiyasına keçid üçün möhkəm əsas yaradır.

ATU 2025-ci ildə daxili şəbəkə infrastrukturunu əsaslı şəkildə yeniləməklə rəqəmsal transformasiya istiqamətində mühüm addım atıb. Aparılan kompleks texniki modernizasiya işləri nəticəsində universitetdə orta internet sürəti 300 Mb/s səviyyəsinə çatdırılıb. Bu göstərici yalnız texniki nailiyyət deyil, eyni zamanda tədris və elmi fəaliyyətin keyfiyyətinə birbaşa təsir edən strateji üstünlük kimi qiymətləndirilir. Yüksəksürətli və sabit internet bağlantısı tədris platformalarının fasiləsiz işləməsini, rəqəmsal kitabxana resurslarından effektiv istifadəni, eləcə də beynəlxalq elmi-tədqiqat və əməkdaşlıq layihələrinin daha çevik şəkildə həyata keçirilməsini təmin edir.

Bu infrastruktur yenilənməsinin məntiqi davamı olaraq universitet ərazisini tam əhatə edən pulsuz Wi-Fi şəbəkəsinin istifadəyə verilməsi rəqəmsal mühitin əlçatanlığını daha da genişləndirib. Qabaqcıl texnoloji həllər əsasında qurulan bu şəbəkə eyni anda təxminən 2 min tələbənin fasiləsiz və stabil internet xidmətindən yararlanmasına imkan yaradır. Nəticə etibarilə tələbələr yalnız auditoriyalarda deyil, kitabxana, idman kompleksi və açıq kampus ərazilərində də rəqəmsal resurslara sərbəst çıxış əldə edirlər. Bu yanaşma təhsil prosesinin məkan və zaman məhdudiyyətlərindən asılılığını azaldır, tələbələrin müstəqil öyrənmə imkanlarını genişləndirir və ümumilikdə universitetdə rəqəmsal təhsil mühitinin formalaşmasına mühüm töhfə verir.

ATU-da fəaliyyət göstərən İnnovasiya Mərkəzi universitetin rəqəmsal transformasiya strategiyasının mühüm tərkib hissəsi olmaqla yanaşı, tələbələrin yaradıcı potensialının inkişafına xidmət edən əsas platformalardan biridir. Bu mərkəz müasir çağırışlara uyğun olaraq yaradılıb və tələbələrin asudə vaxtlarının səmərəli təşkili, innovativ düşüncə tərzinin formalaşdırılması, həmçinin praktiki bilik və bacarıqlarının artırılması məqsədini daşıyır. Mərkəzin fəaliyyəti yalnız nəzəri biliklərin deyil, eyni zamanda tətbiqi yanaşmaların təşviqinə yönəlib və müxtəlif layihələr vasitəsilə tələbələri real texnoloji proseslərlə yaxından tanış edir.

Bu fəaliyyət istiqamətlərinin məntiqi davamı olaraq İnnovasiya Mərkəzi tərəfindən həyata keçirilən "Texnologiyanın sirləri" layihəsi xüsusi əhəmiyyət kəsb edir. Müasir dövrdə texnologiyadan istifadə edənlə onu dərindən anlayanlar arasında mövcud olan fərqi azaltmaq bu layihənin əsas məqsədidir. Layihə çərçivəsində mürəkkəb elmi-texnoloji anlayışlar sadə, anlaşıqlı formada təqdim olunur ki, bu da onların texnologiyaya yalnız istifadəçi kimi deyil, həm də yaradıcı yanaşmasını stimullaşdırır. Layihənin məzmunu sənaye inqilabları, süni intellekt, "yaşıl enerji" və digər aktual mövzuları əhatə edir və hər bir mövzu ardıcıl şəkildə - "haradan başlayıb, necə inkişaf edib və bu gün hansı mərhələdədir" məntiqi çərçivəsində izah olunur. Bu yanaşma tələbələrə texnologiyaların təkamülünü sistemli şəkildə dərk etməyə və gələcək inkişaf istiqamətlərini daha düzgün qiymətləndirməyə imkan yaradır. Eyni zamanda layihə çərçivəsində hazırlanan videomaterialların yaradılmasında müasir süni intellekt texnologiyalarından istifadə edilir. Bununla belə, əsas prinsip qorunur: texnologiya yalnız bir alət rolunu oynayır, yaradıcılıq, məzmun seçimi və yekun qərarlar isə insan faktoruna əsaslanır. Bu balans həm texnoloji imkanlardan səmərəli istifadəni təmin edir, həm də tələbələrdə məsuliyyətli və etik yanaşmanı formalaşdırır.

ATU-da həyata keçirilən mühüm layihələrdən biri də süni intellekt əsaslı rəqəmsal akademik bələdçi sistemidir (ATU-Bot). Bu təşəbbüs universitetin rəqəmsal transformasiya strategiyasının praktik nəticəsi kimi çıxış edir və tələbələrə yönəlik xidmətlərin keyfiyyətcə yeni mərhələyə keçidini təmin edir. ATU-Bot universitetin rəsmi veb saytına inteqrasiya olunmuş süni intellekt əsaslı həll kimi tələbələrin gündəlik akademik həyatında qarşılaşdıqları suallara operativ cavab vermək məqsədilə hazırlanıb. Onun əsas üstünlüklərindən biri fasiləsiz və növbəsiz fəaliyyət göstərməsidir. Belə ki, tələbələr həftənin istənilən günü, günün istənilən saatında sistemə müraciət edərək dərhal cavab əldə edə bilirlər. Bu xüsusiyyət xüsusilə imtahan sessiyaları dövründə və iş saatlarından kənar vaxtlarda informasiya əlçatanlığını əhəmiyyətli dərəcədə artırır. Eyni zamanda ATU-Bot, sadəcə, məlumat təqdim edən platforma deyil, funksional baxımdan rəqəmsal akademik məsləhətçi rolunu yerinə yetirir. Tələbələr dərs kreditləri, kredit limitləri, fənn seçimi, qeydiyyat prosedurları, dərs cədvəlləri və digər akademik məsələlərlə bağlı dəqiq və strukturlaşdırılmış məlumat ala bilirlər. Bu isə onların akademik proseslərdə daha çevik qərarlar qəbul etməsinə və vaxtlarını daha səmərəli idarə etməsinə imkan yaradır. Belə bir sistemin tətbiqi universitetdə idarəetmə və xidmət mexanizmlərinin optimallaşdırılmasına da töhfə verir. Bir tərəfdən inzibati heyətin üzərinə düşən informasiya yükü azalır, digər tərəfdən isə tələbə məmnuniyyəti yüksəlir. Nəticə etibarilə ATU-Bot kimi rəqəmsal həllər universitetin müasir texnoloji çağırışlara uyğunlaşmasını təmin etməklə yanaşı, daha çevik, əlçatan və tələbəyönümlü təhsil mühitinin formalaşdırılmasına xidmət edir.

İnnovasiya Mərkəzinin təşəbbüsləri çərçivəsində həyata keçirilən layihələrdən biri də ATU-nun gənc tədqiqatçı və tələbələrindən ibarət komandasının tam yerli imkanlarla hazırladığı süni intellekt əsaslı "ağıllı elektrik avtomobili" - "ATU-Car" layihəsidir. Bu layihə "Elm və texnologiyaların müasir trendləri" adlı Respublika Elmi-Praktik Konfransı çərçivəsində ictimaiyyətə təqdim olunaraq universitetin innovasiya potensialını nümayiş etdirib. "ATU-Car" yalnız texnoloji prototip deyil, eyni zamanda tətbiqi mühəndislik və rəqəmsal həllərin inteqrasiyasının real nümunəsidir. Avtomobilin texniki xüsusiyyətlərinə günəş panelləri ilə işləyən enerji sistemi, xüsusi hazırlanmış batareya texnologiyası, GPS naviqasiya, səs komandaları ilə idarəetmə və sıfırdan qurulmuş idarəetmə sistemi daxildir. Eyni zamanda nəqliyyat vasitəsinin 120 kiloqrama qədər yükü hərəkətə gətirmək qabiliyyəti onun praktik istifadə imkanlarını da ortaya qoyur. Bu layihə tələbələrin yalnız nəzəri biliklərlə kifayətlənmədiyini, texnologiyanı yaradan və inkişaf etdirən aktiv iştirakçılara çevrildiyini aydın şəkildə göstərir.

Bu cür layihələrin həyata keçirilməsi ilə yanaşı, İnnovasiya Mərkəzi tələbələrin peşəkar və texnoloji inkişafını dəstəkləmək məqsədilə davamlı təlim və tədbirlər təşkil edir. Xüsusilə süni intellekt sahəsində keçirilən seminarlar və praktiki məşğələlər iştirakçılara bu texnologiyaların əsas prinsiplərini, real tətbiq sahələrini və gələcək karyera perspektivlərini daha dərindən mənimsəməyə imkan yaradır. Bu tədbirlərin mütəmadi təşkili universitetdə innovativ düşüncə mühitinin formalaşmasına mühüm töhfə verir. Bununla paralel olaraq, kibertəhlükəsizlik üzrə keçirilən təlimlər də mərkəzin fəaliyyətində mühüm yer tutur. Rəqəmsal təhdidlərin sürətlə artdığı və mürəkkəbləşdiyi müasir dövrdə tələbələrin bu sahədə maarifləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu biliklər onların həm şəxsi məlumat təhlükəsizliyini təmin etməsinə, həm də gələcək peşə fəaliyyətində riskləri düzgün idarə etməsinə şərait yaradır. Ümumilikdə bu təşəbbüslər universitetin inkişaf strategiyasına uyğun olaraq, ölkədə texnologiya sahəsində ixtisaslı insan kapitalının formalaşdırılmasına xidmət edir və gənclərin innovasiyayönümlü fəaliyyətə cəlb olunmasını daha da gücləndirir.

Universitetdə İnnovasiya Mərkəzi, rəqəmsal platformalar və süni intellekt əsaslı layihələr vasitəsilə formalaşdırılan müasir təhsil ekosistemi təkcə tələbələr üçün deyil, həm də akademik və inzibati heyət üçün davamlı inkişaf imkanları yaradır. Bu yanaşma rəqəmsal transformasiyanın universitet daxilində sistemli şəkildə tətbiqini təmin etməklə yanaşı, insan kapitalının bilik və bacarıqlarının beynəlxalq standartlara uyğunlaşdırılmasını da zəruri edir. Məhz bu kontekstdə ATU əməkdaşları Təhsilin İnkişafı Fondu və 4-cü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin birgə təşəbbüsü ilə həyata keçirilən "Milli Proqram" çərçivəsində beynəlxalq "Coursera" təhsil platformasında fəal iştirak etmişlər. Bu proqram ölkədə rəqəmsal transformasiyanın sürətləndirilməsinə yönəlmiş strateji təşəbbüslərin mühüm tərkib hissəsi kimi çıxış edir və qlobal təhsil resurslarına çıxış imkanlarını genişləndirir. 2025-ci ilin oktyabr-noyabr aylarında həyata keçirilən intensiv təlim mərhələsi çərçivəsində ATU-nun 50 əməkdaşı proqramda uğurla iştirak edərək ümumilikdə 150-yə yaxın "Coursera" sertifikatı əldə edib. Bu göstərici universitetin rəqəmsal savadlılıq, peşəkar inkişaf və innovasiyayönümlü təlimlərə inteqrasiya səviyyəsinin yüksək olduğunu nümayiş etdirir. Qeyd edim ki, "Milli Proqram"ın əsas məqsədi ölkədə rəqəmsal iqtisadiyyata keçidi sürətləndirmək üçün 4-cü Sənaye İnqilabının əsas texnologiyaları - süni intellekt, böyük verilənlər (Big Data), kibertəhlükəsizlik, bulud hesablamaları və digər müasir istiqamətlər üzrə mütəxəssislərin bilik və bacarıqlarını beynəlxalq standartlara uyğunlaşdırmaqdır. Bu yanaşma yalnız fərdi kompetensiyaların inkişafına deyil, həm də ali təhsil müəssisələrinin qlobal rəqəmsal iqtisadiyyatla inteqrasiyasına xidmət edir. Eyni zamanda proqram əmək bazarında ixtisaslı kadr təminatının gücləndirilməsinə və akademik mühitin daha çevik, innovativ və beynəlxalq rəqabətə davamlı olmasına mühüm töhfə verir. Bu baxımdan "Milli Proqram" universitetlərin rəqəmsal transformasiya prosesində aktiv iştirakını təmin edən strateji platformalardan biri kimi çıxış edir.

Universitetdə həyata keçirilən genişmiqyaslı rəqəmsal transformasiya və əməkdaşların beynəlxalq təlim proqramlarında iştirakı bu sahədə bilik və bacarıqların davamlı şəkildə yenilənməsinə mühüm zəmin yaradır. Xüsusilə müxtəlif qlobal platformalar üzrə əldə olunan sertifikatlar və praktiki təcrübələr tədris prosesinin keyfiyyətinə birbaşa təsir göstərərək fakültə səviyyəsində innovativ yanaşmaların formalaşmasını sürətləndirir. Bu ümumi inkişaf tendensiyasının davamı olaraq, ATU-nun Avtomatika, telekommunikasiya və informatika fakültəsinin əməkdaşları İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin dəstəyi ilə təşkil olunan "Cisco Networking Academy" və "IBM SkillsBuild" platformaları üzrə beynəlxalq təlimləri uğurla tamamlayaraq müvafiq sertifikatlara layiq görülüblər. Fakültənin 15 müəllimi "Kibertəhlükəsizlik" və "Süni İntellektin Əsasları (AI Fundamentals)" mövzularında keçirilən intensiv kurslarda iştirak edərək proqramı müvəffəqiyyətlə başa vurub və "Cisco" və "IBM" kimi dünya miqyasında tanınan texnologiya şirkətlərinin beynəlxalq sertifikatlarını əldə edib. Bu sertifikatlar müasir texnologiyalar sahəsində peşəkar səriştənin etibarlı göstəricisi kimi qəbul olunur və akademik heyətin qlobal standartlara uyğun inkişafını təsdiqləyir. Proqram çərçivəsində iştirakçılar süni intellektin əsas konsepsiyaları - təbii dilin emalı (NLP), kompüter görməsi, maşın öyrənməsi, dərin öyrənmə, neyron şəbəkələr və çatbot texnologiyaları üzrə həm nəzəri biliklər, həm də praktiki bacarıqlar əldə ediblər. Bununla yanaşı, süni intellekt sistemlərinin etik aspektləri - ədalətlilik, şəffaflıq, məxfilik və izahlılıq prinsipləri üzrə də zəruri kompetensiyalar formalaşdırılıb. Təlimin yekun mərhələsində iştirakçılar "IBM Watson Studio" mühitində müstəqil maşın öyrənməsi layihələri həyata keçirərək əldə etdikləri bilikləri real tətbiq ssenarilərində sınaqdan keçiriblər ki, bu da onların praktiki hazırlıq səviyyəsini daha da gücləndirib.

Bu fəaliyyətlərin məntiqi davamı kimi, fakültə professor-müəllim heyəti cari tədris ili ərzində həm texnoloji təlimlərin təşkili, həm də onların icrasında fəal iştirak ediblər. Belə ki, onlar eyni zamanda həm təşkilatçı, həm də iştirakçı qismində çıxış edərək universitetin rəqəmsal transformasiya prosesinə çoxşaxəli töhfə veriblər. Nəticə etibarilə son bir il ərzində kibertəhlükəsizlik, süni intellekt, proqramlaşdırma dilləri, şəbəkə texnologiyaları və tətbiqi proqram təminatı üzrə ümumilikdə 30-dan artıq müxtəlif təlim və kurs təşkil edilib.

Universitetdə həyata keçirilən genişmiqyaslı təlim proqramları və beynəlxalq əməkdaşlıqlar rəqəmsal biliklərin müxtəlif istiqamətlər üzrə sistemli şəkildə inkişaf etdirilməsinə şərait yaradır. Bu proses həm süni intellekt və proqramlaşdırma sahəsində, həm də informasiya-kommunikasiya texnologiyalarının daha geniş spektrində davamlı bacarıq artımını təmin edir. Bu ümumi inkişaf çərçivəsində mühüm istiqamətlərindən biri kimi kibertəhlükəsizlik sahəsində atılan addımlar xüsusi əhəmiyyət daşıyır. Belə ki, BP-nin dəstəyi ilə regionda ilk Kibertəhlükəsizlik Mərkəzinin yaradılması bu sahədə innovativ yanaşmaların tətbiqi baxımından mühüm mərhələ hesab olunur. ATU nəzdində fəaliyyət göstərən bu mərkəz kibertəhlükəsizlik üzrə praktiki biliklərin artırılmasına və risklərin idarə olunması sahəsində müasir metodların öyrədilməsinə xidmət edir. Mərkəzin fəaliyyəti çərçivəsində "Qabaqcıl Kibertəhlükəsizlik Risklərinin İdarə Edilməsi" və "Təşkilatlar üçün ISO Təhlükəsizlik Standartları" mövzularında ixtisaslaşdırılmış təlimlər təşkil edilib ki, bu da iştirakçıların peşəkar hazırlıq səviyyəsini daha da gücləndirib.

Bununla yanaşı, süni intellekt istiqamətində həyata keçirilən təlimlər də proqramın əsas tərkib hissələrindən birini təşkil edir. "Generative AI for Everyone", "AI For Everyone" və "Tətbiqi Maşın Öyrənməsinə Giriş" kimi beynəlxalq səviyyədə tanınan kursların proqramlara daxil edilməsi bu sahədə müasir biliklərin geniş auditoriyaya çatdırılmasına mühüm töhfə verib. Bu kurslar iştirakçılara süni intellekt texnologiyalarının həm nəzəri əsaslarını, həm də praktik tətbiq imkanlarını dərindən mənimsəməyə şərait yaradır. Eyni zamanda informasiya-kommunikasiya texnologiyaları sahəsində keçirilən təlimlər daha geniş və çoxşaxəli xarakter alıb. Python və JavaScript proqramlaşdırma dilləri, veb proqramlaşdırma, 1C proqram təminatı, elektron jurnal sistemləri və əməliyyat sistemləri üzrə mütəmadi təlimlər təşkil edilib. Bununla yanaşı, mobil rabitə və şəbəkə texnologiyaları, o cümlədən IoT (Əşyaların İnterneti) mövzularını əhatə edən silsilə kurslar, GS1 sisteminin tətbiqi üzrə 22 saatlıq onlayn təlim və "Rəqəmsal Yaradıcılıq" proqramı da bu dövrün əsas fəaliyyət istiqamətləri sırasında yer alıb.

Bütün bu fəaliyyətlərin davamlılığını təmin etmək məqsədilə hər ayın son cümə günü mütəmadi olaraq təşkil olunan İKT-baza kompüter bilikləri təlimləri əməkdaşların rəqəmsal bacarıqlarının sistemli şəkildə artırılmasına xidmət edir. Əlbəttə ki, bu təlimlər kompleksi universitetdə fasiləsiz peşəkar inkişaf mühitinin formalaşmasına və rəqəmsal transformasiya prosesinin daha dayanıqlı şəkildə həyata keçirilməsinə imkan yaradır.

Qeyd etmək lazımdır ki, ATU-nun professor-müəllim heyəti yalnız bu təlimlərin təşkilatçısı rolunda çıxış etməklə kifayətlənməyib, eyni zamanda dinləyici qismində müxtəlif proqramlara fəal şəkildə qoşularaq öz peşəkar səriştələrini də davamlı olaraq inkişaf etdirib. Bu yanaşma universitetdə formalaşdırılan fasiləsiz öyrənmə mədəniyyətinin əsas prinsipləri ilə tam uzlaşır və əməkdaşların həm pedaqoji, həm də texnoloji bilik və bacarıqlarının sistemli şəkildə artırılmasına xidmət edir. Ümumiyyətlə, təlim prosesində ikili iştirak modeli - həm təşkilatçı, həm də iştirakçı kimi fəaliyyət göstərmək universitet daxilində bilik mübadiləsini gücləndirir, akademik heyətin innovativ yanaşmalara daha sürətli uyğunlaşmasını təmin edir və tədris keyfiyyətinə birbaşa müsbət təsir göstərir.

Universitetdə həyata keçirilən rəqəmsal transformasiya, innovasiya layihələri və beynəlxalq təlim proqramları elmi-tədqiqat fəaliyyətinin də bu istiqamətlərə uyğun şəkildə yenilənməsinə geniş imkanlar açır. Bu proses nəticəsində süni intellekt, rəqəmsal texnologiyalar və informasiya sistemləri artıq yalnız tətbiqi sahələr kimi deyil, həm də elmi araşdırmaların əsas istiqamətləri kimi formalaşır. Bu ümumi elmi inkişaf tendensiyasının davamı olaraq rəqəmsallaşma və süni intellekt mövzusu ATU-nun elmi fəaliyyətində xüsusi yer tutur. Belə ki, son üç il ərzində universitetdə keçirilən ölkə və beynəlxalq səviyyəli elmi konfranslar çərçivəsində xüsusi bölmələr təşkil olunaraq bu sahələr üzrə məruzələr dinlənilib, geniş elmi müzakirələr aparılıb. Ənənənin davamı kimi cari ilin 5-6 may tarixlərində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü illiyinə həsr olunmuş "Beşinci Sənaye İnqilabına doğru - universitetlərin rolu, çağırışlar və imkanlar" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib. Konfrans çərçivəsində ənənəvi elmi istiqamətlərlə yanaşı, süni intellekt, elektronika və informasiya texnologiyaları, eləcə də rəqəmsal iqtisadiyyat kimi aktual sahələri əhatə edən xüsusi bölmələr fəaliyyət göstərib. Bu yanaşma universitetin elmi fəaliyyətinin müasir qlobal tendensiyalarla uzlaşdığını göstərməklə yanaşı, rəqəmsal iqtisadiyyat və sənaye 4.0-5.0 (4.0 - avtomatlaşdırma və rəqəmsallaşma, 5.0 - insan və texnologiyanın əməkdaşlığı) keçidi kontekstində elmi tədqiqatların rolunu daha da gücləndirir.

Artıq ənənə halını almış "GreenTech" Yaşıl Texnologiyalar və Startap Müsabiqəsi ATU-nun təşkilatçılığı, Təhsilin İnkişafı Fondunun və Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi ilə bu il də uğurla həyata keçirilib. Müsabiqə BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində xüsusilə sənaye, innovasiya və infrastrukturun inkişafı, eləcə də iqlim dəyişikliyi ilə mübarizə və təmiz enerji texnologiyalarının təşviqi istiqamətlərinə töhfə verməyi hədəfləyir. Bu platforma gənc tədqiqatçılara öz ideyalarını real layihələrə çevirmək üçün əlverişli mühit yaratmaqla yanaşı, ekoloji problemlərin həllinə yönəlmiş innovativ yanaşmaların formalaşmasını da stimullaşdırır. Eyni zamanda tələbələrin yaradıcı potensialının üzə çıxarılması və startap mədəniyyətinin inkişafı baxımından mühüm rol oynayır.

Bu istiqamətdə atılan ardıcıl addımların davamı olaraq universitetin Elmi Şurası tərəfindən "Startapçı tələbə" təqaüdünün təsis edilməsi innovasiya ekosisteminin gücləndirilməsi baxımından mühüm qərar kimi qiymətləndirilir. Bu proqram yalnız akademik göstəriciləri yüksək olan tələbələri deyil, həm də ideya yaradan, layihə hazırlayan və təşəbbüskar yanaşma nümayiş etdirən gəncləri əhatə edir. Seçim prosesində tələbələrin real praktiki bacarıqları, layihə təcrübəsi və innovativ fəaliyyətləri əsas meyar kimi nəzərə alınır, xüsusilə tətbiqlər hazırlayan və ya texnoloji həllər üzərində çalışan tələbələrə üstünlük verilir.

Bütün təşəbbüslərin ümumi məqsədi nəzəri biliklərlə yanaşı, innovativ bacarıqları ön plana çıxarmaq, sənaye ilə universitet arasında əməkdaşlığı gücləndirmək və tələbələrin praktiki fəaliyyətə hazırlığını artırmaqdır. Bu baxımdan ATU İnnovasiya Mərkəzinin fəaliyyəti çərçivəsində tələbə ideyalarının layihəyə, layihələrin isə məhsul və startaplara çevrilməsini təmin edən inkubasiya mühitinin formalaşdırılması nəzərdə tutulur. Bu yanaşma universitetdə ideyadan biznesə keçid zəncirinin qurulmasına və innovativ düşüncənin davamlı inkişafına xidmət edir.

Rəqəmsal bələdçi sistemlərindən başlayaraq süni intellekt əsaslı ATU-Bot layihəsinə, "Startapçı tələbə" təqaüdündən "GreenTech" Yaşıl Texnologiyalar və Startap Müsabiqəsinə, eləcə də beynəlxalq elmi konfranslara qədər uzanan bu çoxşaxəli təşəbbüslər Azərbaycan Texnologiya Universitetinin fəaliyyətində təsadüfi və ayrı-ayrı layihələr deyil, əksinə, vahid və məqsədyönlü strateji xəttin tərkib hissəsi kimi çıxış edir. Bu xətt universitetin inkişaf fəlsəfəsini müəyyənləşdirir və onu ənənəvi təhsil modelindən çıxararaq rəqəmsal, innovativ və bilik əsaslı ekosistemə transformasiya edir. Bu yanaşmanın mərkəzində universiteti yalnız bilik ötürən bir təhsil müəssisəsi kimi deyil, eyni zamanda ideya yaradan, innovasiya istehsal edən və texnoloji həllər formalaşdıran bir mərkəz kimi inkişaf etdirmək dayanır. Rəqəmsal platformalar vasitəsilə tələbələrin akademik prosesə daha çevik çıxışı təmin olunur, startap təşəbbüsləri ilə onların ideyaları real layihələrə çevrilir, elmi konfranslar isə bu ideyaların beynəlxalq akademik mühitdə təqdim olunmasına imkan yaradır. Eyni zamanda "yaşıl texnologiyalar" və süni intellekt sahəsində həyata keçirilən layihələr universitetin qlobal çağırışlara cavab verən bir təhsil və tədqiqat mərkəzinə çevrildiyini göstərir. Bu proses yalnız texnoloji yeniliklərin tətbiqi ilə məhdudlaşmır, həm də tələbələrdə yaradıcı düşüncə, problem həlletmə bacarığı və təşəbbüskarlıq ruhunun formalaşdırılmasına xidmət edir.

*Nəticə etibarilə qeyd olunan bütün təşəbbüslər ATU-nun strateji inkişaf modelinin əsas mahiyyətini aydın şəkildə ortaya qoyur: müasir texnologiyalara açıq, innovasiyanı təşviq edən, tələbə mərkəzli yanaşmanı prioritet edən və beynəlxalq təhsil məkanında rəqabət qabiliyyətini davamlı olaraq gücləndirən universitet modelinin qurulması. Bu model isə universiteti təkcə milli deyil, həm də qlobal akademik və innovasiya mühitində aktiv iştirakçıya çevirir.*

**Yaşar ÖMƏROV,**
***Azərbaycan Texnologiya Universitetinin rektoru***

# Azərbaycan dünyanın əhəmiyyətli logistika mərkəzi kimi mövqeyini möhkəmləndirir

Dünyada baş verən son geosiyasi proseslər bir daha göstərdi ki, ticarət yolları qlobal səviyyədə strateji əhəmiyyət daşıyan mühüm amildir. Bu səbəbdən beynəlxalq ticarət marşrutlarına nəzarət uğrunda gərgin mübarizə gedir.

Hazırda dünyanın ciddi hərbi-siyasi gücləri tranzit ölkələri ilə əməkdaşlığa can atır. O üzdən Azərbaycan əhəmiyyətli tranzit ölkəsi kimi bir-biri ilə rəqabət aparan qüvvələrin diqqət mərkəzindədir. Çünki Prezident İlham Əliyevin apardığı logistika siyasəti bütün maraqlı tərəflərlə əməkdaşlıq etmək imkanı yaradır. Əlbəttə, burada ölkəmizin milli maraqları önə çıxır və təbii ki, bizim şərtlərə əməl edən tərəflər ölkəmizlə əməkdaşlığa açıqdır.

Son dövrlər Azərbaycanın mühüm logistika mərkəzinə çevrilməsi beynəlxalq aləmdə baş verən geosiyasi proseslərlə bağlıdır. Rusiya-Ukrayna müharibəsi qlobal logistikanın illərlə formalaşmış balansını pozduğundan bu marşrut təhlükəsizlik və etibarlılıq prizmasından səmərəliliyini itirib. Əvvəllər Çinlə Avropa arasında yük axınının əsas hissəsi Şimal marşrutu - Rusiya üzərindən daşınırdı. Rusiya-Ukrayna müharibəsindən sonra həmin xətt də sanksiyalar, siyasi risklər və qeyri-müəyyənlik səbəbindən cəlbediciliyini qoruya bilməyib. Eyni zamanda Yaxın Şərqdə baş verən hadisələr İran üzərindən yükdaşımaların dayanmasına səbəb



olub. Yaxın Şərqdə artan gərginlik, xüsusilə husilərin Qırmızı dəniz hövzəsində yaratdığı təhlükəsizlik riskləri Süveyş kanalı üzərindən keçən ənənəvi dəniz marşrutunda da ciddi risk yaradıb. Gəmilərə və tankerlərə hücumlar və sığorta xərclərinin artması bu marşrutun səmərəliliyini azaldıb. Digər tərəfdən Hörmüz boğazı ətrafında artan hərbi-siyasi gərginlik qlobal enerji və yük daşımalarının ən kritik "dar boğazları"ndan birini bu günlərəcən risk altında saxlayırdı.

Dünyada baş verən belə gərgin qlobal proseslər nəticəsində Orta dəhliz alternativ olmaqla yanaşı, getdikcə qlobal ticarətin strateji dayaqlarından birinə çevrilir. Çin, Mərkəzi Asiya, Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən bu marşrut dünya üçün xüsusi əhəmiyyət kəsb etməyə başlayıb. Orta dəhlizin artan əhəmiyyətini statistik rəqəmlər də göstərir. Qazaxıstan Nəqliyyat Nazirliyinin məlumatına görə, son 7 ildə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM) boyunca daşımaların həcmi 0,8 milyon tondan 4,5 milyon tona qədər yüksəlib. Son statistikaya görə, 2025-ci ildə sırf TBNM boyunca təxminən 77 min TEU daşınıb. Hədəf isə daha iddialıdır - 2029-cu ilə qədər konteyner daşımalarının 300 min TEU-ya çatdırılması planlaşdırılır.

"Azərbaycan Dəmir Yolları" (ADY) QSC-nin yaydığı məlumatda bildirilir ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı tarixində ilk dəfə illik konteyner aşırma həcmi 107 min TEU səviyyəsinə çatıb. Buraya TBNM ilə daşınan yüklərlə yanaşı, digər marşrutlar üzrə daşımalar daxildir.

Prezident İlham Əliyevin 25 fevral 2025-ci ildə imzaladığı fərman Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ADY-yə inteqrasiyasını təmin edib. Bu da yükaşırma proseslərinin sürətlənməsinə və logistik marşrutların optimallaşdırılmasına əlavə imkanlar yaradıb. Həmin fərman imzalandıqdan sonra Bakı Beynəlxalq Dəniz Ticarət Limanı regionun ən etibarlı logistik qovşaqlarından biri kimi mövqeyini daha da möhkəmləndirib. Görülən tədbirlər Azərbaycanın Şərqlə Qərb arasında əsas tranzit mərkəzlərdən birinə çevrilməsi prosesini sürətləndirir. Onu da qeyd edək ki, limanda tətbiq olunan yaşıl və rəqəmsal logistik həllər Orta dəhliz üzrə inteqrasiyanı dərinləşdirərək həm yük həcmlərinin artımına, həm də iqtisadiyyat üçün daha yüksək əlavə dəyərin formalaşmasına geniş imkanlar yaradır.

Liman 2018-ci ildə istifadəyə verilərkən onun illik yükaşırma gücü 15 milyon ton və 100 min TEU konteyner səviyyəsində nəzərdə tutulmuşdur. Lakin ADY-yə inteqrasiyadan sonra həyata keçirilən operativ layihələr nəticəsində bu potensial qısa müddətdə 150 min TEU ekvivalentinə çatdırılıb. Paralel olaraq limana əlavə texnika cəlb olunub, əməliyyat prosesləri optimallaşdırılıb və müasir logistika həlləri tətbiq edilib.

Orta dəhlizin əsas kommersiya yükü Çin və Mərkəzi Asiyadan Avropaya yönələn axın üzərində qurulub. Lakin bu marşruta olan inam artdıqca "əks istiqamət"in - Qərbdən Şərqə daşımaların artırılması istiqamətində də konkret addımlar atılır. 2024-cü ilin noyabrında Bakı-Sian ixrac blok qatarının yola salınması bu baxımdan simvolik dönüş nöqtəsi sayılır. Həmin ilin mayında Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirilməsi isə marşrutun elastikliyini artıraraq iki istiqamətli ticarət üçün yeni imkanlar açıb. Avropa, o cümlədən Avstriya şirkətlərinin bu xəttə ciddi maraq göstərməsi də Orta dəhlizin qlobal oyunçuya çevrildiyini sübut edir.

Azərbaycan getdikcə dünyanın logistika mərkəzi kimi mövqeyini daha da möhkəmləndirir. ABŞ-nin "Oliver Wyman" konsaltinq şirkəti Azərbaycanın geoiqtisadi mövqeyini olduqca dəqiq təsvir edir: "Ölkə Avropa, Mərkəzi Asiya, Türkiyə və bütövlükdə Avrasiya ticarət sisteminin kəsişdiyi strateji nöqtədə yerləşir. Bu coğrafi üstünlük son illər həyata keçirilən iri infrastruktur layihələri ilə daha da möhkəmləndirilib. Bakı limanı, Ələt Azad İqtisadi Zonası, müasir dəmir yolu və avtomobil magistralları, eləcə də gömrük sisteminin rəqəmsallaşdırılması istiqamətində atılan addımlar Azərbaycanı regionun əsas tranzit qovşaqlarından birinə çevirib".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Daha funksional, daha çevik, daha səmərəli

## Ölkədə MEDİA və Audiovizual Şuranın bazasında yeni qurum yaradılması təklif olunur

Dünən Milli Məclisin İnsan hüquqları komitəsində "Dövlət qulluğu haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) müzakirə olunub. Layihəyə əsasən, Medianın İnkişafı Agentliyi və Audiovizual Şuranın əsasında Media və Yayım Şurasının yaradılması təklif olunur.

Yeni yaradılacaq şura Azərbaycanda media və yayım sahəsinin tənzimlənməsi, inkişafı və nəzarəti üzrə səlahiyyətli vahid dövlət orqanı kimi fəaliyyət göstərəcək. Bu istiqamətdə aparılan müzakirələr göstərir ki, informasiya mühitinin sürətlə dəyişməsi, rəqəmsal platformaların genişlənməsi və media sahəsində sərhədlərin getdikcə aradan qalxması Azərbaycanda media idarəçiliyinə yeni yanaşmanın formalaşdırılmasını zəruri edir. Bu baxımdan təklif olunan dəyişikliklər vahid və çevik idarəetmə mexanizminin yaradılmasına, eləcə də informasiya məkanında daha sistemli tənzimləmənin təmin olunmasına hədəflənib. Yeni qurum ölkədə media mühitinin daha sistemli şəkildə idarə olunmasını təmin etmək məqsədi daşıyır. Əvvəl mövcud olan Medianın İnkişafı Agentliyi və Audiovizual Şuranın ayrı-ayrılıqda yerinə yetirdiyi bir sıra funksiyalar bundan sonra Media və Yayım Şurasının səlahiyyətlərinə daxil ediləcək və bu istiqamətdə bütün əsas tənzimləyici mexanizmlər vahid strukturda cəmləşdiriləcək. Eyni zamanda şuraya əlavə hüquq və vəzifələrin verilməsi onun fəaliyyət dairəsini daha da genişləndirəcək və müasir media mühitinin tələblərinə uyğunlaşdıracaq. Bu çərçivədə Media və Yayım Şurası media subyektlərinin iqtisadi dayanıqlığının gücləndirilməsi, dövlət qurumları ilə media arasında əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı etimad mühitinin formalaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirəcək. Bununla yanaşı, jurnalistlərin peşəkarlığının artırılması, media mütəxəssislərinin hazırlanması və onların davamlı təhsilinin təşkili məqsədilə müxtəlif təlimlər, seminarlar və müsabiqələr təşkil olunacaq.

Qurum həmçinin ictimai əhəmiyyət daşıyan mövzuların işıqlandırılması, maarifləndirici proqramların hazırlanması və onların mediada yayımlanmasının təşkili sahəsində dövlət sifarişi əsasında fəaliyyət göstərəcək. Audiovizual məhsulların istehsalı və yayımı üzrə dövlət sifarişlərinin verilməsi, bu istiqamətdə müsabiqələrin keçirilməsi də şuranın səlahiyyətlərinə daxil ediləcək. Bunlardan əlavə, media mühitində obyektivliyin və peşə etikası prinsiplərinin qorunması, informasiya təhlükəsizliyinin təmin edilməsi, eləcə də dezinformasiyanın qarşısının alınması və onun təsirlərinin minimuma endirilməsi istiqamətində kompleks tədbirlər görülməsi yeni qurumun əsas prioritetlərindən olacaq. Media sahəsində rəqəmsal məzmunun təhlili, ictimai rəyin öyrənilməsi, sosioloji sorğuların keçirilməsi və media subyektlərinin fəaliyyətinin analitik qiymətləndirilməsi də şuranın fəaliyyət istiqamətlərinə daxil ediləcək. Bu yanaşma dövlət və cəmiyyət arasında informasiya mübadiləsinin daha səmərəli qurulmasına xidmət edəcək.



Şura həmçinin Media Reyestrinin formalaşdırılması və idarə olunması, jurnalist vəsiqələrinin və media subyektlərinə şəhadətnamələrin verilməsi kimi mühüm inzibati funksiyaları da yerinə yetirəcək. Paralel olaraq, sahə üzrə müsabiqələrin təşkili, xüsusi nəşrlərin buraxılması, beynəlxalq tədbirlərdə iştirak və dövlət satınalmalarının həyata keçirilməsi kimi geniş səlahiyyətlərin də yeni quruma həvalə olunacağı nəzərdə tutulur.

Media və Yayım Şurasının yaradılması ölkədə informasiya mühitinin daha çevik, şəffaf və müasir idarəetmə prinsiplərinə uyğun şəkildə tənzimlənməsinə xidmət edən mühüm institusional islahat kimi çıxış edir. Bu yanaşma media sahəsində mövcud idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, müxtəlif istiqamətlər üzrə pərakəndə şəkildə həyata keçirilən funksiyaların vahid və sistemli çərçivəyə salınması baxımından xüsusi əhəmiyyət daşıyır. Yeni model informasiya axınının daha səmərəli idarə olunmasına, media subyektləri arasında sağlam rəqabət mühitinin formalaşdırılmasına və peşə standartlarının yüksəldilməsinə şərait yaradacaq. Üstəlik dövlət və cəmiyyət arasında informasiya körpüsünün daha dayanıqlı və etibarlı əsaslar üzərində qurulmasını, ictimai rəyin formalaşmasında obyektivlik və balans prinsiplərinin gücləndirilməsini hədəfə alır.

Qeyd edək ki, bu islahatların milli informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından strateji əhəmiyyəti var. Müasir dövrdə dezinformasiya, manipulyativ məlumat axınları və rəqəmsal platformalarda sürətlə yayılan qeyri-dəqiq informasiya riskləri nəzərə alınaraq vahid koordinasiya mexanizminin yaradılması dövlətin informasiya mühitinə operativ və çevik müdaxilə imkanlarını genişləndirir ki, bu da informasiya təhlükəsizliyinin daha effektiv qorunması deməkdir.

Media və Yayım Şurasının fəaliyyəti yerli medianın iqtisadi dayanıqlığının gücləndirilməsi və onun rəqabət qabiliyyətinin artırılması üçün yeni imkanlar açacaq. Eləcə də media subyektləri institusional dəstək mexanizmləri ilə əhatə olunaraq əsaslı maliyyələşdirmə və dövlət sifarişləri vasitəsilə media bazarının inkişafı stimullaşdırılacaq. Bu da öz növbəsində medianın daha müstəqil və peşəkar fəaliyyət göstərməsinə şərait yaradacaq.

Bu gün milli informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi və medianın iqtisadi baxımdan daha dayanıqlı və müstəqil fəaliyyət göstərməsi zərurəti yeni idarəetmə yanaşmalarını aktuallaşdırır. Bu kontekstdə çap, onlayn və audiovizual media arasında sərhədlərin getdikcə aradan qalxması informasiya sisteminə vahid və çevik yanaşmanın tətbiqini labüd edir. Ona gödə də "Media haqqında" qanuna təklif edilən bu dəyişikliklər ölkənin informasiya məkanının təhlükəsizliyinin təmin olunmasına, yerli medianın inkişafının stimullaşdırılmasına və müasir tələblərə uyğun daha çevik idarəetmə modelinin formalaşmasına şərait yaradacaq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

**Ötən həftənin iqtisadi icmalı**

# İnnovasiya, maliyyə inteqrasiyası, Kəlbəcərdə avtonom radiomonitorinq stansiyası və davam edən aqrar müşavirələr

İqtisadi gündəm ötən həftə də dinamikliyi ilə seçildi. Maliyyə bazarlarından enerji sektoruna, inflyasiya göstəricilərindən beynəlxalq ticarətə qədər bir sıra istiqamətlərdə yaşanan dəyişikliklər qlobal iqtisadi mənzərənin yeni çalarlarını ortaya çıxardı. Həftə ərzində açıqlanan statistik məlumatlar və beynəlxalq bazarlarda müşahidə olunan tendensiyalar iqtisadi proseslərin mürəkkəb xarakterini bir daha nümayiş etdirdi. Bu fonda həm qlobal, həm də regional iqtisadiyyat üçün əhəmiyyət daşıyan əsas hadisələrə nəzər salaq.

Bakıda keçirilən "Beynəlxalq Maliyyə və Bankçılıq Sammiti 2026" ötən həftənin iqtisadi gündəmində diqqətçəkən ilk hadisədir. "Türk Dövlətlərinin Qlobal Maliyyə İnteqrasiyası" mövzusuna həsr olunan ikigünlük tədbir regional maliyyə əməkdaşlığının genişləndirilməsi və türkdilli ölkələrin qlobal maliyyə sisteminə inteqrasiyasının sürətləndirilməsi məqsədini daşıyırdı.

Sammitdə bankçılıq və maliyyə sektorunda qlobal trendlər, rəqəmsal transformasiya, ödəniş sistemlərinin inteqrasiyası, süni intellektin maliyyə sahəsində tətbiqi, kibertəhlükəsizlik, "yaşıl maliyyə" və investisiya imkanları kimi aktual məsələlər müzakirə olunub. Tədbir həmçinin bank sektorunun nümayəndələrini, tənzimləyici qurumları, investorları və beynəlxalq ekspertləri bir araya gətirərək, regional maliyyə əməkdaşlığı üçün mühüm platforma rolunu oynayıb.

❖ ❖ ❖

Maliyyə sektorunda beynəlxalq inteqrasiya və əməkdaşlıq mövzularının ön plana çıxdığı ötən günlərdə diqqətçəkən hadisələrdən biri kimi 9 İyun - Beynəlxalq Maliyyə Kəşfiyyatı Orqanları Günü münasibətilə Maliyyə Monitorinqi Xidmətində keçirilən tədbiri qeyd edə bilərik. Tədbirdə maliyyə kəşfiyyatının milli təhlükəsizliyin təmin edilməsində, maliyyə sisteminin sabitliyinin qorunmasında, eləcə də cinayət yolu ilə əldə edilmiş vəsaitlərin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizədə rolu xüsusi vurğulanıb. Daha sonra maliyyə cinayətləri ilə mübarizə, yeni texnoloji risklər, məlumat mübadiləsi və beynəlxalq əməkdaşlıq məsələləri də müzakirə olunub. Bu tədbir Azərbaycanın qlobal maliyyə təhlükəsizliyi və çirkli pulların yuyulmasına qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq platformalarındakı rolunun daha da gücləndiyini nümayiş etdirir.

❖ ❖ ❖

Rəqəmsal infrastrukturun inkişafı və texnoloji imkanların genişləndirilməsi istiqamətində atılan addımlar da ötən həftənin diqqətçəkən hadisələri sırasında yer alıb. Bu baxımdan Kəlbəcərdə Günəş panelli avtonom radiomonitorinq stansiyasının istifadəyə verilməsi Qarabağ və Şərqi Zəngəzurda müasir rabitə və radionəzarət infrastrukturunun qurulması prosesinin davamı kimi qiymətləndirilir. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin məlumatına görə, proqram əsaslı radioqəbuledici (SDR) avadanlıqlarla təchiz edilmiş yeni stansiya Kəlbəcər şəhəri və ətraf ərazilərdə radiotezlik spektrinin və radio yayımlarının məsafədən operativ monitorinqini təmin edir. Yeni infrastruktur sayəsində spektr məşğulluğunun real vaxt rejimində izlənilməsi, ölçmə nəticələrinin təhlili və radionəzarət proseslərinin məsafədən idarə olunması mümkün olub.

❖ ❖ ❖

İqtisadiyyatın modernləşdirilməsi və rəqabət qabiliyyətinin artırılması istiqamətində aparılan müzakirələr də ötən həftənin iqtisadi gündəmində önəmli sırada diqqət çəkib. İyunun 11-də Bakıda keçirilən elm və innovasiyalara həsr olunmuş beynəlxalq konfransda dayanıqlı iqtisadi transformasiya, neftdənkənar sahənin inkişafı, iqtisadiyyatın şaxələndirilməsi və rəqəmsal transformasiya məsələləri müzakirə olunub.

Dövlət qurumları, beynəlxalq təşkilatlar, biznes dairələri və ekspertlərin iştirak etdikləri tədbirdə elmin və müasir texnologiyaların iqtisadi artımın əsas hərəkətverici qüvvələrindən birinə çevrildiyi vurğulanıb. Panel müzakirələrində innovasiyaların tətbiqi, korporativ transformasiya və beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində fikir mübadiləsi aparılıb. Tədbir Azərbaycanın uzunmüddətli inkişaf strategiyasında innovasiyayönümlü iqtisadi modelin getdikcə daha çox ön



plana çıxdığını bir daha nümayiş etdirib.

❖ ❖ ❖

Xarici bazarlarda Azərbaycan məhsullarının təşviqi və qeyri-neft ixracının genişləndirilməsi istiqamətində görülən tədbirlər ötən həftənin yaddaqalan məqamlarındandır. Belə ki, Moskvada Azərbaycan məhsulları və şərablarının təqdimat mərasimi keçirilib. Tədbirdə Azərbaycanın zəngin şərabçılıq ənənələri, müxtəlif regionlarda istehsal olunan məhsullar və ölkənin turizm potensialı nümayiş etdirilib. Çıxışlarda yerli istehsalçıların məhsullarının xarici bazarlarda tanıdılmasının əhəmiyyəti, eləcə də Azərbaycan-Rusiya ticarət əlaqələrinin inkişaf perspektivləri vurğulanıb.

❖ ❖ ❖

Həftənin ən vacib və diqqətçəkən hadisələri sırasında "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı keçirilən müşavirələr xüsusi yer tutub. Bu çərçivədə davam edən tədbirlər aqrar sektorun gələcək inkişaf prioritetlərinin müəyyənləşdirilməsi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi və kənd təsərrüfatında əlavə dəyər yaradan istehsal zəncirinin formalaşdırılması istiqamətində atılan addımların müzakirəsi baxımından əhəmiyyəti ilə seçilir.

Regionlarda keçirilən müşavirələrdə kənd təsərrüfatı məhsullarının istehsal və emal imkanlarının genişləndirilməsi, müasir texnologiyaların tətbiqi, ixrac potensialının artırılması, su və digər təbii resurslardan səmərəli istifadə, həmçinin balıqçılıq və akvakultura sahələrinin inkişaf perspektivləri diqqət mərkəzində saxlanılır. Qeyd olunur ki, dövlət proqramının əsas məqsədi aqrar sahədə məhsuldarlığın yüksəldilməsi, rəqabətqabiliyyətli istehsalın təşviqi və regionlarda məşğulluğun artırılmasıdır. Proses neftdənkənar iqtisadiyyatın şaxələndirilməsi strategiyasının mühüm tərkib hissəsi kimi qiymətləndirilib. Çünki aqrar sahənin inkişafı daxili tələbatın ödənilməsi ilə yanaşı, həm də emal sənayesinin genişlənməsinə, ixrac imkanlarının artmasına və kənd yerlərində sosial-iqtisadi rifahın yüksəlməsinə xidmət edir.

Beləliklə, 7 gün ərzində baş verən hadisələr göstərir ki, Azərbaycan iqtisadiyyatı bir tərəfdən qlobal iqtisadi proseslərə daha fəal inteqrasiya, digər tərəfdən isə neftdənkənar sahənin dayanıqlı inkişafını təmin etməkdə qərarlıdır.

*Z.NADİRQIZI,*
*"Azərbaycan"*

17 İyun Tibb İşçilərinin Peşə Bayramı Günüdür

# Sağlam gələcək müasir səhiyyə sistemindən başlayır




Hər bir dövlətin gücü yalnız onun iqtisadi qüdrəti, hərbi potensialı və ya siyasi nüfuzu ilə ölçülmür. Güclü dövlətin mühüm göstəricilərindən biri də insan kapitalı, onun sağlamlığı və xalqın rifahıdır. Təsadüfi deyil ki, sağlam cəmiyyət isə güclü dövlətin etibarlı dayağı hesab olunur. Məhz buna görə müasir dünyada səhiyyə sistemi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi qəbul edilir.

Azərbaycanda da insan amili dövlət siyasətinin mərkəzində dayanır. Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası ölkədə sosialyönümlü dövlət modelinin formalaşmasına, insan sağlamlığının etibarlı qorunmasına möhkəm zəmin yaradıb. Ümummilli Liderin 2001-ci il 4 iyun tarixli sərəncamı ilə təsis olunan 17 İyun - Tibb İşçilərinin Peşə Bayramı Günü səhiyyə işçilərinin əməyinə verilən yüksək qiymətin və dövlətin insan sağlamlığına göstərdiyi xüsusi diqqətin ifadəsidir.

Bu siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni məzmun və yeni keyfiyyət mərhələsinə yüksəlib. Son illər ölkəmizdə həyata keçirilən genişmiqyaslı sosial islahatların mühüm istiqamətlərindən biri məhz səhiyyə sisteminin modernləşdirilməsi, tibbi xidmətlərin əlçatanlığının artırılması və vətəndaş məmnunluğunun təmin edilməsidir. Prezident dəfələrlə vurğulayıb ki, insanların sağlamlığı hər bir dövlət üçün vacib məsələlərdən biridir. Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən sosial siyasət nəticəsində Azərbaycanın səhiyyə infrastrukturu əsaslı şəkildə yenilənib, ölkənin bütün bölgələrində müasir tibb müəssisələri yaradılıb, yeni diaqnostika və müalicə mərkəzləri istifadəyə verilib.

Bu gün paytaxtımızda fəaliyyət göstərən Yeni Klinika, Respublika Diaqnostika Mərkəzi, Milli Onkologiya Mərkəzi, Respublika Perinatal Mərkəzi, eləcə də son illər yenidən qurulan Sabunçu Tibb Mərkəzi, Gəncə Şəhər Birləşmiş Xəstəxanası, Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası və regionlarda istifadəyə verilən onlarca müasir tibb müəssisəsi ölkəmizdə səhiyyənin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu əyani nümayiş etdirir.

Müasir tibbi avadanlıqlarla təchiz olunan bu müəssisələr sayəsində artıq vətəndaşlar yüksək texnologiyalar tələb edən tibbi xidmətlərdən yaşadıqları bölgələrdə yararlana bilirlər. Bu isə səhiyyə xidmətlərinin əlçatanlığını əhəmiyyətli dərəcədə artırmaqla yanaşı, əhalinin vaxt və maliyyə itkilərinin qarşısının alınması deməkdir.

Bu məqamda qeyd edək ki, Azərbaycan səhiyyəsinin inkişafında Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi yer tutur. Fondun təşəbbüsü ilə Talassemiya Mərkəzinin yaradılması, uşaq reabilitasiya müəssisələrinin inşası, müharibə veteranlarının, qazilərin, şəhid ailələri üzvlərinin, eləcə də aztəminatlı insanların müalicəsinə verilən dəstək, müxtəlif humanitar və sosial layihələrin həyata keçirilməsi Heydər Əliyev Fondunun səhiyyə sahəsində gördüyü mühüm işlərin kiçik bir hissəsidir. Bu layihələr minlərlə insanın sağlamlığının qorunmasına və həyat keyfiyyətinin yüksəlməsinə xidmət edir.

Son illər həyata keçirilən səhiyyə islahatlarının mühüm istiqamətlərindən biri də icbari tibbi sığorta sisteminin tətbiqi və təkmilləşdirilməsidir. Bu sistem vətəndaşların tibbi xidmətlərə çıxış imkanlarını genişləndirməklə yanaşı, səhiyyənin maliyyələşdirilməsi mexanizmlərinin müasir tələblərə uyğun qurulmasına şərait yaradıb.

Prezident İlham Əliyevin 2026-cı il martın 19-da imzaladığı "Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" fərman isə səhiyyə sistemində yeni islahat mərhələsinin əsasını qoyub. Həmin fərmana əsasən, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin birləşdirilməsi nəticəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi yaradılıb. Bu dəyişiklik səhiyyə və sosial müdafiə sistemləri arasında əlaqələndirmənin gücləndirilməsinə, maliyyə resurslarının səmərəli idarə olunmasına və vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Yeni modelə əsasən, Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi tibbi xidmətlərin maliyyələşdirilməsini və satın alınmasını həyata keçirən qurum kimi fəaliyyət göstərir, TƏBİB isə həmin xidmətlərin təminatçısı rolunda çıxış edir. Beləliklə, səhiyyədə tətbiq olunan "alıcı-təminatçı" prinsipi xidmətlərin keyfiyyətinə nəzarətin gücləndirilməsinə, şəffaflığın və hesabatlılığın artırılmasına imkan yaradır. Eyni zamanda TƏBİB-in səlahiyyətlərinin genişləndirilməsi, dərman və tibbi vasitələrin təminatının mərkəzləşdirilməsi, rəqəmsal texnologiyaların tətbiqinin sürətləndirilməsi və vahid məlumat bazalarının formalaşdırılması səhiyyəmizin çevik, effektiv və vətəndaşyönümlü idarəetmə modelinə keçdiyini göstərir.

Ölkəmizdə səhiyyə yalnız yeni xəstəxanaların tikintisi ilə deyil, həm də müasir idarəetmə prinsiplərinin tətbiqi, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi və insan amilinə əsaslanan sosial siyasət vasitəsilə inkişaf edir. Dövlətin əsas məqsədi hər bir vətəndaş üçün əlçatan, keyfiyyətli və dayanıqlı səhiyyə sisteminin formalaşdırılmasıdır.

Səhiyyə sisteminin uğurlarında peşəkar tibbi kadrların rolu xüsusi əhəmiyyət daşıyır. Son illər həkimlərin və orta tibb işçilərinin peşə hazırlığının artırılması, beynəlxalq təcrübənin öyrənilməsi və tibb təhsilinin inkişafı istiqamətində mühüm addımlar atılıb. Tibb işçilərinin sosial rifahının yaxşılaşdırılması, onların əməyinin layiqincə qiymətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər də dövlətin bu sahəyə verdiyi önəmin göstəricisidir.

Azərbaycan tibb işçiləri Vətən müharibəsi günlərində də yüksək peşəkarlıq və fədakarlıq nümayiş etdirərək xalqımızın qəhrəmanlıq salnaməsinə şərəfli səhifələr yazdılar. Döyüş meydanlarında yaralı hərbçilərin həyatını xilas etmək uğrunda mübarizə aparan hərbi həkimlər, feldşerlər və sanitarlar xidməti borclarını yüksək səviyyədə yerinə yetirdilər. Vətən müharibəsinin yeganə xanım şəhidi olan hərbi feldşer Arəstə Baxışovanın göstərdiyi qəhrəmanlıq Azərbaycan tibb işçilərinin peşəkarlığının və vətənpərvərliyinin parlaq nümunəsi kimi tariximizdə əbədi yaşayacaq.

Bu gün Azərbaycan səhiyyəsi tarixinin ən mühüm inkişaf mərhələlərindən birini yaşayır. Müasir tibb müəssisələri, qabaqcıl texnologiyalar, yeni idarəetmə mexanizmləri, həyata keçirilən institusional islahatlar və insan amilini əsas götürən dövlət siyasəti ölkəmizin sosial dövlət modelinin gücünü aydın nümayiş etdirir.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Daşkəsəndə "Həmkardan həmkara qayğı ilə" sosial layihəsi çərçivəsində tibbi müayinələr keçirilib






**Daşkəsənddə "Həmkardan həmkara qayğı ilə" sosial layihəsi çərçivəsində növbəti səyyar tibbi aksiya təşkil olunub. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təşəbbüsü və təşkilatçılığı, Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin dəstəyi ilə həyata keçirilən layihə çərçivəsində sakinlərə ödənişsiz tibbi xidmətlər göstərilib.**

Daşkəsən Rayon Mərkəzi Xəstəxanasında keçirilən müayinələr zamanı kardiologiya, endokrinologiya, uşaq nevrologiyası, nevrologiya, dermatologiya və urologiya istiqamətləri üzrə həkimlər tərəfindən tibbi müayinələr aparılıb. İki gün ərzində ümumilikdə 300-dən çox rayon sakini müayinədən keçib. Müayinə nəticəsində səhhətində problem aşkarlanan şəxslərə müvafiq tibbi tövsiyələr verilib və müalicə istiqamətləri müəyyənləşdirilib. Tədbirin təşkilində AHİK könüllüləri də fəal iştirak ediblər.

Qeyd edək ki, "Həmkardan həmkara qayğı ilə" layihəsi ucqar bölgələrdə yaşayan əhalinin tibbi xidmətlərə çıxış imkanlarının artırılması, onların sağlamlığının qorunması və dövlətimizin sosial siyasətinə töhfə vermək məqsədi daşıyır. 2025-ci ilin aprel ayından start götürən layihə çərçivəsində indiyədək ümumilikdə 3 minə yaxın vətəndaş ödənişsiz tibbi müayinələrdən faydalanıb.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

# Aqrar sektorda elmi nailiyyətlərdən geniş istifadə edilməlidir

"Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda qarşıya məsul vəzifələr qoyulub. Seçilən hədəf, müəyyən edilən istiqamət ölkə iqtisadiyyatının inkişafında yeni mərhələnin başladığını şərtləndirir.



Bu baxımdan işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafını daha yüksək səviyyəyə çatdırmaq qarşımızda duran başlıca tələblərdən biridir. Rəhbərlik etdiyim Elm və Təhsil Nazirliyi Genetik Ehtiyatlar İnstitutunun Qarabağ Elmi-Tədqiqat Bazasının da üzərinə bu sahədə məsul vəzifələr düşür. Bazanın ərazisində müxtəlif növ çox məhsuldar sortlar yetişdirilir ki, onlar da alimlərimizin apardıqları elmi-tədqiqat işlərinin bəhrəsidir.

Bu yaxınlarda isə bazamızda "Şəhərsalma və Memarlıq İli"nə həsr olunan "İşğaldan sonra milli genofondun bərpası, tədqiqi, yeni yüksək məhsuldar sortların yaradılması və toxumçuluğu" mövzusunda respublika tarla seminarı keçirildi. Tədbirdə AMEA-nın müxbir üzvü Zeynal Əkpərov "İşğaldan sonra Qarabağ regionunda milli genofondun bərpası, tədqiqi və ərzaq təhlükəsizliyinin təmin olunmasında rolu", aparıcı elmi işçi, biologiya üzrə fəlsəfə doktoru Abidin Abdullayev "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üçün buğdanın yeni sortlarının yaradılması və toxumçuluğun elmi əsaslarla təşkili", bu sətirlərin müəllifi isə "Genetik Ehtiyatlar İnstitutunun Qarabağ Elmi-Tədqiqat Bazasının nailiyyətləri, gələcək inkişaf perspektivləri və mövcud problemləri" mövzularında məruzələrlə çıxış etdilər. Müzakirələrdən sonra iştirakçılar seleksiya təcrübələri və əkin sahələrinə baxış keçirdilər.

İştirakçılar arasında gənclərin çoxluq təşkil etməsi, xüsusən də qabaqcıl fermerlərin, mütəxəssislərin, Bərdə Dövlət İdarəetmə və Texnologiya Kollecinin, Tərtər Peşə Məktəbinin müəllim və tələbələrinin olması isə alimlərimizin apardıqları təcrübələrə, elmi nailiyyətlərə böyük maraq və ehtiyac olduğunu göstərdi.

***Məhəmməd ŞİRİNOV,***
*Ağdərə, Şıxarx qəsəbəsi*

17 İyun Dünya Quraqlıq və Səhralaşma ilə Mübarizə Günüdür

# Qlobal səhralaşmanın təhlükələri

## BMT-nin qiymətləndirmələrinə əsasən, 2050-ci ilə qədər quraqlıq dünya əhalisinin təxminən dörddəüçünə təsir göstərəcək

İqlim dəyişiklikləri bəşəriyyətin qarşısında duran ən ciddi problemlərdən biridir. Dünyanın müxtəlif regionlarında müşahidə olunan uzunmüddətli quraqlıqlar, su ehtiyatlarının azalması, torpaqların deqradasiyası və kənd təsərrüfatında məhsuldarlığın aşağı düşməsi artıq təkcə ekoloji məsələ deyil, həm də sosial-iqtisadi təhlükədir.

Mütəxəssislər bildirirlər ki, qlobal istiləşmənin təsiri ilə təbiətdə formalaşmış tarazlıq sürətlə dəyişir, nəticədə səhralaşma prosesi daha geniş ərazilərə yayılır. Səhralaşma təkcə səhraların böyüməsi demək deyil. Bu proses torpağın məhsuldarlığını itirməsi, bitki örtüyünün zəifləməsi, su ehtiyatlarının azalması və yaşayış üçün əlverişli ərazilərin sıradan çıxması ilə müşayiət olunur. Quraqlığın intensivləşməsi kənd təsərrüfatına, ərzaq təhlükəsizliyinə, insan sağlamlığına və iqtisadiyyata ciddi təsir göstərir. Dünyada milyonlarla insan artıq su qıtlığı, məhsul çatışmazlığı və iqlim miqrasiyası kimi problemlərlə üz-üzədir. Xüsusilə iqlimi quraq və yarımquraq olan regionlar bu risklərə daha həssas hesab edilir. Son illər temperaturun artması, yağıntı rejimində qeyri-sabitlik və su ehtiyatlarının azalması bu prosesi daha da sürətləndirib.

### İçməli su qıtlığı dünyanın ən ciddi problemlərindən biridir

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən **ekoloq Cəmşid BƏXTİYAR** bildirib ki, səhralaşma və quraqlıq problemi qlobal təhlükə səviyyəsinə yüksəlib. Onun sözlərinə görə, BMT-nin məlumatlarına əsasən, hər il təxminən bir milyon kvadratkilometr məhsuldar torpaq deqradasiyaya uğrayaraq səhralaşmış ərazilərə çevrilir. Bu prosesin dünya iqtisadiyyatına vurduğu zərər isə ildə təxminən 878 milyard ABŞ dolları həcmində qiymətləndirilir.

"Səhralaşma riski xüsusilə Afrika qitəsində daha qabarıq müşahidə olunur. Ən ciddi təhlükə altında olan regionlar sırasında Afrikanın sahil zonası, Mavritaniya, Mali, Nigeriya və Çad kimi ölkələr yer alır. Bundan başqa, Şərqi və Cənubi Afrika ölkələri - Somali, Efiopiya və Zimbabve də yüksək risk zonasına daxildir. Yaxın Şərq və Ərəbistan yarımadasında da quraqlıq problemi sürətlə dərinləşir. Mərkəzi Asiya, Aralıq dənizi hövzəsinin bəzi ölkələrində - İspaniya, İtaliya, Yunanıstan, Türkiyə və Mərakeşdə də iqlim dəyişikliklərinin təsirləri ciddi hiss edilir. Avstraliyanın daxili ərazilərində, eləcə də ABŞ-nin cənub və qərb bölgələrində səhralaşma meyillərinin artdığı vurğulanır", - deyə mütəxəssis qeyd edib.

Ekoloqun fikrincə, bu prosesin əsas səbəbi qlobal istiləşmədir. Temperaturun yüksəlməsi nəticəsində buxarlanma artır, torpağın rütubəti azalır və yağıntı rejimi pozulur. Əvvəllər müəyyən mövsümlərdə müşahidə olunan yağışlar ya ümumiyyətlə yağmır, ya da qısamüddətli və qeyri-effektiv xarakter daşıyır. Bunun nəticəsində quraqlıq dövrləri uzanır, bitki örtüyü zəifləyir və torpaqlar sürətlə deqradasiyaya uğrayır. Son araşdırmalar göstərir ki, quraqlığın şiddətindəki artımın təxminən 40 faizi atmosferin "susuzluğ"unun yüksəlməsi ilə bağlıdır. Bu anlayış atmosferdə rütubətin tamamilə yox olması deyil, havanın əvvəlkindən daha çox nəm tələb etməsi mənasına gəlir. Başqa sözlə, atmosfer daha çox rütubət çəkir və bu da torpağın daha sürətlə qurumasına səbəb olur.



Yaxın onilliklərdə içməli su problemi dünyanın ən ciddi böhranlarından birinə çevriləcək. BMT-nin qiymətləndirmələrinə əsasən, 2050-ci ilə qədər quraqlıq dünya əhalisinin təxminən dörddəüçünə təsir göstərəcək. Bu isə milyardlarla insanın su qıtlığı ilə üzləşəcəyi anlamına gəlir. Cəmşid Bəxtiyar deyib ki, quraqlıq və səhralaşma ərzaq təhlükəsizliyinə də ciddi təhdid yaradır: "Afrika, Yaxın Şərq, Mərkəzi və Cənubi Asiyanın bəzi hissələri bu baxımdan ən həssas regionlar hesab olunurlar. Quraqlıq kənd təsərrüfatı məhsuldarlığını azaldır, heyvandarlığa zərbə vurur və nəticədə ərzaq qiymətlərinin artmasına səbəb olur. Çünki həm bitkiçilik, həm də heyvandarlıq qlobal ərzaq təchizatının əsas mənbələridir. Problemin qarşısının alınması üçün dünya ölkələri daha ciddi və koordinasiyalı tədbirlər görməlidir. Bu istiqamətdə su idarəçiliyinin təkmilləşdirilməsi xüsusi əhəmiyyət daşıyır. Damcı və çiləmə suvarma sistemləri həm su itkisinin qarşısını alır, həm də torpağın keyfiyyətini qoruyur. Ənənəvi selləmə suvarma üsulu isə həm böyük həcmdə su itkisinə, həm də torpaqların şoranlaşmasına səbəb olur".

Mütəxəssis şoran torpaqların meliorasiyasının da vacib olduğunu bildirib: "Şoranlaşmış torpaqların yenidən əkin dövriyyəsinə qaytarılması ərzaq təhlükəsizliyi baxımından mühüm addımdır. Bununla yanaşı, meşə və yaşıllıq sahələrinin artırılması, otlaq sahələrindən düzgün istifadə və quraqlığa davamlı bitki sortlarının tətbiqi də vacib tədbirlər sırasındadır. Dünyada həyata keçirilən uğurlu layihələrdən biri Afrikadakı "Great Green Wall Initiative"dir. Konsepsiyanın əsas məqsədi səhralaşmanın qarşısını almaq üçün geniş yaşıllıq zolağı yaratmaqdır. Layihə artıq müsbət nəticələr verməyə başlayıb. Çində həyata keçirilən iri yaşıllaşdırma layihələri də uğurlu nümunələr sırasındadır. Səhralaşmış ərazilərdə ağacəkmə layihələri həm eroziyanın qarşısını alır, həm də gələcəkdə yerli iqlimin sabitləşməsinə kömək edir".

### Azərbaycan da risk zonasındadır

Azərbaycan da yarımsəhra və quraq iqlim zonasına daxil olduğuna görə səhralaşma riskinə həssas ölkələrdən sayılır. Cəmşid Bəxtiyarın sözlərinə görə, son illərdə temperatur artımı, su ehtiyatlarının azalması və yağıntıların qeyri-sabitliyi daha çox nəzərə çarpır. Beynəlxalq iqlim təşkilatları da Azərbaycanı su qıtlığı və iqlim risklərinə həssas ölkələr sırasında göstərir. Risk səviyyəsi Afrika ölkələri ilə müqayisədə daha aşağı olsa da, ölkəmizin bir sıra bölgələrində bu problem artıq özünü göstərməyə başlayıb. Ən həssas ərazilər sırasında Abşeron yarımadasını, Qobustan ərazisini, Şirvan, Mil və Muğan düzlərini, eləcə də Ceyrançölü qeyd etmək olar. Bundan başqa, Naxçıvanın bəzi düzənlik ərazilərində də səhralaşma əlamətləri müşahidə olunur.

"Kənd təsərrüfatına əsas təsir suvarma suyunun azalması ilə bağlıdır. Su çatışmazlığı məhsuldarlığın aşağı düşməsinə, bitki xəstəliklərinin artmasına və otlaq sahələrinin deqradasiyasına səbəb olur. Bu isə heyvandarlıq üçün yem bazasının zəifləməsi deməkdir. Qlobal istiləşmənin təsiri ilə torpaqların şoranlaşması və eroziyası da sürətlənir. Belə reallıqda meşələrin qorunması olduqca vacibdir. Meşələr torpağı külək və su eroziyasından qoruyur, rütubəti saxlayır və yerli iqlimi yumşaldır. Meşə sahələrinin azalması isə səhralaşmanı sürətləndirən ən təhlükəli amillərdən biridir", - deyə mütəxəssis bildirib.

Cəmşid Bəxtiyarın fikrincə, regional su monitorinqi, peyk nəzarəti, "ağıllı kənd təsərrüfatı texnologiyaları", tullantı sularının təkrar istifadəsi və duzadavamlı bitki sortlarının tətbiqi ölkəmizdə ekoloji problemlərin qarşısının alınmasına kömək edə bilər: "Bu prosesdə hər bir insanın rolu var. Suyun israf edilməməsi, həyətlərdə damcı suvarmadan istifadə, ağacəkmə kampaniyalarında iştirak, tullantıların düzgün idarə olunması və yanğın təhlükəsizliyi qaydalarına əməl olunması səhralaşma ilə mübarizədə mühüm rol oynayır".

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# REGİONLAR

## Yeni proqram, yeni vəzifələr

### Aqrar sektorun növbəti inkişaf dövrü başlayır

Ölkəmizin zəmilərində taxıl yığımı davam edir. Son məlumata görə, indiyə kimi sahələrdən 336,9 min ton məhsul toplanıb. Taxıl üzrə orta məhsuldarlıq hektara 32,1 sentner təşkil edib. Cari ildə məhsuldarlıq göstəricilərində müsbət dinamika var.



Taxılçılar yetişdirilən məhsulu vaxtında və itkisiz toplamaq üçün tam səfərbər olunublar ki, bu da hazırda dövlətin aqrar sahə, o cümlədən taxılçılıq qarşısında qoyduğu mühüm vəzifələrdən biridir. Qeyd edək ki, 2025-ci ilin payızında Azərbaycanda 950 min hektar sahədə taxıl əkilib. Bunun 490 min hektarı arpa, 460 min hektarı buğdadır.

Hələlik 110 min hektara yaxın sahədə biçin aparılıb. Bu, arpa sahələrinin təxminən üçdəbirini təşkil edir, ümumilikdə isə taxıl əkinlərinin 12-13 faizi deməkdir. Arpada məhsuldarlıq ötən illə müqayisədə hər hektara 0,2 sentner artıb. Keçən il bu günə məhsuldarlıq 31,7 sentner idisə, hazırda bu rəqəm 31,9 sentnerə bərabərdir. İndiyə kimi 2500 hektardan çox sahədə isə buğda biçini aparılıb.

Buğdadan söz düşmüşkən, "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üzrə Dövlət Proqramı"nda bu vacib bitkinin istehsalının çoxaldılması ilə bağlı stimullaşdırma tədbirlərinin görülməsi, ixtisaslaşmış rayonlarda məhsuldarlığın bir hektardan 50 sentnerə çatdırılması, buğda istehsalı həcminin ölkə üzrə 20 faiz artırılması hədəflənir.

Prezident İlham Əliyev bu il mayın 25-də keçirdiyi kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə buğda ilə özümüzü təminetmə əmsalının cəmi 55 faiz səviyyəsində olduğunu qeyd edərək deyib: "Əfsuslar olsun ki, bu əmsal artmır. Biz elə yerində sayırıq. Neçə ildir ki, bizdə elə bu səviyyədə buğda istehsal olunur, baxmayaraq, çox böyük təkan verilmişdir, bir çox aqroparklar yaradılmışdır. Onu da bildirməliyəm ki, aqroparkların yaradılması kənd təsərrüfatının inkişafında çox böyük rol oynamışdır. Buna baxmayaraq, buğda istehsalı və onun özünütəminetmə əmsalı bizdə artmır. Daxili istehsal 1 milyon 573 min ton, idxal 1 milyon 267 min ton. Bax, bu idxalı biz azaltmalıyıq. Təbii ki, bizim coğrafiyamızı nəzərə alaraq, əkin sahələrini nəzərə alaraq, digər kənd təsərrüfatı məhsullarının yetişdirilməsinin zəruriliyini nəzərə alaraq, biz hədəf qoymamalıyıq ki, 100 faiz özümüzü ərzaq buğdası ilə təmin edək. Ancaq hər halda 55 faiz qəbuledilməz rəqəmdir və bu, mütləq artmalıdır".

Digər dənlilər üzrə vəziyyətin prinsip etibarilə müsbət olduğu, özümüzü 95 faiz təmin etdiyimiz və idxalın cüziliyi qeyd edilib. Dənli paxlaların daxili istehsal 23 min ton, idxal 15 min tondur. Yəni özümüzü təminetmə indeksi 63 faizdir.

Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun şöbə müdiri, iqtisad elmləri doktoru Yaşar Məmmədov bu mövzu ilə bağlı fikirlərini bizimlə bölüşərək xatırlatdı ki, ölkənin kənd təsərrüfatı 2025-ci ildə 14,2 milyard manatlıq məhsul istehsalı ilə ÜDM-in 5,9 faizini təşkil etmiş, aqrar ixrac 18,5 faiz artmışdır. Bununla belə, iqtisadçı alim aqrar sektorun ciddi problemlərlə üzləşdiyini, taxılçılıqda buğda üzrə özünütəminetmənin cəmi 55 faiz olduğunu qeyd etdi: "İdxaldan asılılıq yüksəkdir, torpaq deqradasiyası, suvarma infrastrukturunun köhnəlməsi və müasir texnologiyaların tətbiqinin ləngiməsi əsas problemlər olaraq qalır. 2026-cı ilin may ayında imzalanan 2026-2030-cu illər üçün Dövlət Proqramı aqrar sektorda köklü transformasiyanı hədəfləyir: buğda məhsuldarlığının hektardan 50 sentnerə çatdırılması, müasir suvarma sistemlərinin tətbiqi və 5 milyard manatdan çox investisiyanın cəlb edilməsi nəzərdə tutulur. Lakin tətbiq edilən buğda subsidiyasının nəticəsi göstərir ki, maliyyə dəstəyi təkbaşına kifayət deyil, subsidiyaya baxmayaraq, özünütəminetmə artmamış, əksinə, azalmışdır. 25 may 2026-cı ildə keçirilən müşavirədə Prezident İlham Əliyev kənd təsərrüfatının iqtisadi deyil, strateji sahə olduğunu vurğulamışdır. Dövlət başçısı taxılçılıqda məhsuldarlığın artırılmasını, müasir suvarmanı və özəl sektorun fəal iştirakını aqrar inkişafın əsas şərtləri kimi müəyyənləşdirmişdir. Prezident həmçinin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsini prioritet vəzifə kimi qarşıya qoymuş, Qarabağ torpaqlarının kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməsinə xüsusi diqqətçəkmişdir. Hesab edirik ki, dövlət proqramının hədəfləri və istiqamətləri, qoyulan vəzifələrin icrası daim diqqət mərkəzində saxlanılmalıdır. Taxılçılıqda real irəliləyiş üçün intensiv aqrotexnologiyaların tətbiqi, keyfiyyətli toxumçuluq sisteminin qurulması və suvarma infrastrukturunun modernizasiyası vacib şərt sayılır. Fikrimizcə, kənd təsərrüfatı, xüsusilə taxılçılıq sahəsi torpaq idarəçiliyi, toxumçuluq, suvarma, aqrotexnologiya və maliyyə dəstəyi istiqamətlərində ardıcıl struktur islahatların həyata keçirilməsi ilə daha yüksək nəticələr əldə edə bilər".

Kənd Təsərrüfatı naziri Məcnun Məmmədov bu günlərdə Sabirabad rayonunda taxıl biçini prosesi, məhsul yığımının gedişi ilə tanış olarkən vurğulayıb ki, məhsuldarlığın yüksəldilməsi üçün sertifikatlı toxum materiallarından istifadə genişləndirilməli, torpaq və iqlim şəraitinə uyğun sort seçiminə üstünlük verilməli, gübrələmə, suvarma və bitki mühafizəsi tədbirləri elmi əsaslarla həyata keçirilməlidir. Biçin zamanı məhsul itkilərinin minimuma endirilməsi, kombaynların fasiləsiz fəaliyyətinin təmin olunması və yetişmiş sahələrdə məhsul yığımının qısa müddətdə başa çatdırılması da diqqətdə saxlanılmalıdır.

Taxılçılar biçin işlərinə bir neçə gündür başladıqlarını, səpin zamanı əsasən məhsuldar və yerli iqlimə uyğun toxumlardan istifadə etdiklərini, artıq kombaynların sahələrə çıxdığını və əlverişli hava şəraitindən istifadə edərək optimal müddətdə biçin işlərini başa çatdırmağa çalışdıqlarını bildiriblər.

Beləliklə, ölkədə biçin işləri üçün 1144 texnika sahələrə çıxarılıb. Onlardan 480 kombayn "Aqroservis"ə, qalanları isə fərdi və hüquqi şəxslərə məxsusdur. Verilən məlumata görə, hazırda biçin prosesində hər hansı bir çətinlik yoxdur.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Qusarda "Oxu bayramı"

**Rayon icra hakimiyyətinin dəstəyi, Quba-Xaçmaz Regional Mədəniyyət İdarəsi Qusar Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin təşkilatçılığı ilə Qusar Nəriman Nərimanov adına Mədəniyyət və İstirahət Parkında "Şəhərsalma və Memarlıq İli" çərçivəsində "Oxu bayramı" keçirilib.**

Öncə Ümummilli Lider Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanlarımızın xatirələri birdəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdən əvvəl parkda kitab, rəsm və "Şəhərsalma və Memarlıq İli" çərçivəsində hazırlanmış əl işlərindən ibarət sərgiyə baxış keçirilib. Rayon icra hakimiyyətinin başçısı Sahir Məmmədxanov, Quba-Xaçmaz Regional Təhsil İdarəsinin rəisi Coşqun Əliyev, Quba-Xaçmaz Regional Gənclər və İdman İdarəsinin rəisi Qumru Məmmədova, rayon ziyalıları, digər idarə və müəssisə rəhbərləri sərgidə nümayiş olunan müxtəlif müəlliflərin kitabları, rəsmlər və digər əl işləri ilə tanış olublar.

Sonra İctimai televiziyada yayımlanan "Əlaçı" intellektual yarışmasının qalibləri - şəhər 1 saylı tam orta ümumtəhsil məktəbinin şagirdi Tural Sultanov və şəhər 2 saylı tam orta məktəbin şagirdi Samirə İsabalayevaya, o cümlədən "Sərhəd" hərbi-idman oyunlarında qələbə qazanmış Yuxarı Zeyxur kənd tam orta ümumtəhsil məktəbinin "Zeyxur" komandasının üzvləri və hərbi müəlliminə hədiyyələr təqdim olunub.

Çıxış edən YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov qeyd edib ki, kitab insan şüurunun yaddaşı, millətin mənəvi sərvətidir və kitab oxumayan cəmiyyət öz tarixini, dilini, mədəniyyətini itirmək təhlükəsi ilə üzləşir: "Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması və Heydər Əliyev ideologiyasına sadiq vətəndaşlar kimi yetişməsi üçün kitabxanalarla əməkdaşlıq, kitab təbliğatı və ədəbi-mədəni tədbirlərin təşkili davamlı xarakter daşımalıdır".

Vətən müharibəsi qazisi İlkin Abuyev, şəhid Oleq Cəfərovun anası Tinatin Cəfərova, şəhid Sultan Şahvələdovun anası Məlahət Şahvələdova, Azərbaycan Yazıçılar Birliyinin üzvü Eyvaz Güləliyev, şəhər 4 saylı tam orta ümumtəhsil məktəbinin müəllimi Telli Davudova gəncləri mütaliəyə daha çox maraq göstərməyə, savadlı, dünyagörüşlü və vətənpərvər gənclər kimi yetişməyə çağıraraq belə maarifləndirici tədbirlərin mütəmadi olaraq keçirilməsinin vacibliyini diqqətə çatdırıblar.



Çıxış edən Sahir Məmmədxanov tədbir iştirakçılarını salamlayaraq tədbirin təşkilində əməyi olan bütün təşkilatçılara öz minnətdarlığını bildirib. Qeyd edilib ki, mütaliə cəmiyyətin intellektual potensialının formalaşmasının, milli-mənəvi dəyərlərin qorunub gələcək nəsillərə ötürülməsinin əsas mexanizmidir və informasiya bolluğu dövründə insanı səthi bilgilərdən qoruyan yeganə vasitə sistemli kitab oxumaqdır. Bildirilib ki, tarixən maarifçilik ənənələrinə sadiq olan Qusarda müasir dövrün tələblərinə uyğun onlayn kitabxana sisteminin yaradılması istiqamətində müvafiq addımların atılması zəruridir.

Tədbirin bədii hissəsində məktəblilər tərəfindən vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib, musiqilər ifa edilib, rəqs kompozisiyaları təqdim edilib. Rəngarəng çıxışlar iştirakçılar tərəfindən maraqla qarşılanıb.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Havalar qeyri-sabit keçsə də...

### Qazaxda meyvə yığımı davam edir

**Mayın 25-də Prezident İlham Əliyevin sədrliyi ilə aqrar məsələlərə həsr olunan müşavirənin keçirilməsi, həmçinin "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi və bundan irəli gələn bəzi məsələlərin tənzimlənməsi haqqında Prezidentin sərəncamı bir daha onu göstərir ki, respublikamızda kənd təsərrüfatının inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri olaraq qalır.**

Söz yox ki, dövlət başçısının rəhbərliyi ilə kənd təsərrüfatının inkişafı istiqamətində indiyəcən həyata keçirilən tədbirlər nəticəsiz qalmayıb. Bu da səbəbsiz deyil. Dövlət tərəfindən sahibkarlara, kəndli fermerlərə verilən dəstək ölkə iqtisadiyyatında böyük pay sahibi olan kənd təsərrüfatının inkişafına öz töhfəsini verir. Kənd təsərrüfatı neft sənayesi və tikinti sektorundan sonra ölkə iqtisadiyyatında üçüncü böyük sahə olduğu üçün bu sektor həm də işsizliyin aradan qaldırılmasında və əhalinin sosial vəziyyətinin yaxşılaşmasında mühüm rol oynayır.

Son illər kənd təsərrüfatının digər sahələri kimi meyvəçiliyin inkişafına da diqqətlə yanaşılır. Bu baxımdan Qazax rayonunda bir sıra tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, rayonda aqrar sahənin inkişafında meyvəçilik əsas yerlərdən birini tutur. Qazaxda hər il meyvə bağlarının sahəsi genişləndirilir.

Təəssüf ki, əvvəlki illərdən fərqli olaraq bu il hava şəraiti meyvəçilik üçün o qədər də əlverişli keçmir. Aramsız yağan yağışlar, güclü küləklər bağlara xeyli ziyan vurur. Buna baxmayaraq, qazaxlı bağbanlar bütün qüvvələri səfərbərliyə alaraq məhsul itkisini azaltmaq üçün əllərindən gələni əsirgəmirlər. Rayonun Xanlıqlar və Çaylı kəndlərində ərik, gilas, xurma, şaftalı olmaqla ümumilikdə 33 hektarda meyvə bağı salınıb. Gilas yığımı artıq başa çatıb. Ərik yığımı isə davam edlr. Məhsul yığımında hər iki kənddən ümumilikdə 50 nəfər iştirak edir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*



## Salyanda taxıl biçini ilə əlaqədar məsələlər müzakirə edilib

**Rayon icra hakimiyyətində taxıl biçini mövsümünün mütəşəkkil keçirilməsi ilə əlaqədar yaradılmış qərargahın iclası keçirilib.**

İclası giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Rüstəm Xəlilov bildirib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar nəticəsində aqrar sahə öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Taxılçılığın kənd təsərrüfatının aparıcı sahələrindən biri olduğunu xatırladan R.Xəlilov bu sahənin ərzaq təhlükəsizliyinin davamlı təmin olunmasında, o cümlədən heyvandarlığın yem bazasının təminatında, ərzaqlıq buğda ilə özünütəminat səviyyəsinin yüksəldilməsində mühüm rol oynadığını vurğulayıb. Bildirib ki, taxılın vaxtında biçilməsi, texnikaların fasiləsiz fəaliyyətinin təmin edilməsi və yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunması əsas məsələlərdəndir.



İclasda Salyan Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Tariel Atamalıyev rayonda taxıl biçininin gedişi barədə ətraflı məlumat verərək bildirib ki, rayon üzrə arpa biçini sürətlə davam edir. O, biçin prosesinin mütəşəkkil qaydada keçdiyini, məhsul itkisinin qarşısının alınması üçün fermerlərə müvafiq tövsiyələrin verildiyini və aidiyyəti qurumlarla koordinasiyanın təmin edildiyini qeyd edib. Tariel Atamalıyev eyni zamanda taxıl biçinində iştirak edən həm şəxsi, həm aqroservis, həm də digər rayonlardan dislokasiya edilən kombaynlar barədə ətraflı məlumat verib.

İclasın yekununda iştirakçılar taxıl biçininin təşkili, mövcud vəziyyət və qarşıda duran vəzifələr barədə ətraflı məlumatlandırılıb, biçin zamanı qarşıya çıxa biləcək çətinliklər, onların həlli yolları müzakirə edilib, fermer və mexanizatorların təklifləri dinlənilib, qaldırılan məsələlərin operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*






Gənclik






● Gənclər siyasəti

# Onlar ölkəmizin həm də bu günüdür

**Tarixin bütün dövrlərində xalqlar xoşbəxt gələcəyə, əmin-amanlığa olan ümidlərini, işıqlı sabahlarını gənc nəsillərə bağlayıb. Bu da təbiidir. Çünki gənclər dövlətin, xalqın və yaşadığı cəmiyyətin aparıcı qüvvəsi, vuran qolu, düşünən beyni, nəsllərin davamçılarıdır.**



Gənclər daim cəmiyyətin ön sıralarında addımlayan qüvvə olmaqla yanaşı, həm də ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatda fəal iştirak edir, ölkədə baş verən quruculuq proseslərinin mərkəzində dayanırlar. Onlar hər bir dövlətin, xalqın uğurlu gələcəyi, inkişafında mühüm rol oynayan tükənməz qüvvəsidir. Gənclər bir qayda olaraq quruculuq işlərində üzərlərinə düşən tapşırıqları dövlətə, dövlətçiliyə böyük sevgi ilə yerinə yetirirlər. Buna görə də bacarıqlı, bilikli, avanqard gənc nəslin hazırlanması, formalaşması hər bir ölkə, dövlət üçün başlıca məsələdir. Çünki ölkənin gələcəyi sağlam, vətənpərvər ruhlu gənclərdən asılı olacaq.

İşıqlı sabahlarımızın ən fəal, ən etibarlı qurucusu olan Azərbaycan gənclərinin aparıcı qüvvə kimi formalaşmalarında, gələcəyə hazırlanmasında dövlətimizin apardığı gənclər siyasəti olduqca mühüm əhəmiyyət daşıyır. Xalqımıza, dövlətimizə uğurlar gətirən bu siyasətin banisi Ümummilli Lider Heydər Əliyevdir. Günü-gündən inkişaf etməkdə, dünyada böyük nüfuz qazanmaqda olan ölkəmizdə gənc nəslə diqqət və qayğının dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirən Ulu Öndər "Azərbaycanı gənclər ölkəsi, gəncləri isə Azərbaycanın gələcəyi adlandıraraq" böyüməkdə olan gənc nəslə qayğını hər zaman önə çəkmişdi.

Ölkəmizə rəhbərlik etdiyi bütün zamanlarda Ulu Öndər sağlam, vətənpərvər gənclərin, dövlətçiliyə sadiq və layiq nəslin yetişməsini daim diqqət mərkəzində saxlayırdı. Ümummilli Liderin ən böyük xidmətlərindən biri də o idi ki, gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edirdi. Onların imkan və bacarıqlarını yüksək qiymətləndirir, sabahımız olacaq gənclərin problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi diqqət yetirirdi. Ən önəmlisi isə uğurla həyata keçirilən gənclər siyasətini müstəqil Azərbaycan dövlətinin əhəmiyyətli, mühüm fəaliyyət istiqamətlərindən biri kimi dəyərləndirirdi.

2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyevin hakimiyyətə gəlişi ilə gənclər siyasəti mahiyyət etibarilə yeni mərhələyə qədəm qoydu. "Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram", - deyən Azərbaycan Prezidenti İlham Əliyev bu sahədə də siyasi xətti ilə Ulu Öndər Heydər Əliyevin gənclər siyasətinə sadiqliyini sübut etdi. Dövlət başçısının sərəncamları ilə gənclərin fərdi inkişafına təkan verildi, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin uğurlu inkişafı üçün səmərəli istifadə olunmağa başlandı. Azərbaycanda uğurla həyata keçirilən gənclər siyasətinin nəticəsidir ki, bu gün hansı sahəyə diqqət yetirsək, gənclərin ürəkaçan uğurlarını görürük. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən siyasət nəticəsində Azərbaycanda yüksək intellektual səviyyəyə, hərbi vətənpərvərlik ruhuna, tarixi köklərə bağlı olan milli düşüncəyə malik, cəmiyyətdə böyük fəallıq göstərən gənclər formalaşıb. Elmi nailiyyətləri ilə xalqımızı sevindirən gənclərimiz ən müasir texnologiyaların mənimsənilməsində və tətbiqində böyük fəallıq göstərirlər. Dünyanın hər yerindən biz onların xoş soraqlarını alırıq.

Başqa sahələrdə olduğu kimi, gənclərimiz Azərbaycanın idman şərəfini də layiqincə qoruyurlar. İştirak etdikləri müxtəlif idman yarışlarında ölkəmizi yüksək səviyyədə təmsil edirlər. Yarışlara məsuliyyətlə yanaşan idmançılarımız bayrağımızı dünyanın müxtəlif ölkələrində qürurla dalğalandırır, himnimizi səsləndirirlər.

Azərbaycan Prezidenti İlham Əliyev 2025-ci ilin idman yekunlarına həsr olunan mərasimdə dövlətin həyata keçirdiyi gənclər siyasətindən bəhs edərək demişdir ki, bizim siyasətimizin əsas istiqamətlərindən biri də gəncləri sağlam ruhda tərbiyə etməkdir, vətənpərvərlik ruhunda tərbiyə etməkdir ki, gənclər Vətən sevgisi ilə böyüsünlər, tərbiyə alsınlar və beləliklə, ölkəmizin inkişafı daimi olsun, əbədi olsun. Dövlətimizin başçısı daha sonra çıxışında bildirmişdir ki, hər dəfə bizim idmançılarımız dövlət bayrağını beynəlxalq yarışlarda qaldıranda, əlbəttə ki, hər birimiz qürur hissi keçiririk: "Son 5 il ərzində bizim bayrağımız qalib ölkənin bayrağı kimi beynəlxalq arenalarda qaldırılır. Əminəm ki, idmançılar da beynəlxalq yarışlarda iştirak edən zaman bunu hiss edirlər. Ölkəmizə, xalqımıza olan münasibəti hiss edirlər və idman meydançalarına, idman arenalarına çıxarkən, yəqin ki, təbii olaraq qürur hissi ilə çıxırlar. Eyni zamanda bizim 5 il bundan əvvəl əldə etdiyimiz şanlı Qələbə idmançıların məsuliyyətini də böyük dərəcədə artırır. Çünki onlar müzəffər xalqın nümayəndələri kimi yarışlarda iştirak edirlər".

Gündən-günə peşəkarlığını, bacarığını artıran gənclərimiz 44 günlük Vətən müharibəsində də qəhrəmanlıqları, şücaətləri ilə başımızı uca etdilər. Rəşadətli Azərbaycan Ordusunun sıralarında, Müzəffər Ali Baş Komandanın sərkərdəliyi altında torpaqlarımızın azadlığı uğrunda böyük cəsarət və hünərlə vuruşdular. Ürəyi Vətən eşqi ilə döyünən gənclərimiz göstərdikləri qəhrəmanlıqları ilə, qazandıqları qələbələri ilə 30 ilə yaxın davam edən işğala cəmi 44 gün ərzində son qoydular. Məhz bu cəsur gənclərin igidliyi və cəsarəti sayəsində qazanılan Zəfər nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olundu. Xalqımız 30 illik həsrətdən sonra tarixi torpaqlarına qovuşdu.

Cəsur gənclərimiz yurdumuzun azadlığı uğrunda döyüşlərdə göstərdikləri igidlikləri ilə yanaşı, arxa cəbhədə də yüksək fəallıqla çalışdılar. Onlar ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın tarixi torpaqlarımız olan Qarabağda, eləcə də qəsb etdiyi digər ərazilərdə törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında öndə getdilər. Prezident İlham Əliyev çıxışlarında daim bu reallığı xüsusilə vurğulamışdır: "Çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi".

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

● "Yüksəliş" müsabiqəsi

# İntellekt və idarəçilik yarışı

**Müasir dünyada idarəetmə və insan kapitalının inkişafı hər bir dövlətin gələcək uğurunun əsas rəmzinə çevrilib.**




Ölkəmizdə savadı, rəqabətədavamlı idarəçilik keyfiyyətləri və strateji düşüncəsi ilə seçilən yeni nəsil rəhbər kadrların üzə çıxarılmasını hədəfləyən, artıq milli brendə çevrilmiş "Yüksəliş" müsabiqəsi növbəti intellektual sınağı geridə qoyub. Gələcəyin idarəçiləri olmaq iddiası ilə yola çıxan potensial liderlər üçün zaman daralır, rəqabət isə pik həddə çatır.

Ölkə rəhbərliyinin insan kapitalının inkişafına verdiyi xüsusi önəmin bariz nümunəsi olan VI "Yüksəliş" müsabiqəsinin əyani mərhələsinin son turu - İdarəetmə bacarıqları imtahanı 14 iyun 2026-cı ildə Dövlət İmtahan Mərkəzinin Elektron İmtahanlar Korpusunda iki sessiya üzrə müvəffəqiyyətlə başa çatıb. Analitik təhlil mərhələsinin çətin sınaqlarından keçərək yüksək intellektual hazırlıq nümayiş etdirən 1468 namizəd bu tura qatılmaq hüququ qazanıb. İştirakçılar şəffaf və müasir imtahan infrastrukturunda öz idarəçilik instinktlərini və psixoloji dözümlülüklərini nümayiş etdiriblər.

Kompüter qarşısında əyləşən iddiaçılara ümumilikdə 120 tapşırıq təqdim olunub. İmtahanın formatı sırf mexaniki biliklərin yoxlanılmasına deyil, real iş mühitində qərarvermə qabiliyyətinə əsaslanıb. İdarəetmənin bacarıqları imtahanı üç hissədən ibarət olub:

Sabit situasiya əsaslı tapşırıqlar: standart iş mühitində optimal həllərin tapılması;

Şaxələnən situasiya əsaslı tapşırıqlar: hər bir addımın növbəti nəticəyə təsir etdiyi mürəkkəb ssenarilər;

Emosional zəka (EQ) aləti: böhran anında komandanı idarəetmə və emosiyaları cilovlama bacarığı.

İmtahanın ümumi müddəti 4 saat təşkil edib.

"Yüksəliş"in İşçi Qrupunun rəhbəri Fərhad Hacıyev qeyd edib ki, müsabiqənin beynəlxalq qiymətləndirmə prinsiplərinə uyğun şəkildə təşkil olunmasının göstəricilərindən biri də xaricdə yaşayan iştirakçılar üçün distant imtahan imkanının yaradılmasıdır: "Bu namizədlər üçün imtahan proktorinq üsulu ilə, onlayn formatda və iki sessiya üzrə keçirilib. Proses zamanı imtahan təhlükəsizliyinin və şəffaflığın təmin olunması məqsədilə müasir texnoloji həllərdən istifadə edilib. İmtahan nəticələri T-şkala əsasında hesablanacaq. Bu qiymətləndirmə üsulu TOEFL, GMAT, SAT kimi bir sıra beynəlxalq imtahanlarda tətbiq olunur və iştirakçıların nəticələrinin daha obyektiv, müqayisəli və ədalətli şəkildə qiymətləndirilməsinə imkan yaradır".

Bu imtahandan uğurla keçən namizədləri qarşıda müsabiqənin ən maraqlı və canlı mərhələləri - yarımfinal və böyük final gözləyir. Artıq elektron monitorlar arxasında deyil, qiymətləndirici ekspertlərin (assessorların) canlı nəzarəti altında real vaxt rejimində layihə tapşırıqları (case-lər) həll olunacaq, komanda daxilində liderlik xüsusiyyətləri sınağa çəkiləcək. Müsabiqənin yekununda adını qaliblər siyahısına yazdıracaq şəxsləri böyük perspektivlər gözləyir. Onlar 20 000 AZN fərdi inkişaf qrantı əldə etməklə yanaşı, ölkənin top-menecerləri və yüksəkrütbəli dövlət rəsmiləri tərəfindən 1 illik mentorluq (təcrübə) proqramına qoşulmaq şansı qazanacaqlar. Bu, sadəcə, bir müsabiqə deyil, Azərbaycanın gələcək idarəçilik elitasının formalaşdırılması yolunda atılan fundamental addımdır.

Müsabiqənin idarəetmə mexanizmləri mütəmadi olaraq dünya standartlarına uyğunlaşdırılır. İmtahandan cəmi bir neçə gün öncə, 8-10 iyun 2026-cı il tarixlərində "Yüksəliş" müsabiqəsinin İşçi Qrupu Böyük Britaniyanın paytaxtı Londonda keçirilən nüfuzlu "e-Assessment Association" illik konfransında iştirak edərək qiymətləndirmə proseslərinə süni intellekt və rəqəmsal texnologiyaların tətbiqi sahəsində qlobal təcrübəni sınaqdan keçiriblər. Eyni zamanda müsabiqənin idarəçilik fəlsəfəsi ölkənin strateji hədəfləri ilə birbaşa uzlaşır.

"Yüksəliş" müsabiqəsi, sadəcə, birinciləri müəyyən edən yarışma deyil, həm də ölkənin strateji kadr potensialını formalaşdıran unikal bir mexanizmdir. Qaliblərin adları dərhal ölkə miqyaslı xüsusi Kadr Ehtiyat Bankına daxil edilir. Bu baza dövlət və özəl sektorun rəhbər vəzifələrinə təyinatlar zamanı əsas istinad mənbəyinə çevrilir. Qaliblər 1 il müddətində idarəetmə rəhbərlərinin (nazirlər, komitə sədrləri, böyük holdinq rəhbərləri) birbaşa himayəsinə (mentorluğuna) keçirlər. Bu, real dövlət idarəçiliyi ssenarilərində birbaşa təcrübə qazanmaq imkanı deməkdir. Şəbəkələşmə (Networking) Gücü: Layihə çərçivəsində ölkənin ən istedadlı menecerlərindən ibarət güclü idarəçilər cəmiyyəti formalaşır. Bu şəbəkə gələcək transmilli və regional layihələrin icrasında mühüm platformadır. Eyni zamanda Azərbaycanın gələcək idarəçilik elitasının formalaşdırılması yolunda atılan fundamental addımdır.

Qeyd edək ki, bu günədək "Yüksəliş" müsabiqəsinin VI mövsümü üzrə ümumilikdə 17 min 651 namizəd qeydiyyatdan keçib. Onlardan 6112 nəfəri Analitik təhlil imtahanında iştirak edib.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

● Gələcəyə dəstək

# Tələbələr inzibati binanın şəbəkə topologiyası layihəsini hazırlayıblar

**Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı müxtəlif müəssisələrdə etibarlı və təhlükəsiz şəbəkə infrastrukturunun yaradılmasını zəruri edir. Bu istiqamətdə peşəkar kadr hazırlığının vacib komponentlərindən biri də tələbələrin nəzəri biliklərini praktik layihələr üzərində tətbiq etmələridir.**



Azərbaycanda təhsilin inkişafı, müasir texnologiyaların tədris prosesinə inteqrasiyası və rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən təhsil islahatları, həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təhsilin inkişafına göstərdiyi xüsusi diqqət və qayğı nəticəsində təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirilir, innovativ layihələrin həyata keçirilməsi üçün əlverişli şərait yaradılır. Bu siyasətin nəticəsi olaraq tələbələrin praktiki bilik və bacarıqlarının inkişafına yönəlmiş layihələrin sayı da ildən-ilə artır.

Belə layihələrdən biri də Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin (ADPK) "Kompüter şəbəkələri və şəbəkə inzibatçılığı" ixtisası üzrə təhsil alan KŞŞİ 23/03 qrupunun tələbələri tərəfindən hazırlanmış "3 mərtəbəli inzibati binanın şəbəkə topologiyası" layihəsidir. Qeyd edək ki, layihənin pilot kimi hazırlanması və həyata keçirilməsi təşəbbüsü adıçəkilən kollecin riyaziyyat-informatika fənn birləşməsinin sədri tərəfindən irəli sürülüb. Tələbələrin nəzəri biliklərinin praktik fəaliyyətlə əlaqələndirilməsi, onların müasir informasiya texnologiyaları sahəsində peşə bacarıqlarının inkişaf etdirilməsi məqsədilə təklif olunan layihə sonradan tələbələrin birgə fəaliyyəti nəticəsində uğurla reallaşdırılıb.

Məqsədi üçmərtəbəli inzibati bina üçün müasir tələblərə cavab verən şəbəkə infrastrukturunun layihələndirilməsi, şəbəkə təhlükəsizliyinin təmin edilməsi, rabitə sistemlərinin təşkili və informasiya resurslarının səmərəli idarə edilməsinin modelləşdirilməsi olan layihə çərçivəsində inzibati binanın bütün mərtəbələri üzrə şəbəkə əlaqələrinin qurulması, avadanlıqların yerləşdirilməsi, təhlükəsizlik sistemlərinin inteqrasiyası və texniki həllərin hazırlanması istiqamətində geniş iş aparılıb. Tələbələr tərəfindən şəbəkənin fiziki və məntiqi strukturu layihələndirilib, istifadə olunacaq avadanlıqlar müəyyənləşdirilib və onların qarşılıqlı fəaliyyəti modelləşdirilib.

Layihəyə rəhbərliyi tələbə Mehdi Zərbəliyev həyata keçirib. O, layihənin ümumi koordinasiyasını təmin etməklə yanaşı, inzibati binanın şəbəkə topologiyasının çertyojunu hazırlayıb və istifadə olunacaq avadanlıqların siyahısını tərtib edib. Ümumiyyətlə, layihənin hazırlanmasında qrup üzvləri arasında iş bölgüsü aparılıb və hər bir iştirakçı müəyyən istiqamət üzrə fəaliyyət göstərib. Şahin Abbasov şəbəkə təhlükəsizliyinin əsas elementlərindən olan firewall texnologiyalarını araşdırıb, onların tətbiq mexanizmlərini öyrənib və layihənin təqdimatı üçün internet səhifəsinin hazırlanmasını həyata keçirib. Gülbacı Sadıqzadə IP ünvanlaşdırılması sistemi, subnet mask, default gateway və digər şəbəkə parametrlərinin funksiyaları ilə bağlı araşdırmalar apararaq layihənin nəzəri hissəsinin hazırlanmasına töhfə verib. Sara Məmmədova layihədə nəzərdə tutulan bütün şəbəkə avadanlıqlarının konfiqurasiyası üzrə texniki həlləri hazırlayıb. Zərifə İsmayılova layihədə istifadə olunan cihazların texniki xüsusiyyətlərini və funksional imkanlarını sistemləşdirərək onların şəbəkədəki rolunu müəyyənləşdirib. Elmira Məlikli IP müşahidə kameraları və biometrik giriş sistemləri üzrə araşdırmalar apararaq təhlükəsizlik həllərinin layihəyə inteqrasiyası istiqamətində fəaliyyət göstərib. Bəyimxanım Hüseynova şəbəkə əlaqələrinin təşkili, məlumat ötürmə kanalları və rabitə sistemlərinin qurulması məsələlərini işləyib. Günay Tarverdiyeva isə layihənin vizual hissəsini hazırlayıb. O, binanın otaqlarını üçölçülü formatda modelləşdirərək layihənin 3D təsvirini yaradıb, həmçinin qrafik materialların və çertyojların hazırlanmasında iştirak edib.

Layihənin nəticəsi olaraq üçmərtəbəli inzibati bina üçün tam şəbəkə infrastrukturu modeli hazırlanıb. Modeldə server və şəbəkə avadanlıqlarının yerləşdirilməsi, mərtəbələrarası əlaqələrin təşkili, videomüşahidə sistemlərinin inteqrasiyası, biometrik girişə nəzarət mexanizmləri və şəbəkə təhlükəsizliyi həlləri öz əksini tapıb. Hazırlanmış layihə tələbələrə kompüter şəbəkələrinin layihələndirilməsi, şəbəkə inzibatçılığı, informasiya təhlükəsizliyi, texniki sənədləşdirmə və komanda şəklində işləmə bacarıqlarının inkişaf etdirilməsi baxımından mühüm təcrübə qazandırıb.

Layihənin uğurla reallaşdırılmasına kollecdə yaradılmış müasir tədris və təşkilati mühit də öz töhfəsini verib. Kollecin direktorunun rəhbərliyi ilə təhsilalanların innovativ layihələrə cəlb olunması, onların nəzəri biliklərini praktik fəaliyyətlə əlaqələndirməsinə şərait yaradılması və müasir texnologiyalar üzrə bacarıqlarının inkişaf etdirilməsi istiqamətində ardıcıl iş aparılır. Bu yanaşma tələbələrin peşə hazırlığının gücləndirilməsinə və onların əmək bazarının tələblərinə uyğun kompetensiyalar qazanmasına imkan verir.

Mütəxəssislərin fikrincə, bu kimi praktik layihələr ali təhsil müəssisələrində tədris olunan nəzəri biliklərin real mühəndislik tapşırıqları üzərində tətbiqinə imkan yaradır, tələbələrin peşə hazırlığının gücləndirilməsinə və əmək bazarının tələblərinə uyğun kompetensiyaların formalaşdırılmasına xidmət edir.

***Nüşabə SEYİD,***
***Azərbaycan Dövlət Pedaqoji Kolleci riyaziyyat-informatika fənn birləşməsinin sədri***

# Boksçularımızdan Serbiyada 13 medal

**Yeniyetmə boksçularımız Serbiyadan əlidolu qayıdıblar.**

Serbiyanın Vrbas şəhərində yeniyetmə boksçular arasında keçirilən Millətlər Kubokunda U-17 komandamızın heyətində Rüstəm Nəsibov (50 kq), İsmayıl Nəsirzadə (52 kq), Əli Abaslı (60 kq), Vəkil Qurbanov (63 kq), Hidayət Məmmədov (70 kq), Yusif Ağakişiyev (75 kq) və Mehran Rəsulov (+80 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.



Aydın Şahbazov (46 kq), Nihat Məmmədli (48 kq), Əli Camalzadə (57 kq), Şükar Əliyev (80 kq) gümüş, Həsrət Məmmədov (46 kq) və Elcan Musazadə (54 kq) bürünc medala sahib olublar. 7 qızıl, 4 gümüş və 2 bürünc medal qazanan Azərbaycan millisi komanda hesabında birinci yeri tutub. Vəkil Qurbanov yarışın "Ən yaxşı xarici boksçusu", Fərhad Rəhmanov "Ən yaxşı hakimi" seçilib.




# Su fasiləsi: futbolçuların sağlamlığı, yoxsa reklamçıların qazancı

**Məlum olduğu kimi, 2026-cı il Dünya Kubokundan əvvəl FIFA idmançıların su içməsinə icazə vermək üçün hər hissədə məcburi üçdəqiqəlik fasilə tətbiq edib. Federasiya oyunçuların təhlükəsizliklərini və sağlamlıqlarını təmin etdiyini, bərabər oyun şəraiti təmin etdiyini bildirib. Lakin bu dəyişiklik futbol ictimaiyyətində mübahisələrə səbəb olub. Oyun rahat temperaturda oynanılırsa, fasilə lazımdırmı?**



Ötən ilin dekabr ayında FIFA 2026-cı il Dünya Kuboku zamanı gözlənilən istilik və yüksək rütubət nəzərə alınmaqla ağlabatan bir qərar kimi görünən su içmək üçün üçdəqiqəlik fasilələrin tətbiq olunduğunu elan etdi. Bu qərarda gözlənilməz olan o idi ki, fasilələr hava şəraitindən və ya stadionun damının olub-olmamasından asılı olmayaraq məcburi olacaqdı. Məqsəd futbolçular üçün rahat oyun şəraiti təmin etmək idi. O vaxt ABŞ, Kanada və Meksikada keçirilən Dünya Kubokunda oyunların təxminən dörddəbirinin həddindən artıq yüksək temperaturda oynanılacağı proqnozlaşdırılmışdı. Bəs temperatur nolmaldırsa, 22-ci və 67-ci dəqiqələrdə fasilələr həqiqətən vacibdirmi? Məsələn, Braziliya və Mərakeş Nyu Yorkda 30 dərəcə temperaturda oynadılar və bu halda su fasiləsi məqbul idi. Amma San-Fransisko körfəzindəki Santa Klarada qarşılaşan Qətər və İsveçrə isə 19 dərəcə temperaturda qarşılaşmışdılar. Belə havada su fasiləsinə ehtiyac var idimi?

Məsələ ilə bağlı məşqçilərin fikirləri bölünür. FIFA-nın yeniliyinə qarşı tənqid əsasən su fasilələrinin məşqçilərə təlimatları çatdırmaq və beləliklə, oyunun gedişatına daha aktiv təsir göstərmək imkanı verməsindən irəli gəlir. Axı su fasilələri olmadan onlar birinci hissənin bitməsini gözləməli olacaqdılar. Bundan əlavə, fasilə matçın ritminə təsir göstərir. Məsələn, fasilədən əvvəl dominant olan komandanın oyununu pozmaqla və ya təzyiq altında olan komandaya nəfəs almaq şansı verməklə. Bu, Cənubi Koreya ilə Çexiya arasındakı matçda özünü göstərdi - Çexiya ilk hissədə üstünlük təşkil etsə də, su fasiləsi onların hücumlarını dayandırdı və oyun yenidən başladıqdan sonra komanda tempi itirərək məğlub oldu.

Fransa millisinin baş məşqçisi Didye Deşam hələ mart ayında su fasilələrinə qarşı çıxış etmişdi: "Məlum oldu ki, oyun dörd hissədə oynanılır. Əgər yaxşı bir oyun nümayiş etdirirsinizsə, bu üç dəqiqə hər şeyi məhv edir. Çətinlik çəkirsinizsə, bu, kömək edə bilər, amma rəqibinizi məğlub etməyə yaxınsınızsa... Bundan televiziya şirkətləri məmnundurlar - onlar daha çox reklam göstərə biləcəklər".

Həqiqətən də, reklamçıların və yayım hüquqları sahiblərinin maraqları vacib amildir. Futbolda reklam, xüsusən də Dünya Kuboku zamanı olduqca gəlirli bir işdir. FIFA fasilə başlayandan ən azı 20 saniyə sonra reklamların yayımlanması və oyunun bərpasından ən azı 30 saniyə əvvəl yayıma qayıtması şərti ilə su fasilələri zamanı reklama icazə verib. Məsələn, Dünya Kubokunun ilk matçında - Meksika və CAR matçında Britaniya yayımçısı ITV reklam verməyib, əksinə, geniş kadrları və əsas anların təkrarlarını göstərib. Amerikanın "Fox" kanalı isə reklamları uzadıb və oyun artıq bərpa edildikdən sonra yayıma davam edib.

ABŞ millisinin baş məşqçisi Maurisio Poçettino hesab edir ki, həddindən artıq isti havalarda fasilələr həqiqətən faydalıdır, lakin rahat havada onlara ehtiyac yoxdur. Portuqaliya millisinin baş məşqçisi Roberto Martinez isə qeyd edib ki, üç dəqiqə taktikanı asanlıqla tənzimləyə bilər: "İlk növbədə bu, su fasiləsidir, lakin bu üç dəqiqə oyunu dəyişdirə bilər. Digər idman növlərində, məsələn, basketbolda bir çox oxşar nümunə görmüşük". Belçika millisinin baş məşqçisi Rudi Qarsiya da fasilələrin tətbiqindən məhz bu səbəbdən məmnun olduğunu bildirib: "Bu, bizə komanda ilə taktika və düzülüşləri müzakirə etmək imkanı verir". Həmçinin Braziliya millisinin baş məşqçisi Karlo Ançelotti Mərakeşlə 1:1 hesablı heç-heçədən sonra fasilələrin problemi müəyyən etmək və oyunçulara izah etmək üçün faydalı olduğunu bildirib: "Taktiki baxımdan bu, çox əlverişli bir andır".

Bu mövqedən başqa misal. Almaniya millisinin baş məşqçisi Julian Nagelsmann üçün Kyurasao ilə matçda su fasiləsi faydalı olub: Kyurasao 20-ci dəqiqədə hesabı bərabərləşdirib hakim 2 dəqiqə sonra su fasiləsi üçün fit çalıb ki, bu da Nagelsmanna oyunçularına sakitcə təlimat verməyə imkan yaradıb. Almaniyanın xeyrinə 7:1 hesabı ilə başa çatan matçdan sonra Nagelsmann etiraf edib: "Su fasiləsi həqiqətən işimizə yarıdı'".

Lakin "Liverpul"un keçmiş baş məşqçisi Yurgen Klopp ZDF-yə verdiyi müsahibədə su fasilələrinin tətbiqini sərt şəkildə tənqid edib: "Futbol kondisionerli ofislərdə oturan menecerlər tərəfindən girov götürülüb. Oyunçuların fasilə zamanı meydanda, sadəcə, dayandığını, matçın ritmini isə televiziya fasilələrinin diktə etdiyini görəndə özümü saxlaya bilmədim: Dünya çempionatı, əslində, kim üçündür, azarkeşlər, oyunçular, yoxsa reklamçılar?". Y.Klopp hesab edir ki, reklam fasilələri oyunun təbii ritmini pozur: "Dünya Kuboku matçı çay kimi axmalıdır. Bunun əvəzinə reklamların keçməsi üçün çayın tam ortasında bəndlər tikirik".

***Rizvan CƏFƏROV,*
*"Azərbaycan"***

## Şərhçi DÇ-2026-ya görə işindən qovuldu

**TRT-də yayımlanan İran-Yeni Zelandiya oyunu zamanı baş verən ciddi şərhçi səhvi narazılıq doğurub. Türkiyə mediasında yayılan xəbərə görə, DÇ-2026-nın G qrupunda keçirilən qarşılaşmanın şərhçisi Murat Ekrem Çimen ilk dəqiqələrdə komandaları bir-biri ilə səhv salıb.**




Təxminən 4 dəqiqə ərzində İranın hücumları Yeni Zelandiyanın, Yeni Zelandiyanın hücumları isə İranın hücumları kimi təqdim olunub. Hadisə qısa müddətdə sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub.

Bundan sonra TRT rəsmi açıqlama yayaraq tamaşaçılardan üzr istəyib. Kanal həmçinin hadisə ilə bağlı xidməti araşdırmaya başlanıldığını açıqlayıb.

Məlumata görə, 30 ildən çox təcrübəyə malik olan Murat Ekrem Çimen ABŞ-dəki dünya çempionatı yayım qrupundan çıxarılıb və turnirin qalan oyunlarında çalışmayacaq.

Türkiyə mətbuatının yazdığına görə, təcrübəli şərhçi baş verən hadisədən sonra sosial şəbəkə hesablarını bağlayıb.

## Qapıçı bir gündə fenomen oldu

**Kabo-Verde millisinin qapıçısı Jozimar Vozinya DÇ-2026-nın ilk turundan sonra sosial şəbəkələrdə fenomenə çevrilib.**



Championat.com saytının yaydığı xəbərə görə, İspaniya ilə oyundan (0:0) sonra 40 yaşlı qolkiperin İnstaqram hesabının izləyici sayı 45 mindən düz 5 milyona yüksəlib.

Bu artım bir sutkadan da az müddətdə baş verib.

Vozinya İspaniya ilə qarşılaşmada möhtəşəm çıxış edib. Təcrübəli qapıçı oyunu qolsuz başa vurub, 7 qurtarış edib və matçın ən yaxşı futbolçusu seçilib.

Maraqlıdır ki, Kabo-Verdenin əhalisi 2026-cı ilin ortalarına olan məlumata görə, təxminən 530 min nəfərdir. Beləliklə, Vozinyanın izləyici sayı ölkəsinin əhalisindən dəfələrlə çoxdur.

Qeyd edək ki, Kabo-Verde millisi H qrupunun 2-ci turunda Uruqvay, son turunda isə Səudiyyə Ərəbistanı ilə qarşılaşacaq.

## Mundial tarixinin ən yaşlı uruqvaylı futbolçusu oldu



Uruqvay millisinin qapıçısı Fernando Muslera futbol dünya çempionatlarının tarixinə düşüb. "Opta" xəbər verir ki, 39 yaşlı qolkiper DÇ-2026-nın qrup mərhələsində Səudiyyə Ərəbistanına qarşı keçirilən oyunda meydana çıxmaqla mundial tarixinin ən yaşlı uruqvaylı futbolçusu rekordunu yeniləyib.

Bundan əvvəl Uruqvay millisinin tarixində ən yaşlı oyunçu mərkəz müdafiəçisi Dieqo Qodin olub. O, DÇ-2022-də 36 yaş 285 günlüyündə meydana çıxıb.

Muslera həm də beşinci dünya çempionatında iştirak edib. O, uzun illərdir Uruqvay millisinin əsas simalarından biri hesab olunur və yığmanın heyətində 130-dan çox oyun keçirib.

Qeyd edək ki, Uruqvay yığması mundialın qrup mərhələsində Səudiyyə Ərəbistanı, İspaniya və Kabo-Verde ilə birlikdə H qrupunda mübarizə aparır.

## Məğlubiyyətə görə baş məşqçi dəyişdi



Dünya çempionatının iştirakçılarından olan Tunis yığmasının yeni baş məşqçisinin adı bəlli olub. İlk turda İsveçə məğlubiyyətə (1:5) görə istefaya göndərilən Sabri Lyamuşini tanınmış fransalı mütəxəssis Herve Renar əvəzləyib.

Məlumatı Tunis Futbol Federasiyasının mətbuat xidməti yayıb.

Renar daha əvvəl Səudiyyə Ərəbistanı, həmçinin Fransanın qadınlardan ibarət millilərini çalışdırıb.

Qeyd edək ki, F qrupunda yer alan Tunis növbəti oyununu iyunun 21-də Yaponiyaya qarşı keçirəcək.

## Asiyalı millilərdən fantastik başlanğıc

Asiya Futbol Konfederasiyasından olan komandalar DÇ-2026-ya uğurla başlayıblar.



Bu qitədən olan komandalar ilk turun 6 oyununda məğlub olmayıblar.

Qrup mərhələsinin ilk turunda konfederasiyanın 9 təmsilçisindən 6-sı oynayıb - 2 qələbə və 4 heç-heçə.

Cənubi Koreya Çexiyanı (2:1), Avstraliya (AFK üzvüdür) isə Türkiyəni (2:0) məğlub edib. Qətər (İsveçrəyə qarşı 1:1), Yaponiya (Niderland ilə 2:2), Səudiyyə Ərəbistanı (Uruqvayla 1:1) və İran (Yeni Zelandiya ilə 2:2) oyunlarını heç-heçə ilə başa vurublar.

Qeyd edək ki, İraq komandası ilk turda Norveç, İordaniya Avstriya, Özbəkistan isə Kolumbiya ilə qarşılaşacaq.

## İnfantino özünü hücumçu kimi təklif etdi

FIFA prezidenti Canni İnfantino dünya çempionatında ilk oyununu Yeni Zellandiyaya qarşı keçirən İran millisinin paltardəyişmə otağına gedib.

Dünya futbol qurumu çətin siyasi vəziyyətdə təzyiq hiss edən iranlı oyunçuları dəstəkləyib.

O, hətta zarafatla özünü İran millisinə hücumçu kimi təqdim edib. "RMC Sport" İnfantinonun sözlərini belə çatdırıb: "Əgər məşqçiniz razılaşarsa, növbəti matçda hücumçu kimi oynaya bilərəm (gülür)".

Xatırladaq ki, İran amerikalılarla siyasi münaqişə və düşmənçiliyə baxmayaraq, ABŞ, Meksika və Kanadada keçirilən dünya çempionatına qatılıb. İlk oyunlarında İran Yeni Zelandiya ilə 2:2 hesablı heç-heçə edib.





## Dünya çempionatlarındakı maraqlı ailə hekayəsi

Yeni Zelandiya futbolu dünya çempionatlarındakı maraqlı ailə hekayəsi ilə diqqət mərkəzinə düşüb.

Yeni Zelandiya qadın millisinin keçmiş üzvü Cenni Bindonun oğlu Tayler Bindon DÇ-2026-da debüt edib.

Müdafiəçi İranla qrup mərhələsinin 1-ci tur matçında (2:2) son dəqiqələrdə meydana daxil olub. Onun anası Cenni Bindon Yeni Zelandiya millisində 77 oyun keçirib, 2007-ci il və 2011-ci il dünya çempionatlarında, həmçinin 2012-ci il Olimpiadasında iştirak edib.

Beləliklə, tarixdə bir ilk yaşanıb. Həm ana, həm də oğul müxtəlif vaxtlarda mundiallarda iştirak etmiş olublar.

## "Misir kimi komandalara boşluq vermək olmaz"

"Misir kimi komandalara boşluq vermək olmaz". Bunu Belçika millisinin baş məşqçisi Rudi Qarsiya Misir yığmasına qarşı DÇ-2026-nın qrup mərhələsinin oyunundan sonra deyib.

Mütəxəssis heç-heçə başa çatan görüşü dəyərləndirib:

"Dünya çempionatı kimi turnirlərdə keçirilən oyunlar hər zaman çətin olur. Xüsusilə də Afrikanın ən güclü millilərindən birinə qarşı çıxış etdik. Belə rəqiblərə boşluq vermək və onların özünəinam qazanmasına imkan yaratmaq olmaz. Rəqib komanda ilk zərbədən qol vurdu. İkinci hissədə bərabərlik qolunu vurduq, qələbə də qazana bilərdik".

Qeyd edək ki, Belçika millisi Misirlə 1:1 hesablı heç-heçəyə razılaşıb.





## İran millisi ABŞ-ni tərk etdi

Futbol üzrə İran millisi hazırda davam edən dünya çempionatının 1-ci turunda Yeni Zelandiya ilə keçirdiyi matçdan (2:2) sonra ABŞ-ni tərk edib.

İnformasiyanı şəxsi "X" hesabı üzərindən jurnalist Romen Molina yayıb.

Məlumata görə, iranlıların İnqlvuddakı "Sou Fay" stadionunda reallaşan qarşılaşmanın ardından Los Ancelesdə gecələyəcəyi və səhər bərpa məşqinə çıxacağı güman edilsə də, komanda G qrupundakı görüşün ardından Meksikaya yola düşüb. İran seçməsinin bazası bu ölkənin ABŞ sərhədinə yaxın ərazisindədir.

***Hazırladı: Dönməz ABBASOV***

# "Azərenerji"də qanvermə aksiyası keçirilib






**Səhiyyə Nazirliyinin Respublika Qan Bankı Publik Hüquqi Şəxsin təşəbbüsü, "Azərenerji" ASC-nin təşkilatçılığı ilə "Qan bağışlamaq həyat qurtarır!" devizi altında qanvermə aksiyası keçirilib.**



"Azərenerji" ASC-nin Baş İdarəetmə, Elm, Tədris və Laboratoriya Kompleksinin binasında keçirilən qanvermə aksiyasında ASC-nin 100-dən artıq əməkdaşı iştirak edib. Qanvermə aksiyasında toplanan qan talassemiya və hemofiliyalı, eləcə də qana ehtiyacı olan digər xəstələrin qan çatışmazlığının aradan qaldırılması üçün nəzərdə tutulub. Aksiyada iştirak edən donorlar qanvermədən öncə Respublika Qan Bankı Publik Hüquqi Şəxsin tibbi heyətinin bütün tibbi yoxlanışlarından keçdikdən sonra qan veriblər.

Qeyd edək ki, 2005-ci ilin fevral ayında birinci xanım Mehriban Əliyeva "Talassemiyasız həyat Naminə" proqram layihəsinin başlanmasını elan edəndən bəri "Azərenerji" ASC də bu layihənin ən fəal davamçılarından birinə çevrilib.

*B. MİRZƏYEV,*
*"Azərbaycan"*

# Ermənistanda seçkisonrası siyasi gərginlik davam edir

## Revanşistlər mübarizələrini davam etdirmək üçün haranı seçəcəklər - parlamenti, yoxsa küçəni?

Ermənistanda iyunun 7-də keçirilmiş parlament seçkilərinin yekun nəticələri açıqlanıb. Mərkəzi Seçki Komissiyasının məlumatına görə, seçkilərdə 1 milyon 476 min 769 nəfər iştirak edib. Bu isə 58,9 faiz seçici fəallığı deməkdir.



Nəticələrə əsasən, hakim "Vətəndaş Müqaviləsi" Partiyası səslərin 49,7 faizini toplayaraq birinci olub. Bununla "Vətəndaş Müqaviləsi" Ermənistanın yeni hökumətini təkbaşına formalaşdırmaq imkanı əldə edib. Samvel Karapetyanın başçılıq etdiyi "Güclü Ermənistan" bloku seçicilərin 23,2 faizinin dəstəyini qazanıb. Sabiq prezident Robert Koçaryanın "Ermənistan" bloku isə 9,9 faiz səs toplayıb.

Yekun nəticə Nikol Paşinyanın daxili siyasətdəki mövqeyinin möhkəm olduğunu göstərir. Səslərin demək olar ki, yarısını toplamaq hakim komanda üçün böyük üstünlükdür. Bu mənzərə Paşinyana koalisiya tərəfdaşı axtarmadan, daxili islahatları və xarici siyasət qərarlarını təkbaşına qəbul etmək mandatı verir.

Seçki nəticələrinin yaratdığı şok dərhal özünü büruzə verməyə başlayıb. Bir neçə gün əvvəl "Çiçəklənən Ermənistan" Partiyasının sədri Qaqik Sarukyan Ermənistandan qaçmağa cəhd edib. Lakin hüquq-mühafizə orqanları onun ölkəni tərk etməsinə mane olub. Baş Prokurorluğun məlumatına görə, artıq Sarukyanın barəsində cinayət işi başlanılıb və ölkədən çıxmasına rəsmi qadağa qoyulub. Qeyd edək ki, Sarukyanın partiyası parlament seçkisində tamamilə uğursuzluğa düçar olaraq mandat qazana bilməyib.

Sarukyanın ardınca Ermənistanın sabiq prezidenti Robert Koçaryan da ölkəni tərk etmək istəyib. Hüquq-mühafizə orqanları ona da qaçmaq şansı verməyib.

Qaçış cəhdləri seçkilərin nəticələrindən sonra müxalifət düşərgəsində panikin olduğunu göstərir. Xüsusən oliqarx-siyasətçi Sarukyanın seçkidə uduzması onun toxunulmazlığını və siyasi qalxanını itirməsi anlamına gəlir. Hüquq-mühafizə orqanlarının sərt addımları isə Paşinyanın dövlət aparatına və güc strukturlarına tam nəzarət etdiyini nümayiş etdirir. Faktiki olaraq, hakimiyyət bu həbs və maneələrlə müxalifətə "sizi ölkədən buraxmayacaq və hər birinizi törətdiyiniz əməllərə görə hesaba çəkəcəyik" mesajını verir.

Baş nazir Nikol Paşinyan qaçmaq üçün fürsət axtaran revanşist liderlərə heç bir halda güzəşt edilməyəcəyini kəskin şəkildə bəyan edib. Bildirib ki, erməni xalqı açıq şəkildə "üçbaşlı mafiya"nın diz çökdürülməsini və məhv edilməsini tələb edir və bu proses qaçılmaz olaraq baş verməlidir: "Yeri gəlmişkən, kaluqalının əsas kuklası olan Serj Sarkisyanı unutmamışıq və unutmayacağıq. Ona görə də panikaya düşüb çantalarınızı yığmağa tələsməyin. Hətta seçki kampaniyası zamanı da demişdim ki, Ermənistandan qaçmaq fürsətini xəyal edəcəksiniz, amma bu fürsətiniz olmayacaq".

Paşinyanın aqressiv ritorikası seçki qələbəsindən sonra özünəinamın artması ilə bağlıdır. Baş nazir rəqiblərini legitim siyasi müxalifət kimi yox, birbaşa "mafiya" və "xalq düşməni" kimi qələmə verməklə ölkədə başlayacaq daxili təmizləmə hərəkatına hüquqi və mənəvi zəmin hazırlayır. Baş nazir revanşistlərin kökünü kəsmək istəyini artıq gizlətmir və cəmiyyətin keçmiş korrupsioner elitalara olan köhnə nifrətindən böyük ustalıqla yararlanır.

Bunların fonunda keçərli mandat sayını toplayan müxalifət küçələri boş qoymaq niyyətində deyil. Samvel Karapetyan Baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq məqsədilə deputat mandatlarını qəbul edərək parlamentə daxil olacaqlarını bildirib. O iddia edib ki, seçkilər tamamilə uğursuz oldu, saxtalaşdırıldı, terror və həbslər şəraitində keçirildi: "Əgər hesab etsək ki, Nikol Paşinyanı parlament vasitəsilə daha tez hakimiyyətdən uzaqlaşdıra bilərik, o zaman parlamentə gedəcəyik. Əgər hesab etsək ki, bunu küçə mübarizəsi yolu ilə edə bilərik, onda küçə mübarizəsi yolu ilə edəcəyik".

Karapetyanın açıqlaması müxalifətin məğlubiyyəti heç bir vəchlə qəbul etmədiyini və Paşinyan hökumətini bundan sonra da legitim saymayacağını göstərir. Müxalifət daxili həbslərdən qorunmaq, toxunulmazlıq statusu almaq və dövlət tribunasından istifadə etmək üçün parlamentə daxil olmağı strateji hədəf seçib. Paralel olaraq, "küçə mübarizəsi" variantının da gündəmdə saxlanılması Ermənistanda yaxın gələcəkdə siyasi sabitliyin bərqərar olmayacağının siqnalıdır. Görünən odur ki, müxalifət parlamentdən küçədəki gərginliyi alovlandırmaq üçün istifadə etmək niyyətindədir.

Sabiq prezident Robert Koçaryan da küçə mübarizəsinin daha effektli olacağını düşünür: "Müxalifət səsləri kəskin şəkildə artıb. Əslində, hətta ləğv edilmiş səsləri də nəzərə alsaq, onların böyük hissəsi müxalifət səsləridir. Bu rəqəm 600 mindən çoxdur. Əgər onların 10 faizi küçələrə çıxsa, bu hakimiyyətin taleyini bir il ərzində həll etmək üçün kifayət edər".

Ermənistanda yaşananlar birmənalı şəkildə sübut edir ki, parlament seçkiləri ölkədəki böhranı bitirməyib, sadəcə, fərqli mərhələyə daşıyıb. Hakimiyyət və müxalifətin qarşılıqlı aqressiyası fonunda yaxın dövrdə Ermənistanda siyasi həbslərin yeni dalğasının başlaması və daxili qarşıdurmaların kəskinləşməsi də ehtimal olunur.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

**Azercell abunəçilərinin nəzərinə!**

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 17.06.2026-cı il tarixdə saat 23:30-dan etibarən 18.06.2026-cı il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə imkanı təmin ediləcəkdir.

# Ermənistan vətəndaşlarının şikayətləri üzrə Apellyasiya Məhkəməsi davam etdirilib

**İyunun 16-da Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə məhkəmə baxışı davam etdirilib.**





AZƏRTAC xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

Sədrlik edən xatırladıb ki, ötən məhkəmə iclasında müdafiə çıxışına hazırlaşmaq istəyənlərə vaxt verilib.

O, müdafiə tərəfindən çıxışlara hazır olub-olmadığını soruşub.

Müdafiə tərəfi çıxışlara hazır olduğunu bildirib. Sədrlik edən qeyd edib ki, müdafiə çıxışları apellyasiya şikayətlərinin daxil olması ardıcıllığı ilə davam etdiriləcək.

Təqsirləndirilən Davit İşxanyan söz alaraq müdafiəçisi ilə konfidensial qaydada görüşmək istədiyini bildirib. Onun vəsatəti təmin edilib.

Məhkəmədə elan olunan fasilə zamanı D.İşxanyan müdafiəçisi ilə konfidensial qaydada görüşüb. Fasilədə o, həmçinin tərcüməçinin iştirakı ilə 26 may tarixli məhkəmə iclasının protokolu ilə tanış olub.

Sonra müdafiə çıxışı üçün söz təqsirləndirilən Levon Mnatsakanyanın vəkilinə verilib. Vəkil çıxışında L.Mnatsakanyan barəsində bəraətverici əsaslarla qərar çıxarılmasını məhkəmədən xahiş edib. Ardınca L.Mnatsakanyan çıxış edib. Təqsirləndirilən şəxs vəkilinin söylədiklərini müdafiə etdiyini deyərək, öz arqumentlərini səsləndirib.

Məhkəmənin növbəti iclası iyunun 23-də keçiriləcək.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin 5 fevral 2026-cı il tarixli hökmünə əsasən, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan və David Babayan ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan və Melikset Paşayan 19 il, Qarik Martirosyan 18 il, Davit Allahverdiyan və Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryan isə 15 il müddətinə azadlıqdan məhrum ediliblər.

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevə əzizi, görkəmli yazıçı-dramaturq, publisist, dövlət xadimi və diplomat, Əməkdar incəsənət xadimi

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Mübariz Qurbanlı görkəmli yazıçı-dramaturq, dövlət xadimi və diplomat, Əməkdar incəsənət xadimi

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Əməkdar elm xadimi Vaqif Şadlinski ailəsi ilə birlikdə görkəmli yazıçı-dramaturq, dövlət xadimi və diplomat

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

AMEA Arxeologiya və Antropologiya İnstitutunun kollektivi institutun əməkdaşı

**TƏRANƏ FAZİL QIZI RƏHİMOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Oruc Zalov Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevə əzizi, görkəmli yazıçı-dramaturq, dövlət xadimi və diplomat

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bəxtiyar Sadıqov Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevə əzizi, görkəmli yazıçı-dramaturq, dövlət xadimi və diplomat, Əməkdar incəsənət xadimi

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi yazıçı-dramaturq, dövlət xadimi və diplomat, Əməkdar incəsənət xadimi

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi iş yoldaşları Vüqar Hüseynova əzizi

**MAHİR RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının kollektivi Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Elgin Həbibullayevə əzizi

**OQTAY MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova görkəmli yazıçı-dramaturq, publisist, dövlət xadimi və diplomat, Əməkdar incəsənət xadimi

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevə əzizi, görkəmli yazıçı-dramaturq, dövlət xadimi və diplomat, Əməkdar incəsənət xadimi

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru professor Gülçöhrə Məmmədova və universitetin kollektivi görkəmli yazıçı-dramaturq, dövlət xadimi və diplomat, Əməkdar incəsənət xadimi

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3785
Sifariş 781

Qiyməti 60 qəpik